**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

*Əlyazması hüququnda*

# “AZƏRBAYCANIN AVROPA İTTİFAQI İLƏ ƏMƏKDAŞLIĞI VƏ BU BİRLİYƏ DAXİL OLMA PERSPEKTİVLƏRİ” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Əliyev Teymur Şirzad oğlu**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**dos. Əhmədov Fariz Saleh oğlu**

**Təsdiq edirəm**
_____________(imza)

"__"_________2019-ci il

# "AZƏRBAYCANIN AVROPA İTTİFAQI İLƏ ƏMƏKDAŞLIĞI VƏ BU BİRLİYƏ DAXİL OLMA PERSPEKTİVLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060401 - Dünya iqtisadiyyatı**
**İxtisaslaşma: Beynəlxalq İqtisadi Münasibətlər**
**Qrup: 800**


**Magistrant**

**Əliyev Teymur Şirzad oğlu**

___________________

**Elmi rəhbər**

**İ.e.n., dos. Səmədova Mehriban Tofiq qızı**

___________________

**Proqram rəhbəri**

**İ.f.d., Nəcəfova Kəmalə Akif qızı**

___________________

**Kafedra müdiri**

**İ.e.d., professor Kəlbiyev Yaşar Atakişi oğlu**

___________________


**BAKI - 2019**

**BAŞLIQ**

## Summary

**The relevance of the research: The breakthrough in the global economic system of the modern era, especially the balance of power in the South Caucasus region, the adaptation of certain conditions in our country's economic field, the establishment of stability in all sectors of the economy and the implementation of the concept of sustainable economic development are essential for Azerbaijan to come closer to the European Union.**
**Purpose and tasks of the research : The purposes of the study are to examine the current state of relations between the European Union and Azerbaijan from political, economic and other aspects, and to evaluate the potential for admitting this strong union in the coming years.**
**Used research methods: Grouping, mathematical and statistical methods were used for quantitative analysis of indicators such as commercial, financial allocation aid, economic statistics of our country between Azerbaijan and the European Union, presented in tables and graphs.**
**Research information database: The databases required for the analysis of the collected data are annual reports of the State Statistical Committee of Azerbaijan, the annual reports and trade reports of the European Commission, the Heritage Foundation, the European Statistical Committee's annual report.**
**Limitations of Research: The lack of information in the Azerbaijani language on theoretical basis in the process of establishing the European Union in the study.**
**The results of the study : The main findings of the study are the assessment of the current state of Azerbaijan's accession to the EU on the basis of modern approaches**
**Scientific and practical significance of results : The results of the study will contribute to the improvement of the current realities in the direction of Azerbaijan's European Union policy**

**Key words: Azerbaijan, European Union, integration, membership criteria**

# İXTİSARLAR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **AFR** | Almaniya Federativ Respublikası |
| **AKPB** | Avropa Kömür və Polad Birliyi |
| **Aİ** | Avropa İttifaqı |
| AP | Avropa Parlamenti |
| AQS | Avropa Qonşuluq Siyasəti |
| ATZ | Azad Ticarət Zonası |
| BİM | Beynəlxalq İqtisadi Münasibətlər |
| BTC | Bakı Tbilisi Ceyhan |
| BTƏ | Bakı Tbilisi Ərzurum |
| CQD | Cənub Qaz Dəhlizi |
| DTT | Dünya Ticarət Təşkilatı |
| TÜS | Təkmilləşdirilmiş Üstünlüklər Sistemi |

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ.....................................................................................................** | **4** |
| **I FƏSİL** | **AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ YENİ QONŞULUQ SİYASƏTİ......................................................................................** | **8** |
| I.1. | Avropa İttifaqının bütövləşmə prosesi, ortaq xarici siyasətə yönələn nəzəri yanaşmalar........................................................................... | 8 |
| I.2. | Genişlənmə strategiyasının ümumi çərçivəsi............................................ | 12 |
| I.3 | Sosializmin süqutundan sonra Cənubi Qafqazda inteqrasiya axtarışları və Yeni Qonşuluq Siyasəti............................................................................ | 19 |
| **II FƏSİL** | **AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA BİRLİYİ İLƏ ƏMƏKDAŞLIĞININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ..................................................................** | **29** |
| II.1. | Avropa Birliyinin Azərbaycanla apardığı siyasi fəaliyyətinin təhlil edilməsi.................................................................................................... | 28 |
| II.2. | Azərbaycanın Avropa Birliyi İqtisadi Əməkdaşlığının mövcud vəziyyətinin təhlili......................................................................................... | 38 |
| **III FƏSİL** | **AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA BİRLİYİNƏ ÜZV OLMASI PERSPEKTİVLƏRİ..............................................................** | **47** |
| III.1. | Avropa İttifaqına üzv olma şərtləri- Kopenhagen kriteriyaları.................. | 47 |
| III.2. | Azərbaycanın Aİ-ə daxil olma perspektivləri............................................. | 57 |
| III.3. | Aİ-ə üzv olmaqla Azərbaycanın əldə edə biləcəyi üstünlüklər və inkişafa təsir göstərəcək amillər.................................................................................. | 65 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR...................................................................** | **75** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.....................................................** | **79** |
| | ƏLAVƏLƏR............................................................................................... | 83 |
| | Cədvəllərin siyahısı.................................................................................... | 83 |
| | Qrafiklərin siyahısı..................................................................................... | 83 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir dövrdə Azərbaycan Avropa Birliyi ilə münasibətlərində daha çox ikitərəfli əməkdaşlığa önəm verir. Ölkəmiz Avropa İttifaqının təşkil etdiyi bir çox layihələrində iştirak etməklə, ikitərəfli proyektlərin yeni ölçülərini yaradır. Son dövrlərdə qlobal iqtisadi sistemdə tarazılığın pozulması , xüsusilə Cənubi Qafqaz regionunda güclər balansının dəyişməsi, kiçik region dövlətlərinin, özəlliklə də Azərbaycanın iqtisadi sahədə qarşılaşdığı müəyyən şəraitə uyğunlaşmaq, Respublikada iqtisadiyyatın bütün sahələrində stabilliyin təmin edilməsi, dayanıqlı iqtisadi inkişaf konsepsiyasının həyata keçirilməsi məqsədi Azərbaycanın Aİ-ə yaxınlaşmasını və ən önəmlisi bu birliyə daxil olmasını zəruri edir.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandığı vaxtdan etibarən Avropa həmişə xarici siyasət prioritetlərindən və əsas müttəfiqlərindən biri olmuşdur. Dissertasiya işində ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf mərhələləri araşdırılmış , Avropanın apardığı qonşuluq siyasəti ilə inteqrasiya prosesi tədqiq edilmiş , 28 illik əlaqənin tarixi inkişafı və gedişatını tədqiq edərək iqtisadi-siyasətin praktiki tətbiq sahələri müəyyən edilmişdir. Bu çərçivədə ölkəmizin Avropa İttifaqına inteqrasiya prosesi dəyərləndirilmiş və gələcək dövr üçün bu birliyə daxil olma potensialı təhlil edilmişdir. Dissertasiya işinin nəticəsinin əldə olunması üçün vergilər, maliyyə, ədliyyə, energetika, təhsil, səhiyyə, iqtitsadiyyat və sənaye sahələri üzrə beynəlxalq çərçivədə müqayisə edilərək araşdırmalar aparılmışdır. İrəli sürülən konsepsiyalar, hipotezlər yaxın gələcək zamanda araşdırılan mövzunun BİM ixtisası üzrə yazılan elmi ədəbiyyatlarında aktual mövzu kimi öz yerini ala bilər.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Azərbaycanın Aİ ilə əməkdaşlığı, bu əməkdaşlığın tarixi inkişaf mərhələləri, siyasi və iqtsadi mahiyyəti, eyni zamanda Aİ –in yaranması , genişlənməsi, həyata keçirdiyi siyasətlə bağlı son illərdə bir neçə elmi tədqiqat işləri həyata keçirilmiş, siyasi-iqtisadi ədəbiyyatlarda bir sıra monoqrafiq və elmi məqalələr dərc edilmişdir. Azərbaycanın Aİ ilə qurduğu iqtisadi, siyasi münasibətlər, bu əlaqələrin inkişaf istiqamətləri, Azərbaycanın iqtisadçı alimlərindən

H.Hüseynova, M.Əhmədov, R.Şahbazov, B.Manafova, H.M.Rəcəbli kimi alimlərin elmi əsər və məqalələrində müxtəlif kontekstdən araşdırılmışdır. Aİ-in yaranması, genişlənməsi, keçdiyi inkişaf yolu, həmçinin Azərbaycanla əməkdaşlığının əsasını qoyması, bu münasibətlərin müxtəlif sahədə təkmilləşdirilməsi kimi məsələlər təhlil olunmuşdur. Sadalanan elmi müəlliflərin əsərlərindən istifadə edərək ölkəmizin Aİ-ə daxil olması üçün həmin qurumun keçdiyi inkişaf yolunun təhlil edilməsi, həyata keçirilən islahatların mahiyyətinin öyrənilməsi , ölkəmizdə tədqiq olunması və gələcək dövr üçün Azərbaycanın AB-ə daxil olmaq perspektivlərinin artırılması bu məsələnin nəzəri və praktiki cəhətdən dərindən tədqiq olunmasını zəruri edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Aİ-in Azərbaycanla "Yeni qonşuluq" prinsipi çərçivəsində apardığı əməkdaşlığın təhlil edilərək ümumilişdirilməsi, gələcək dövr üçün bu birliyin üzvü olmaq perspektivlərinin aparılan təhlillə qiymətləndirilərək elmi cəhətdən əsaslandırılan təkliflərin hazırlanmasından ibarətdir . Bu məqsədlərin həyata keçirilməsi üçün aşağıdakı ardıcıllıq qurulmuşdur:

1. Aİ-in yaradılması üçün irəli sürülən nəzəri əsasların incələnərək Azərbaycan üçün nümunə təşkil etməsinin təhlil edilməsi və Aİ-in genişlənməsi zamanı tələb olunan meyarların ölkəmiz üçün uyğunluğunun müəyyən edilməsi ;
2. Ölkəmizin müstəqillik əldə etdikdən sonra Aİ ilə yaratdığı əməkdaşlığın effektivliyi və AB-in apardığı siyasətlə ölkəmizə yanaşma tərzinin araşdırılması;
3. Aİ-Azərbaycan münasibətlərinin bir çox sahələr üzrə yaxşılaşdırılması , bu əməkdaşlıqda yol xəritəsinin çəkilməsi, Azərbaycanın geosiyasi mövqeyinin önəminin öyrənilməsi və Avropaya yönəlmə gerçəkliyinin araşdırılmasından ibarətdir;
4. Azərbaycanın bu birliyə daxil olması məsələsinin analiz edilərək qiymətləndirilməsi, bu prosesin həyata keçirilməsində hüquqi baza perspktivlərinin öyrənilməsi, nəzəri və metodoloji əsasların araşdırılması, irəli sürülən

konsepsiyalar, həyata keçirilə biləcək islahatlar, inteqrasiya strategiyasının seçilməsi və qeyd olunan istiqamətdə atıla biləcək addımların müəyyən edilməsi;

5. Xüsusi proqramlar çərçivəsində qurulan iqtisadi, elmi, mədəni, sosial, nəqliyyat – kommunikasiya, infrastruktur istiqamətlərində aparılan əlaqələrin mahiyyəti tədqiq olunaraq gələcəkdə təkmilləşdirilməsi;

6. Azərbaycanın Aİ-ə daxil olmaq üçün qarşıya qoyulan siyasi, iqtisadi , AB standartlarına uyğunluq və digər məsələləri əhatə edən meyarların araşdırılaraq ölkəmizin bu mərhələyə hazırlıq prosesinin təşkil edilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Aİ-in Azərbaycanla əməkdaşlığı və ölkəmizin bu ittifaqa daxil olma potensialıdır. Ölkəmizin Qlobal İqtisadi böhran şəraitində düzgün iqtisadi inkişaf strategiyalarının seçilməsi, kiçik iqtisadiyyatlı dövlətlərin, eləcə də ölkəmizin Avropa İttifaqı ilə apardığı və gələcəkdə aparacağı iş birliyinin nəticəsində əldə edə biləcəyi qazanc və mənfəətlər, o cümlədən, milli maraqlarımızın təmin edilməsi, bu birliyə daxil ola bilməyimiz üçün həyata keçirilməli olan islahatlar, Aİ-ə üzv olacağımız təqdirdə ölkəmizin tək iqtisadi deyil, bütün institusional strukturlarında baş verə biləcək müsbət və mənfi dəyişikliklər kimi məsələlərin öyrənilməsi çox mühüm önəm daşıyır. Növbəti mərhələlərdə ölkəmizin bu birliyin üzvü olması məsələsinin analiz edilərək qiymətləndirilməsi, bu prosesin həyata keçirilməsində hüquqi baza perspktivlərinin öyrənilməsi, inteqrasiya strategiyasının seçilməsi,bu istiqamətdə atıla biləcək addımların müəyyən olunmuşdur.

**Tədqiqatın metodları.** Tədqiqatda müşahidə, qruplaşdırma, riyazi-statistik və analiz metodlardan geniş şəkildə istifadə olunmuşdur. Aİ-Azərbaycan arasındakı siyasi münasibətlərdə yüksəliş, enişlərin, inkişaf və geriləmələrin müəyyən edilməsi üçün müşahidə metodundan istifadə zəruridir. Azərbaycanla Aİ arasında olan ticarət, maliyyə yardımları, ölkəmizin iqtisadi göstəricilərini kəmiyyət baxımından təhlil etmək üçün riyazi və statistik üsullardan, geniş istifadə edilmiş, cədvəl və qrafiklər əks olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində ən çox istifadə olunan informasiya məlumatların, sosial-iqtisadi proseslər arasındakı qarşılıqlı əlaqə və

asılılıqların və onların inkişaf qanunauyğunluqlarının təsvir edən cədvəl və qrafiklərdir. Məlumatların toplanaraq analiz edilməsi üçün lazımlı olan vasitələr Azərbaycan Respulikası Dövlət Statistika Komitəsinin illik hesabatları, Avropa Komissiyasının illik dərc etdiyi iqitsadi göstəricilər və ticarət hesabatları , Heritic Fondunun (Heritage Foundation) , Avropa Statistika Komitəsinin - Eurostatın illik hesabatları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiq olunan işdə Avropa İttifaqının yaranması prosesində nəzəri əsaslar üzrə Azərbaycan dilində məlumatların yetərsizliyi araşdırmadakı əsas çatışmazlıq sayılır.

**Nəticələrin elmi və praktiki əhəmiyyəti.** İrəli sürülən konsepsiyalar, hipotezlər, yaxın gələcək zamanda araşdırılan mövzunun Dünya iqtisadiyyatı ixtisası üzrə yazılan elmi ədəbiyyatlarında önəmli mövzu kimi istifadə oluna bilər. Həmçinin , bu tədqiqat işində əldə olun nəticələr Azərbaycanın gələcək xarici iqtisadi siyasətində, diplomatiya sahəsində ölkəmizin düzgün siyasi - iqtisadi xətt strategiyasının təkmilləşdirilməsində yardımçı mənbə kimi rol oynaya bilər. Araşdırılan məsələlər BİM ixtisası üzrə elmi-pedoqoji fəaliyyət sahələrində Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin yaranma tarixi, keçdiyi yollar və digər iqtisadi, siyasi, ictimai, sosial məsələləri və gələcək prioritetləri özündə əks etdirən bir mövzu kimi dərsliklərdə öz yerini ala bilər.

**Dissertasiya işinin strukturu və həcmi.** Yazılmış dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ YENİ QONŞULUQ SİYASƏTİ

## 1.1.Avropa İttifaqının bütövləşmə prosesi, ortaq xarici siyasətə yönələn nəzəri yanaşmalar

Avropada inteqrasiya prosesinin siyasi ölçüsü olan ortaq xarici siyasət və daha sonra təhlükəsizlik siyasəti haqqında bir çox fikir ortaya atılmışdır. Qərbi Avropa inteqrasiyasını açıqlayan nəzəriyyələrdə siyasi inteqrasiyanın üzərində dayanılmadığı, xüsusilə ortaq xarici siyasətin yox qəbul edildiyi müşahidə olunur. Çox az istisna xaricində Avropa inteqrasiya nəzəriyyələri, ümumiyyətlə, iqtisadi inteqrasiyanın açıqlanması üzərində cəmləşir. Birliyin ortaq xarici siyasət tətbiq etməsi, məzmunlu nəzəriyyələr yerinə əsasən "ad hoc" fərziyyələrlə yəni köməkçi əlavə hipotezlərlə açıqlanmışdır. Bunların ən başında NATO-nun varlığı gəlir.

İkinci Dünya müharibəsindən sonra Avropa mövcud olan ölkələr arasında ortaq xarici siyasət , müdafiə sahəsində ortaq məqsədlərin yaradılmaması, bu boşluğun NATO tərəfindən doldurulmasına gətirib çıxarmışdır. Xüsusilə də Soyuq Müharibə dövründə vahid düşmənin yaradılması Şərq Blokuna qarşı Şimali Atlantik İttifaqın "qanadlar"ı altında Avropa ölkələrinin təşkilatlanması prosesini sürətləndirmiş, birgə xarici siyasətin əsasının qoyulmasında başlıca amil olmuşdur. (Şahbazov R., 2015: s.232)

Avropada inteqrasiya prosesi ilə əlaqəli ilkin yaranan nəzəriyyə olan Neo-Funksiyonalist nəzəriyyə Ernest Bernard Haas tərəfindən ortaya atılmışdır. Bu nəzəriyyə, mərhələli şəkildə bir inteqrasiyanı nəzərdə tutur. O, əməkdaşlığa qoşulan ölkələr arasındakı inteqrasiya hərəkatının kömür və polad birliyindən başlayaraq addım-addım irəliləyəcəyini, əvvəlcə iqtisadi, sonra isə siyasi inteqrasiyanın təmin edəcəyi fikrini irəli sürmüşdür.

Funksionalist nəzəriyyədən ilhamlanan E. B.Haas Neo-Funksional nəzəriyyənin əsas arqumentlərindən birinin "yayılma" təsiri olduğunu söyləmişdir. Funksionalizm ölkənin daxili işlərinə müdaxilə etməmək, qlobal iqtisadiyyatı iqtisadi qaydalara

uyğun olaraq idarə etmək, iqtisadi qeyri-sabitliklərə gətirib çıxaran amilləri minimuma endirmək, yüksək savadlılıq və təhsilə nail olmaq, sağlamlıq problemlərini və sosial ədalətsizliyin qarşısında dayanmaq üçün həyat standartlarını yaxşılaşdırmağı təklif edir. Eyniz zamanda bu nəzəriyyə sülh, sosial və iqtisadi problemlərə həll yolları yarada bilən struktur və quruluş tələb edir.

Funksionalizmə görə inteqrasiya prosesində təsirli olan aktyorlar, müəyyən bir sektorda həyata keçirdikləri inteqrasiyanı digər sektorlara da yaymaq meyli daşıyır. Yayılma təsirinin formalaşmasında inteqrasiya içərisində yer alan subyektlər, bu prosesin onların öz maraqlarına xidmət edəcəyi fikri də rol oynayır . Qeyd olunan proses iqtisadiyyatın alt sektorlarından siyasi inteqrasiyaya qədər uzanacaq, inteqrasiya prosesinə qoşulan sektorların artması ilə birlikdə yeni beynəlmilli qurumlar yaradacaq, yeni siyasi hakimiyyətlər və asılılıqları ortaya çıxardacaqdır. (Şahbazov R., 2015: s.232)

E.Haas tərəfindən ortaya atılan bu iddialar, Avropa İttifaqı mütəxəssisləri və alimlər tərəfindən intensiv şəkildə müzakirə edilmişdir. Digər tərəfdən, başlanğıcından etibarən bu günə kimi Aİ inteqrasiyası ortaya qoyduğu praktiki fəaliyyəti də Neo-funksiyonalist nəzəriyyəni təsdiqləmişdir. Kömür və polad sektorları ilə başlayan əməkdaşlığının miqyası, digər tərəfdən ayrı bir təşkilat vasitəsilə atom enerjisi sahəsində intensivləşmiş, Avropa İqtisadi Birliyi içərisində Gömrük İttifaqının və vahid bazarın başa çatdırılması, struktur fondların artması, texnologiya və ətraf mühit siyasətləri kimi yeni inkişaflara yol açmış; Avropa inteqrasiya hərəkatının dərinliyini , 1999-cu ilin əvvəlindən etibarən İqtisadi və Pul İttifaqı səviyyəsinə çatdırmışdır.

Daha sonralar isə İmmanuel Vallerştayn tərəfindən ortaya atılan “Dünya Sistemi” yanaşması ilə Aİ-in siyasi müstəvidə qeyd edilən proseslərini açıqlamaq mümkün olmuşdur. “Dünya sistemi” münasibətinin əsas arqumentləri bu şəkildə sıralanmaqdadır:

1. Hər şeydən öncə bu yanaşma iqtisadi, sosial və siyasi hadisələri regional və milli səviyyə əvəzinə, qlobal səviyyədə (dünya sistemi içərisində) izah etməyi qarşısına məqsəd qoyur;

2. "Dünya Sistemi" anlayışı ilə nəzərdə tutulan sistem tək bir kapitalist sistemdir, bu sistemin içində təşkilatlanma strukturu bir-birindən tamam fərqli dövlətlər yer alır;

3. Sistemdə mərkəzi ilə ətraf mühit arasında güc və zənginlik baxımından qabarıq bərabərsizliklər var. Güc mərkəzləri dünyanın müəyyən bölgələrində toplanmışdır. Bunun qarşılığı olaraq , buralarda yoxsulluq və işsizlik hakimdir. İki tərəf arasında qalan regionlar isə yarı ətraf mühit yəni subregion xüsusiyyəti daşıyır;

4. Bu sistemdə mərkəzdə yer alan ölkələr arasındakı rəqabət hər zaman münaqişə riski daşıyır;

5. Bu sistemin davamı üçün bəzi balansların sabit bir şəkildə qorunması lazımdır.(Ercan A.,Ercan B., 2015: s.420)

Əsas müddəaları qısaca yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, “Dünya Sistemi” yanaşmasına görə, istənilən bir dövlətin sərhədləri içərisində meydana gələn bir hadisə, əslində o dövlətin dünya sisteminə cavabından başqa hər hansı bir şey deyil. Avropa Birliyinin vahid xarici siyasət və təhlükəsizlik siyasəti də bu çərçivədə ələ alınıb təhlil olunmalıdır.

“Dünya Sistemi” nəzəriyyəsinə görə Qərbi Avropada meydana gələn bütün mühüm hadisələr ABŞ-ın hegemonluğuna qarşı bir cavab mənası daşıyır. Siyasi inteqrasiya sahəsində 1970-ci illərdə başlayan və 1992 Maastrixt müqaviləsi ilə “Ortaq Xarici Siyasət və Təhlükəsizlik Siyasəti” adını alan iqtisadi və siyasi əməkdaşlıq prosesində ortaya qoyulan praktika “Dünya Sistemi” yanaşmasının əsas arqumentlərini təsdiq edir.

Avropanın radikal rejimlərə qarşı ABŞ-dan fərqli olaraq daha mülayim siyasət aparması və İran rəhbərliyi ilə uzun müddət ərzində (xüsusilə Mahmud Əhmədinicat rəhbərliyinə qədərki mərhələdə) bir çox sahədə əməkdaşlıq etməsi beynəlxalq sistemdə ABŞ-Aİ rəqabətinin mövcud olduğunu sübut edir. Bundan əlavə olaraq ABŞ

ilə Aİ arasındakı çəkişmə keçmiş sovet ölkələrində, Rusiya ilə münasibətlərdə, Cənubi Afrika, Latın Amerikası , Asiya Sakit Okean bölgəsində özünü göstərmişdir.

Avropa İttifaqının bu günə kimi ortaya qoyduğu xarici siyasətin tam mahiyyətini Beynəlxalq Münasibətlərin Klassik nəzəriyyəsi ilə açıqlamaq mümkündür. Bu nəzəriyyənin digər adı isə Realist nəzəriyyə sayılır. Realist yanaşmaya görə, beynəlxalq sistemdə mərkəzi bir hökumət yoxdur. Qayda qoyan, nizam-intizamı pozanlara qarşı sanksiya ilə hədələmə və ya sanksiya tətbiq edən bir hakimiyyət yoxdur. Sistemin anarxist quruluşu səbəbiylə, dövlətlər öz təhlükəsizliklərini qorumağa böyük əhəmiyyət verməlidir. Əslində dövlətlərin bütün səyi, qeyri-sabit beynəlxalq quruluş içərisində müstəqillik, ərazi bütövlüyü və suverenliyini qorumaqdır. Dövlətlərin xarici siyasət məqsədləri ilə milli qüvvələri arasında birbaşa əlaqə vardır. Xarici siyasət məqsədləri müəyyən edərkən milli güc nəzərə alınmalıdır. Dövlətlər münaqişə riskinin yüksək olduğu beynəlxalq sistemdə milli hədəflərini həyata keçirmək məqsədilə bir-birləri ilə əməkdaşlıq edirlər. İkinci Dünya müharibəsi Avropa İcmaları da eyni məqsədlə hərəkət edən Qərbi Avropa dövlətlərinin səyləri ilə yaradılıb. (Ercan A.,Ercan B., 2015: s.420)

Beynəlxalq sistemdə əsas aktyor dövlətlərdir. Yuxarıda da vurğulandığı kimi dövlətlər günümüzdə iqtisadi, hərbi, siyasi, maliyyə və insan resursları kimi gücü təşkil edən əsas amillərə malik varlıqlardır. Dövlətlər xarici siyasətdə qərar vermə inhisarını bu gün də qoruyurlar. Belə ki, Aİ nümunəsində bunu konkret şəkildə görmək mümkündür. Əməkdaşlığın miqyası nə dərəcədə irəliləmiş olsa da, dövlətlər bəzi sahələrdə qərarvermə səlahiyyətini öz əllərində tuturlar. Bunların başında da müdafiə, təhlükəsizlik , xarici siyasət gəlir.

Realist yanaşmanın digər bir arqumenti də güc tarazlığını qorumağı əsas alır. Avropa Birliyinin qurucu sazişlərdən bu günə qədər apardığı siyasətlər, həm Avropa daxilində, həm də beynəlxalq sistemdə güc tarazlığını qorumağı nəzərdə tutur. Almaniya-Fransa münaqişəsinin aşılmasından Almaniya probleminə, İki Qütblü Sistem içində ABŞ ilə ittifaq əlaqəsinə, 1990-cı illərin sonunda Şərqi Avropanın Aİ

ilə əlaqələrini sıxlaşdırması, 2000-ci illərdə Rusiya Federasiyası ilə münasibətlərə və ABŞ ilə Rusiya Federasiyası arasındakı gərginliklərdə tutulan mövqeyə qədər bir çox planların təməlində güc tarazlığını qoruma hədəfi mühüm rol oynamışdır. Realist yanaşmaya görə, Avropa xarici siyasətinin formalaşmasında İkinci Dünya müharibəsi sonrasında meydana çıxan İki Qütblü Güc Tarazlığı sistemi dominant rol oynamışdır. Qərbi Avropada təhlükəsizlik və sabitlik on illər boyu bu əsas üzərində təmin olunmuşdur. Realistlər beynəlxalq hüquq və təşkilatlar kimi mövzularından çox hərbi strategiya, milli gücün, diplomatiya , dövlət rəhbərliyi kimi vasitələr üzərində diqqət cəmləşdirməsi tarixi perspektivdən baxdıqda heç də təəccüblü deyil. Çünki gələcəkdəki müharibələrin qarşısını almaq üçün beynəlxalq təşkilatlar və ya əxlaqi, vicdani dəyərlər deyil , böyük bir gücün və ya "dünya polis"i olmağa hazır olan güclər arasında balans rol oynaya bilər. Əslində Azərbaycanın buradan çıxara biləcəyi nəticə gələcəkdə işğaldan qorunması üçün Beynəlxalq Hüquq təşkilatlarına etibar etməsi deyil, böyük güclərdən birinin yanında durması və inanmasıdır.

Yuxarıda qeyd edildiyi kimi, Aİ regional səviyyədə sülhə, təhlükəsizliyə və tərəqqiyə xidmət edən və kömək edən iqtisadi inteqrasiyanın uğurlu nümunəsidir. Ancaq qlobal səviyyədə, ümumi mənada sülh və təhlükəsizlik baxımından həyati rol oynayaraq, öz şəxsi məqsədlərinə nail olmaq cəhətdən, böyük uğurlarına, imkanlarına və potensialına baxmayaraq, onun güclü siyasi və strateji baxışları tamamilə təsirsizdir. Bu amil isə təəssüf ki, AB-nin "iqtisadi cəhətdən nəhəng bir güc; siyasi cəhətdən cılız" tərifinin doğru olduğunu təsdiqləyir. (Ercan A.,Ercan B., 2015: s.420)

## I.2. Genişlənmə Strategiyasının ümumi çərçivəsi

AB ilk qurulmağa başladığı zamandan günümüzə qədər daim olaraq genişlənmə meyli göstərmişdir. Genişlənmə strategiyasının əsasları İkinci Dünya Müharibəsindən əvvələ - 1930-cu illərə dayanır. Avropada ilk iqtisadi inteqrasiya 1932-ci ildə imzalanan Quçi müqaviləsi ilə Belçika, Hollandiya və Lüksemburqun birləşməsi olmuşdur. Benilüks adlı bu ittifaqın əsas məqsədi 1944-cü ildə Gömrük İttifaqını tətbiq

etmək olmuşdur. Benilüks ölkələri arasındakı bu birləşmə hərəkatı yeni ideyalar ortaya çıxarmışdır.

Sonrakı dövrlərdə xüsusilə də Şərqi Avropa ölkələrində güclənən sosialistlər ABŞ-ın maraqlarını təhdid etməyə başlamışdı. Bunun qarşılığında ABŞ Avropa ölkələrinə maddi yardım göstərməyi təklif etmiş, təklifi qəbul edən Avropa dövlətlərinə Marşall Planı çərçivəsində yardımlar etməyə başlamışdır. 1948-ci ildə yardımların Avropa dövlətlərinə çatdırılması məqsədi ilə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı qurulmuşdur. İlk altı ayda müsbət nəticələr əldə edilərək, 1950-ci ildə isə Avropa Ödənişlər Assosiasiyası yaradılmışdır. Bütün bu müsbət irəliləyişlər nəticəsində, iqtisadi sabitlik strukturuna nail olmaq üçün ABŞ, Kanada və Yaponiya üzv ölkələrə qatılmaqla, bu təşkilat genişlənmiş və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) çevrilmişdir. (Ercan A.,Ercan B., 2015: s.420)

Genişlənmə strategiyasının ən mühüm normal əsası, Robert Şumanın 1950-ci ildə qoyulmuşdur. Belə ki, Avropada bir birlik yaradılması fikri ilk dəfədə deyil, ancaq uğurlu bir proses sonunda, yəni daha əvvəl yaradılan icmaların nəaliyyətlərinin təmin etməsindədir. Nəzərə almaq lazımdır ki,Avropa təbii olaraq bir dəfəlik, yalnız bir plana əsasən inşa edilə bilməzdi. Buna görə də genişlənmə strategiyasının ən mühüm əsası, birlik yaradılmasının ancaq bir prosesin sonunda ola biləcəyi həqiqətidir.

Bir proses olaraq Avropa Birliyinin genişlənməsində Avropa ölkələrinin "Avropa" anlayışı içində inteqrasiyası, yəni birliyə doğru ölkələrarası uyğunluğun təmin olunması, iqtisadi quruluş və prosesləri bir-birinə çox bənzəyən altı ölkə ilə başlaması, bu uğurun əsas açarlarından birini yaratmışdır. Müharibədən yeni çıxan bu ölkələrin məqsədləri məlum idi: azadlığı qorumaq, sülhü daimi qılmaq və cəmiyyətlərin rifah səviyyəsini dayanmadan yüksəltmək.

SSRİ-nin Çexoslovakiya və Şərqi Almaniyanı öz tərəfinə çəkərək Qərbi Almaniya və Avropa ölkələrinə təhlükə yaratması 1951-ci ildə AB-in təməllərini qoymuş, Avropa Kömür və Polad Birliyinin qurulmasına gətirib çıxarmışdır. Belə ki hərbi sənayenin ən əsas ehtiyacları olan kömür və polad ehtiyatlarına qarşılıqlı nəzarət

edilməsi, xüsusilə Fransa və Almaniya arasında bir qarşılıqla asılılıq əlaqəsinin yaradılması və beləliklə Avropada sülhün təmin edilməsi səyləri, Avropa Kömür və Polad Birliyinin qurulmasında ən təsirli rol oynamışdır. Bu birliyin məqsədi Almaniyanı və Fransanı birləşdirən Belçika, Lüksemburq, Hollandiya və İtaliya daxil olmaqla altı üzv dövlətin milli ticarət sərhədlərini genişləndirməkdir. Digər məqsədləri isə, birlik tərəfindən təyin olunan investisiya layihələrini sürətli bir şəkildə həyata keçirmək, dəmir - polad sektorunda məşğulluğu artıraraq işçilərin mənzil sahibi olmasını təmin etmək, dəmir - polad istehsalını artıraraq sərmayələri dəstəkləmək, kömür - polad istehsalı üzərindən alınan vergilər ilə üzv ölkələrdən birliyə köçürülən kreditlərdən birliyin maliyyə resurslarını meydana gətirməkdir.

Kömür və polad sahələrində uğurlu nəticələr iqtisadiyyatın əksər sahələrini əhatə edən inteqrasiya işləri ilə əvəz edilmişdir. Orta Şərqdəki Misir - İsrail müharibəsi nəticəsində ortaya çıxan neft tələbini qarşılamaq üçün bir birlik olaraq Avropa Atom Enerjisi Birliyi –EUROATOM , 25 Mart 1957-ci ildə iqtisadi cəhətdən birləşmə üçün Avropa İqtisadi Birliyi (AİB) qurulmuşdur. AİB-in yaradılmasının məqsədi üzv ölkələrin rifahını maksimum dərəcədə genişləndirmək və üzv ölkələrin iqtisadi siyasətlərini uyğunlaşdırmaqla davamlı genişlənməni təmin etmək üçün birgə bazar yaratmaqdan ibarət idi. Roma Müqaviləsi birliyin nəzdində 6 orqan- Şura, Komissiya, Parlament, Ədliyyə Məhkəməsi, Auditorlar Palatası və İqtisadi, Sosial və Məsləhət Komitələri müəyyən edilmişdir. (Kıraç S.,İlhan B., 2010: s.201)

Avropa qitəsində birliyin ilk genişlənməsi 1973-cü ildə Şimala doğru istiqamətlənmiş və İngiltərə, İrlandiya ,Danimarkanın bu ittifaqa qatılması ilə nəticələnmişdir İkinci Dünya Müharibəsindən sonrakı ilk illərdə İngiltərə beynəlxalq aləmdə qeyri-müəyyən bir mövqedə dayanmışdı. Belə ki, müharibədə qələbə qazanan "3 Böyük Ölkə" dən biri olmasına baxmayaraq, İngiltərə bu qələbənin nəticələrindən ABŞ və SSRİ qədər istifadə etməmişdir. Eyni zamanda İngiltərə "Qitə Avropası" ölkələri kimi müharibə vaxtı işğal təcrübəsi, parçalanma və döyüş itkiləri kimi acı bir təcrübə də yaşamamışdır. İngiltərənin bu təcrübələri müharibə sonrası yenidənqurma

işləri zamanı Avropadakı inteqrasiya hərəkətlərinə münasibət mənasında ingilis siyasətinin quruculuğuna istiqamət vermişdir. U.Çörçill ABŞ prezidenti Herri Trumana yazdığı bir məktubda, Böyük Britaniyanın Avropadakı inteqrasiya səylərini dəstəkləyəcəyini ancaq bu prosesin içində yer almayacağını bildirmişdir. Həmin dövrdə Fransanın baş naziri Ş. De Qoll AİB məsələsində üstmilli əməllərə qarşı mövqe tutmuş və ictimai təşkilatların tədricən siyasi sahəyə yayılmasına qarşı çıxmışdır. De Qoll Avropadakı əməkdaşlığın yalnız iqtisadi sahələrdə məhdudlaşmamasını, siyasi, mədəni və müdafiə məsələlərini də əhatə etməsini müdafiə etmişdir.

10 may 1967-ci ildə İngiltərə və İrlandiya, 11 may 1967-ci ildə isə Danimarka bir dəfə AİB-ə tam üzvlük üçün müraciət etmişdirlər. Fransada Corc Pompidou hakimiyyəti zamanında 30 iyun 1970-ci il tarixində İngiltərənin AİB iştirak müzakirələri başlamış, İngiltərə üçün Birliyə daxilolma müqaviləsi 22 yanvar 1972-ci ildə Brüsseldə imzalanmışdır. İrlandiya, Danimarka və Norveç ilə də analoji müqavilələr imzalanaraq AİB üzvlərinin sayı yüksəldilmişdir.

Qısası, AİB-in ilk genişlənməsi, iqtisadi inkişaf səviyyəsi bir-birinə yaxın ölkələrin tam üzvlüyü ilə yekunlaşmışdır. İqtisadi inkişafını müəyyən bir səviyyəyə gətirmiş ölkələrin AİB-ə tam üzvlüyü, inteqrasiya prosesinin problemsiz olacağı fikrini genişləndirmişdir. Bununla bərabər, dünya iqtisadiyyatında ortaya çıxan bəzi hadisələr ilə AİB-in hüquqi quruluşu, birlikdə qərar alma prosesi və büdcənin strukturu, İngiltərənin federal tendensiyaları rədd etməsi birinci genişlənmənin problemlərlə reallaşmasına yol açmışdır. (Kıraç S.,İlhan B., 2010: s.201)

AB-in ikinci genişlənməsi 1981-ci ildə Yunanıstanın iştirakı ilə cənuba doğru istiqamətlənmişdir. Dövrün Qərb əleyhdarı olan müxalifət partiyası Pasok-un Yunanıstanda hakimiyyətə gəlmə ehtimalı bu ölkənin tam üzvlük prosesini sürətləndirmişdir. Görüşlər 27 iyul 1976-ci ildə başlamış və 28 may 1979-cu ildə Afinada tamhüquqlu üzvlük ilə bağlı iştirak müqaviləsi imzalanmışdır. Beləliklə, Yunanıstan 1 yanvar 1981-ci ildən etibarən AİB-in 10-cu üzvü olmuşdur. Qoşulma müqaviləsi 5 illik bir "Harmonizasiya Dövrü" nü nəzərdə tutmuş və bu müddət ərzində

gömrük tariflərinin qaldırılması və birliyin birgə gömrük tarifinə uyğunluğun təmin edilməsi nəzərdə tutulmuşdur.

Yunanıstanın iqtisadi baxımdan tam üzvlük üçün lazım olan şərtləri cavab verməməsi, tam üzvlükdən sonra çox problem yaratmamışdır. Əhali və ərazi baxımından kiçik bir ölkə olması, tam üzvlüyün ilk illərində bəzi iqtisadi problemlərinə baxmayaraq, Yunanıstanın birlik içində daha asan "həzm edilməsi"nə yol açmışdır. Bununla yanaşı, ilk illərdə ortaya çıxmayan iqtisadi problemlər, 1990-cı illərdə aydınlaşmışdır. (Kıraç S.,İlhan B., 2010: s.201)

Avropa İcmaları 1 yanvar 1986-cı il tarixində İspaniya və Portuqaliyanın icmalarının iştirakı ilə üçüncü dəfə olaraq Cənub-qərbə doğru genişlənmişdir. AB-in canlandırıldığı bir dövrdə, İspaniya və Portuqaliyanın iştirak etməsi - Cənub-qərbə doğru genişlənmə, bəzi reaksiyalara yol açmışdır. Genişlənmənin tərəfdarı olmayanlar, AİB-in sadə bir STZ-ə çevriləcəyi, ittifaqın prinsiplərindən uzaqlaşacağı, keyfiyyətinin dəyişəcəyini müdafiə edir və birliyi coğrafi genişlənməyə qurban edilməməsini istəyirdi . Genişlənmənin tərəfdarları isə böyümə ilə AİB-in "zənginlər klubu" olmadığını sübut edəcəyini, böyüməyin birliyin reallaşmasını gecikdirməyəcəyini, Avropada demokratiyanın bununla da güclənəcəyi" bəyanatlarını verirdilər.

AB iki Almaniyanın 3 noyabr 1990-cu il tarixində birləşməsi ilə Şərqə doğru faktiki olaraq genişlənmişdir. İkinci Dünya Müharibəsi sonrasında Almaniya ikiyə bölünmüşdü. 13 avqust 1961-cı il tarixində iki Almaniya arasında sərhədlər bağlanmış və Berlin divarının inşasına başlanmışdı. U.Çörçill bu divarı "dəmir pərdə" adlandırmışdı və divar iki blok arasındakı Soyuq Müharibənin bir simvolu olmuşdur. Tikintidən 28 il sonra, SSRİ və Şərqi Avropada demokratikləşmə hərəkatları nəticəsində Berlin Divarı 9 noyabr 1989-cu ildə dağıdılmış və divarın ortadan qaldırılmasından bir il sonra 3 noyabr 1990-cu ildə iki Almaniya birləşmişdir. Bu birləşmə ilə AİB orqanlarında Almaniyanın çəkisi artmışdır.

AP 4 may 1994-cü il tarixində verdiyi qərarla Avstriya, Finlandiya, Norveç və İsveçə yaşıl işıq yandırmış və AB-in qapısını bu dörd ölkəyə açmışdır. 1994-cü il

iyunda Korfu Toplantısında dörd yeni ölkənin üzvlük müqavilələri imzalanmışdır. Amma Norveçdəki ümumxalq səsverməsində norveçlilərin "xeyr" deməsi, bu ölkəni Aİ-ə daxil olmasına əngəl yaratmışdır. Beləliklə, AB dördüncü genişlənməsini Mərkəzi və Şimali Avropaya  doğru həyata keçirmişdir. Üç ATZ üzvünün Aİ-ə qoşulması ilə birlikdə ATZ həll  prosesinə daxil olmuş və faktiki olaraq dağılmışdır.

Aİ-in 5-ci Nəsil Genişlənməsi adlandırılan proses Mərkəzi və Şərqi Avropa ölkələrinin Sərbəst Bazar İqtisadiyyatına keçid prosesi ilə başlayan və AŞ-ın dekabr 1997-ci ildə keçirilən Lüksemburq Zirvəsinə qədər uzanan dövrdə təkmilləşdirilmiş bir ideyadır. Ancaq genişlənməyi mümkün edən konkret addımlar 1997 Lüksemburq Zirvə Toplantısı ilə atılmağa başlamışdır. (Ercan A.,Ercan B., 2015: s.420)

AFR Xarici İşlər Naziri Yoşka Fişer, 12 may 2000-ci il tarixindəki çıxışında, Avropa inteqrasiyasının Mərkəzi və Şərqi  ölkələrini əhatə etmədiyi üçün yarımçıq qalacağını bildirmişdir. Fişerə görə təkcə Qərbi Avropa ilə məhdud  olan bir AB hər zaman üçün yox olma təhdidi altında olacaqdır. Çünki, Mərkəzi və Şərqi Avropada qüvvələr nisbəti üzərində qurulmuş olan və millətçi  qarşıdurmaların yaşandığı bir sistem hakimdir. Bu qeyri-sabit şərait gələcəkdə Qərb  Avropanı da təhdid edəcəkdir. Bu baxımdan Aİ-nin genişlənməsinin Mərkəzi Və Şərqi Avropa ölkələrini əhatə etməsi lazım olduğu əhəmiyyətini bir daha vurğulanmışdır. 1989-1991-ci illərdə kommunizmin qəfil süqutu və Soyuq Müharibənin bitməsi, Mərkəzi və Şərqi Avropa ölkələrində dramatik ölçüdə siyasi və iqtisadi dəyişiklikləri özü ilə gətirmişdir. Bu vəziyyət, şərqə doğru genişlənmək məsələsini  Avropa Birliyinin gündəminə daşımışdır. AB Şərqi Avropa dövlətlərinin müraciətlərini nəzərə alaraq bu məsələdə danışıqlara başlamaq üçün iqtisadi sabitliyi və demokratik inkişafı  şərtlərini irəli sürmüşdür. Halbuki, bu dövlətlər 1990-cı  illərdə iqtisadi cəhətdən güclənmək üçün köməyə ehtiyacı olan bir çox sahələrdə çətinliklər çəkən  dövlətlər idi. İlk əvvəl bu dövlətlər arasından 10 namizəd irəli  sürüldüyü halda hamısının eyni anda inteqrasiya edilməsi düşünülməmişdir. Şərqi Avropa dövlətləri ilə  imzalanan Avropa

müqavilələrinə əsasən, bu dövlətlər intensiv giriş hazırlıqları prosesi keçirmiş və 2004-cü ili etibarilə üzv dövlət ünvanını qazanmışlar.

Hazırkı quruluşunda AB transmilli xüsusiyyətləri və idarəçilik səriştəsi ilə klassik bir beynəlxalq təşkilat olmaqdan kənara çıxmışdır, lakin siyasi inteqrasiyaya tamamilə nail olmadığı üçün federal strukturlara çatmamışdır. Bu səbəbdən AB həm dövlət, həm də ki transmilli xüsusiyyətləri birləşdirən siyasi bir quruluşdur. 2000-ci illərin əvvəllərindən etibarən çoxtərəfli idarəetmə və "avropalılaşma" kimi yeni inteqrasiya nəzəriyyələri əhəmiyyət qazanmağa başlamışdır. Bu tədqiqat sahələri sürətlə inkişaf etmiş və inteqrasiya prosesinin nəzəri əsaslarına əhəmiyyətli dərəcədə təsir göstərmiş və birliyin gələcəyi və korporativ memarlığı üçün yaradılan müxtəlif ssenarilər üçün daha izahlı modellər vermişdir. (Ercan A.,Ercan B., 2015: s.420)

Aİ özünün tarixi, mədəni xüsusiyyətləri, milli hərəkatı və bərabər hüquqları olan çox müxtəlif millət dövlətləri olan beynəlxalq bir təşkilatdır. Bu təşkilatın digər ənənəvi çoxtərəfli əməkdaşlıq təşkilatlarından fərqləndirən xüsusiyyəti, hər şeyi birləşdirmək üçün vahid institusional strukturun həyata keçirilməsidir. Bu məqsədlə, o bəzi səlahiyyətlərini saxlayır və müəyyən sahələrdə bölüşürlər. Onlar gücün bir qismini öz iradəsi ilə qurduqları tərəfdaş təşkilatlara ötürərək bunu edirlər. Bu qurumlar həmin ərazilərdə üzv dövlətlərdən müstəqil olaraq fəaliyyət göstərirlər. Bu sahələr texniki, ticarət sahələri və kənd təsərrüfatı sahəsidir. Daxili, xarici siyasət və təhlükəsizlik sahəsində məcburi ümumi siyasət yoxdur, ortaq danışıq prosedurları var.

İndiki dövrdə Aİ 28 üzv dövlətdən ibarət olan çox inteqrasiya olunmuş bir strukturdur. Son Avro böhranı ilə bu kompleks struktur gələcəkdə daha ciddi problemlərə, o da öz növbəsində AB-in tezliklə dağılacağına dair müzakirələrim çoxalmasına gətirib çıxardı. Yunanıstanın Avrozonadan çıxarılması və Böyük Britaniyanın BREXİT qərarı ilə AB-dən çıxma ehtimalı bu parçalanma qorxusunu artırmağa başladı. Ancaq AB liderləri həll prosesinə qətiyyətli addımlar atdıaraq belə arqumentlərin əsassız olduğunu sübut etməyə başladı. Onu da qeyd etmək lazımdır ki, Avro böhranı AB üçün çox əhəmiyyətli bir dönüş nöqtəsi olmuş, birliyin gələcəkdə

yekcins bir siyasi təşkilatlanmağa gedəcəyinin zəif bir ehtimal olduğunu ortaya çıxarmışdır. Bu baxımdan AB-nin önümüzdəki illərdə mövcud quruluşunu ümumi xətləriylə qoruyacağını , lakin fərqli üzv dövlətlər arasında müxtəlif sektorları əhatə edən daha irəli bir inteqrasiyaya imkan verən əməkdaşlığı artıracağını söyləmək mümkündür. Belə bir ssenariyə görə, ittifaq gələcək illərdə zəif bir institusional quruluşa çevrilə bilər və qlobal aktyor olmaq çətin olacaqdır. Braziliya, Rusiya, Hindistan, Çin və Sinqapur kimi dövlətlərin dünya siyasətində əhəmiyyət qazanmağa başladığı dövrdə AB-nin struktur problemlərinə çevik şəkildə həll tapması və əhəmiyyətli siyasi dairələrdə vahid bir şəkildə təsirli hərəkət edə bilmə qabiliyyəti qazanması önəmlidir.

### I.3. Sosializmin süqutundan sonra Cənubi Qafqazda inteqrasiya axtarışları və Yeni Qonşuluq Siyasəti

Avropa Birliyinin genişlənməsindən sonrakı gəlinən vəziyyət ,yəni sərhədlərinin Rusiya, Ukrayna, Cənubi Qafqaza çatması, Yeni Qonşuluq Siyasətini lazımlı qılmışdır. Xüsusilə, Avropa İttifaqı sərhədlərinin Rusiyaya yaxın olması, AB qurumlarında bu ölkənin yaxın gələcəkdə ittifaqa üzv olub-olmayacağı sualını ortaya çıxarmışdır. Belə ki, Rusiya təkbaşına 150 milyonluq əhali və Çindən təxminən olaraq 2 dəfə böyük olan ərazisiylə Avropa Birliyinin quruluşunu yerindən oynada bilər. Bənzər vəziyyət, avropalı sayılan digər MDB ölkələrinə də aiddir. Belə ki, Aİ-ə görə bu ölkələrin hamısı sərbəst bazar iqtisadiyyatına və plüralistik demokratiyaya keçid prosesində ciddi problemlərlə üz-üzə qalmışdır. Bu səbəblə, sözügedən ölkələrin uzun bir müddət Avropa İttifaqının xarici əlaqələrində Aİ-ə potensial üzv ölkələr olaraq deyil, birliyin tərəfdaşlıq və qonşuluq əlaqəsi içində olduğu ölkələr kimi qalmaları daha uyğun olacaq. (Şahbazov R., 2015: s.232)

Yeni dövrdə 2014 "Ukrayna Böhranı"na baxmayaraq Rusiyanı strateji tərəfdaş kimi xarakterizə edən Aİ, nisbətən daha kiçik olan digər MDB ölkələrinə qarşı strategiyasını fərqli ölçüdə ələ almışdır. Genişlənmələrdən sonrakı mərhələlərdə Aİ

uzun bir müddət bu ölkələrə qarşı daha əvvəl tətbiq etmiş olduğu və bundan sonra da tətbiq edəcəyi siyasətləri tək bir dam altında toplama qərarı almışdır. Bu "Tək Dam" münasibəti də Yeni Qonşuluq Siyasətini ortaya çıxarmışdır.

Aİ-in beynəlxalq əhəmiyyəti və regional bir güc olduğu mübahisəsizdir. Rusiyanın regional mənada əhəmiyyətli bir nöqtədə yer alması , təbii sərvətlərlə zəngin olan Cənubi Qafqazın iqtisadi və strateji əhəmiyyəti nəzərə alınarsa, tam üzvlüyə namizəd olsun və ya olmasın, Avropa Birliyin qonşu ölkələrlə olan əlaqələri, Aİ-nin ən mühüm siyasət sahələrindən biri olaraq yerini qoruyacaqdır.

Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstan üç regional güc olan İran, Rusiya və Türkiyənin ortasında, Qara dəniz və Xəzər dənizi arasındakı ərazidə yer alır. Strateji coğrafi mövqeyindən dolayı bu region tarixən imperiyaların toqquşma mərkəzi olmuşdur. Cənubi Qafqaz SSRİ-nin parçalanmasından sonrakı dövrdə Aİ üçün ümumiyyətlə bu səbəblərdən böyük əhəmiyyət daşımışdır .Bunların mühüm bir qismi ABŞ üçün də etibarlı səbəblər olmuşdur :

1 . Təhlükə olaraq görülən Rusiyanı əhatə etmək;

2 . Təhlükə olaraq görülən İranı əhatə etmək;

3. Bölgədəki təbii sərvətlərə nail olmaq (iqtisadi/ticari səbəblər);

4. Bölgədəki təbii ehtiyatların etibarlı şəkildə təmin etmək (beləliklə, həm alternativ təbii sərvətlərə malik olmaq həm də region dövlətləri üçün resurs müxtəlifliyi yaratmaq)

5.Alternativ bazar olaraq istifadə etmək; (Şahbazov R., 2015: s.232)

Cənubi Qafqaz ölkələri güclü Avropa kimliyinə malikdirlər. Bu həqiqət hər üç ölkənin qeyri-hökumət və siyasi təşkilatları tərəfindən də açıq şəkildə ifadə edilməkdədir. Sovet İttifaqının süqutundan sonra sözügedən ölkələr, baş verən münaqişələr, Rusiya təzyiqi və regional güclərin rəqabətinə görə mühüm təhlükəsizlik problemilə qarşı-qarşıya qalmışlar. Hər nə qədər Gürcüstan regionda Avropa və Avroatlantik inteqrasiyası aparıcısı kimi görünsə də, Azərbaycan xüsusilə Avropa ölkələri və ABŞ-ın diqqətini Xəzər dənizinə çəkməklə bölgədə önəmli bir missiya öz

üzərinə götürmüşdür. 1992-ci ildə Avropa və Avroatlantik inteqrasiyasına birləşmə, Azərbaycan xarici siyasətinin prioritet məsələsi olaraq müəyyən olunmuşdur. Mühüm təhlükəsizlik problemləri ilə qarşı-qarşıya qalmasına baxmayaraq, Azərbaycan 15 keçmiş sovet respublikası içində Sovet ordusunun öz torpaqlarından çıxmasını təmin edən ilk ölkə olma xüsusiyyətini daşıyır. Bu vəziyyət ölkənin müstəqilliyi və Avropa-Atlantik əməkdaşlığın möhkəmləndirilməsində təsirli olmuşdur.

Siyasi, iqtisadi və təhlükəsizlik baxımından müstəqilliklərini möhkəmləndirmək mənasında Cənubi Qafqazın iki mühüm ölkəsi olan Azərbaycan və Gürcüstan regional əməkdaşlığında digər iki ölkə olan Ukrayna və Moldova ilə GUAM təşkilatı altında birləşmişlər(Ə.Həsənov.,2005: s.630). Eyni təhlükəsizlik münasibətlərinə malik olan və ən mühüm ortaq prinsipləri ərazi bütövlüklərini təmin etmək olan Gürcüstan və Azərbaycan öz kimliyindən uzaqlaşmadan və təhlükəsizlik güzəşti etmədən Cənubi Qafqazın qərb yönlü siyasət yürüdən ölkələri mövqeyindədir. Bununla yanaşı, Ermənistan əhəmiyyətli sayda rus əsgərini öz ölkəsində saxlamaqla Rusiyanın Cənubi Qafqazdakı bazası xüsusiyyətini qoruyur. Belə bir halda Rusiyanın Ermənistana olan yardım və dəstəyinin , Qərbin Gürcüstan və Azərbaycana olan balanssız, assimmetrik yardımı bu iki ölkəni regional güclər ilə olan münasibətlərində təhlükəsizlik qorxusu ilə qarşı-qarşıya qoyur. (Şahbazov R., 2015: s.232)

Cənubi Qafqaz ölkələri Avropa ilə olan münasibətlərdə "kimlik və məkan" dilemması yaşayır. Qafqaz ölkələri Qərbə inteqrasiyanın onlara böyük mənfəət verəcəyini düşüdüyü halda, Qərb bu ölkələrlə olan münasibətlərində Orta və Şərqi Avropa və Baltik ölkələri misalında olduğu kimi effektiv ola bilməməsini düşünür. Ölkələrin hər biri fərqli məsələlərdə regional aktyorlarla olan münasibətlərində fərqli ölçülərdəki problemlərlə üz-üzədir. Ermənistan Azərbaycanla münaqişə vəziyyətindədir . Gürcüstanın Rusiya ilə olan münasibətləri gərginləşdiyi vaxtda, Azərbaycan regionda öncədən bəri daha çox balanslı xarici siyasət izləməyə çalışır; Rusiya və İranla olan münasibətlərini də müəyyən məhdudiyyətlər daxilində diqqətlə inkişaf etdirməyə çalışır .(Ə.Həsənov.,2005: s.630)

Cənubi Qafqaz dövlətlərinin müstəqilliyindən dərhal sonra dünya birliyinə inteqrasiya yolunda izlədiyi strategiyanın əsasını Avropaya yaxınlaşma prosesi təşkil edir. Avropa inteqrasiyasına qoşulmaq səyləri, Cənubi Qafqaz dövlətləri üçün sosial, iqtisadi, siyasi və mədəni sahələrdə geniş imkanlar təqdim və təhlükəsizlik problemlərinin həllinə yardımçı olur. Bu baxımdan, region ölkələri Avropa İttifaqı ilə əlaqələrinə böyük əhəmiyyət verməklə bu əməkdaşlığın daha çox inkişaf etdirilməsini qarşısına əsas məqsəd qoymuşdur. (Şahbazov R., 2015: s.232)

Avropa ittifaqının "Şərq Tərəfdaşları" kimi təsvir etdiyi ölkələr, Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Gürcüstan və Ermənistanla yanaşı, Moldova, Ukrayna və Belarusdur. Bu ölkələr, uğurlu genişlənmə hərəkətlərinin nəticəsi olaraq Aİ-nin qonşularına çevriliblər. Sözügedən ölkələr, yalnız coğrafi mövqelərinə görə Avropa İttifaqına yaxın olması ilə deyil, eyni zamanda yeni qonşuluq siyasəti sonrası siyasi sistemlərinin və iqtisadiyyatlarının islahatlar nəticəsində Avropa İttifaqı ilə yaxınlaşması ilə də diqqət çəkir(Ə.Həsənov.,2005: s.630).

Cənubi Qafqazın Avropa və Asiya arasında mühüm geosiyasi mövqeyi, xüsusilə TRASEKA layihəsi çərçivəsində Aİ ilə əməkdaşlığın gücləndirilməsini təmin edə bilər. Bundan başqa, Avrasiya Nəqliyyat Dəhlizinin fəaliyyəti nəticəsində ölkələrin iqtisadi problemlərinin həllində aşağıdakı proseslər çox mühüm rol oynayacaqdır:

1. Tranzit keçidlərdən çox böyük iqtisadi gəlir əldə ediləcəkdir;
2. Qafqazın dəniz və dəmir yolu nəqliyyat sistemi üçün uzunmüddətli etibarlı bir bazar yaranacaq və fasiləsiz iş rejimi təmin olunacaqdır;
3.Nəqliyyat sahəsində infrastruktur sistemləri yenidən qurulacaq və modernləşdirilməsi ediləcəkdir;
4. Yeni iş imkanlarının artması məşğulluğun və gəlir səviyyəsinin artmasına səbəb olacaqdır;
5.Qafqaz bölgəsi, Rusiyanın iqtisadi blokada təhdidindən xilas olacaqdır;
6.Dəhlizin mərkəzində yerləşməsi regionun inkişafında güclü təkan vasitəçi olacaq və maliyyə mənbələrin yaranmasını asanlaşdıracaqdır. (Memmedli E.,2017:s.214)

TRASEKA layihəsi çərçivəsində inkişaf etdiriləcək əməkdaşlıq, Aİ-nin Qafqazda sabitliyin təmin olunmasına yönəlik cəhdlərinin artmasına səbəb olacaqdır. TRASEKA layihəsi, dünyanın ən qədim ticarət yollarından biri olan İpək Yolunun günümüzdə yenidən canlandırılmasına yönəlmiş layihələri maliyyələşdirən bir Avropa Birliyi proqramıdır. Bu proqram Bolqarıstan, Rumıniya, Ukrayna kimi Şərqi Avropa ölkələrindən başlayaraq, Türkiyə üzərindən Qara dənizi keçərək Gürcüstanın Poti və Batumi limanlarını da içinə alaraq, Cənubi Qafqazın nəqliyyat şəbəkələrini istifadə edərək geniş bir sahəyə yayılır. TRASEKA yolu Azərbaycanda Xəzər dənizi üzərindən Bakı-Türkmənbaşı-Aktau xəttini istifadə edərək, Orta Asiyanın Türkmənistan və Qazaxıstanı əhatə edən dəmir yolu şəbəkəsinə çatır.

Avropa İttifaqı ilə bölgənin əlaqələrini gücləndirəcəyi digər bir sahə, enerji sektorundakı əməkdaşlığın INOGATE layihəsi çərçivəsində inkişaf etdirilməsidir. INOGATE (İnterstate Oil and Gas Transport to Europe) layihəsi Avropa İttifaqı ilə Qara dəniz, Xəzər dənizi və qonşu ölkələr arasında beynəlxalq enerji əməkdaşlıq proqramıdır. Bu proqramın dörd əsas məqsədi var:

1.Proqram çərçivəsindəki ölkələrin xüsusiyyətlərini də nəzərə alaraq avropa ittifaqının daxili enerji bazar prinsipləri əsasına söykənən enerji bazarları yaratmaq;

2. Enerji idxal və ixracı, təklif müxtəlifliyi, enerji tranziti və enerji tələbatı məsələləri çərçivəsində təhlükəsizliyini təmin etmək;

3. Enerji səmərəliliyinin artırılması, bərpa oluna bilən enerji mənbələrinin yaradılması və tələb yönümlü hakimiyyətin yaradılmasını da ehtiva edən davamlı enerji inkişafını təmin etmək;

4.Birgə regional məqsədlərə xidmət edən enerji layihələrinə yönələn investisiyaları təşviq etmək. (Memmedli E.,2017:s.214)

Aİ-nin Xəzər neftinə çatmaq yolundakı qətiyyətli mövqeyi və Bakı-Tbilisi-Ceyhan neft boru xətti və əsası 2015-ci ilin martında qoyulan TANAP bu əməkdaşlığın gücləndirilməsi üçün mühüm addımların atılmasını təşviq edir. TANAP Cənubi Qafqaz Boru Kəməri (SCP) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə

birləşərək Cənubi Təbii Qaz Dəhlizini yaratmaqdadır. Zəngin enerji ehtiyatlarının Avropaya transferi, Qafqazın iqtisadi baxımdan inkişafı baxımından da əhəmiyyət daşıyır. (Memmedli E.,2017:s.214)

Cənubi Qafqaz ölkələrinə yönəlmiş üç fəaliyyət planı da regional əməkdaşlıq baxımından bağlı ölkənin və bölgənin prioritetlərini əhatə edir. Gürcüstan Qara dəniz regionu əməkdaşlığa vurğu edərkən, Ermənistan Avropa zonası terminine üstünlük verir. Azərbaycan isə ikitərəfli, çoxtərəfli əlaqələrin əhəmiyyəti üzərində dayanır. Ortaq düşüncə və yanaşma isə xüsusilə, ətraf mühit, təhsil, sərhəd idarəçiliyi kimi müəyyən sahələrdə Cənubi Qafqaz təşəbbüsü və əməkdaşlığı təşkil edir. Ermənistan öz fəaliyyət planında əlavə olaraq enerji əməkdaşlığına, su mənbələrinin rəhbərliyinə, Gürcüstanının fəaliyyət planında isə əlavə maddə olaraq Rusiya ilə olan əlaqələrin inkişaf etdirilməsinə toxunulur. Burada xüsusən, Ermənistan və Gürcüstanın fəaliyyət planlarına edilən əlavələr diqqət çəkir. Belə ki, bu əlavə maddələr araşdırılarkən məsələyə təktərəfli dünyagörüşünün idarə edildiyini görmək mümkündür. Sözü gedən əlavələr hər iki ölkənin mütləq nöqsanları nəzərə alınaraq aparılmışdır. Belə ki, Ermənistan xüsusilə qonşuları olan Azərbaycan və Türkiyəyə qarşı iddiaları və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı işğalçı siyasəti səbəbiylə BTC layihəsinin kənarda qalaraq enerji böhranına cəlb olunmuşdur. Rusiya ilə sərhədinin Gürcüstan vasitəsi ilə olması və Gürcüstanın də Rusiya ilə olan problemlərinə görə Ermənistan düşdüyü iqtisadi mühasirə altında İrandan asılı hala gəlmişdir. Bu halda Aİ Ermənistanın enerji problemlərinə diqqəti çəkməzdən əvvəl bu problemlərin altında yatan səbəbləri sadalayır.

Qeyd olunan səbəblərin aradan qaldırılmasına yönəlik "Qafqazdakı problemlərin həlli üçün birgə fəaliyyət planı" inkişaf etdirməsi daha ədalətli olardı. Belə ki, Ermənistanın içində olduğu enerji böhranı və sürükləndiyi iqtisadi çətinliklərin səbəbi ölkənin regiondakı qonşuluq strategiyasını səhv istifadə etməsindədir. Amma Avropa Birliyinin inadla regiondakı münaqişələri regionun daxili problemi kimi "qəbul etməsi", fəaliyyət planlarına etdiyi əlavələrin bir mənada mənasız formal olaraq

qalmasına səbəb olur .Hər üç Cənubi Qafqaz ölkəsi bölgədəki problemlərin həllində Aİ-in daha fəal iştirakını istəyir. Avropa Birliyi hər nə qədər Azərbaycan-Ermənistan münaqişəsində Ermənistanın Azərbaycanın ərazilərini işğal etməsi faktının fərqində olsa da, problemin bu iki dövlət arasında həll edilməsinə tərəfdar olmuşdur. Belə ki, vasitəçilik etməyi istəməyən Avropa birliyi, bu vəzifənin ATƏT-in minsk qrupunun səlahiyyətində olduğunu dəfələrlə təkrarlamışdır. (Şahbazov R., 2015: s.232)

Ancaq Minsk qrupunun səylərinin münaqişənin həllindən daha çox status-kvonun qorunmasına yönəlik olduğu istiqamətindəki fikir getdikcə daha çox qəbul olunur. Regionda sülh hakim olmadığı müddətcə tarazlı iqtisadi tərəqqi və inkişafı olunması və Cənubi Qafqazın Aİ ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi də çətin görünür. Aİ-in Cənubi Qafqaz ölkələri ilə əlaqələrinin ən mühüm vasitəçi yeni qonşuluq siyasəti olduğuna görə, problem və qarşıdurmaların ortasında bu siyasətin çox fəal və ədalətli edəcəyini də düşünmək çətinləşir.

Regional əməkdaşlıq, Avropa İttifaqının YQS çərçivəsində diqqət çəkən digər prioritetlərdəndir. Azərbaycan, Gürcüstan başlanğıcda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi üçün Aİ-in siyasi dəstəyini almağa çalışsa da, bu layihə Ermənistanı kənarda qoyduğu üçün, dolayısı ilə üç Cənubi Qafqaz ölkəsinin hamısını əhatə etmədiyinə görə, Aİ tərəfindən siyasi dəstək görməyib. AB oxşar davranışı Ermənistanı kənarda qoyan BTC boru kəməri layihəsinə münasibətdə də ortaya qoymuşdur.

AB-in yeni Qonşuluq Siyasəti çərçivəsində Cənubi Qafqaz ölkələrinə qarşı olan fəaliyyət planlarından xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin sona çatdırılmasında bir vasitə olaraq istifadə edilməməsi, Avropanın bəzi maraqları ilə bir çox cəhətdən uyğun gəlmir:

1. Qarabağ problemi Cənubi Qafqazı ikiqütblü bir bölgə halına çevirməklə kifayətlənməyib, Aİ-nin də böyük xeyrinə olacaq olan Qafqaz ölkələrinin üçlü təhlükəsizlik əməkdaşlığının qarşısını kəsir.
2. Sözügedən problem regional və regionlararası iqtisadi əməkdaşlıq və nəqliyyat kimi Avropa perspektivinin reallaşmasına maneə təşkil edir.

3. Bölgədəki münaqişə, demokratikləşmə və islahat prosesini və bu arada Avropa ilə inteqrasiyanın fəaliyyətini pozur.

4. Problem qanunsuz ticarətin nəzarət altında saxlanılmasını çətinləşdirən "boz zonalar" yaranmasına səbəb olur. (Şahbazov R., 2015: s.232)

Nəticə olaraq, Qarabağ problemi məsələsində Aİ-in fəaliyyətsizliyi iş planlarının da fəallığı mövzusunda şübhə doğurur. Bu vəziyyət Aİ-in çox arzu etdiyi regional əməkdaşlığın da qarşısını kəsir. Bir sözlə, AB fəal regional əməkdaşlığı hədəf seçirsə, Qarabağ probleminin həllində də daha bitirici və fəal iştirak etməlidir.

Üç Cənubi Qafqaz ölkəsinin, Avropa Birliyi ilə inteqrasiyadan iqtisadi gözləntiləri arasındakı fərqlər diqqət çəkir. Bu fərqin əsas səbəbi üç ölkədən ikisi, yəni Gürcüstan və Ermənistanın yetərli miqdarda təbii mənbələrə malik olmamasıdır. Bu arada Azərbaycanın çox miqdarda neft və qaz ehtiyatına malik olması, bu ölkənin daha müstəqil hərəkət etməsinə, iqtisadi mövzulardakı danışıqlarda daha diqqətli hərəkət etməsinə və bazarlıq gücünü hər zaman yüksək səviyyədə tutmasına yardımçı olur. Gürcüstan əsas məqsəd olaraq ATZ yaratmaq istiqamətindəki danışıqları başlamaq istəsə də, Avropa Birliyi buna qarşı çıxmışdır. İqtisadi islahatlar məsələsində Aİ-in və Gürcüstanın baxışları bir-birindən fərqli olmuşdur. Gürcüstandan fərqli olaraq Azərbaycanın ATZ və DTT-ə girişinin gecikməsi məsələsi ölkənin zəngin təbii sərvətlərə malik olması amili ilə izah edilir.

Enerji əməkdaşlığı haqqında saziş, Aİ-in enerji mənbələrini şaxələndirmək istiqamətində niyyətini açıq şəkildə ortaya qoyur. Əvvəla, AB Orta Asiyadan və Xəzərdən daşınacaq olan qazın təhlükəsiz hərəkətini təmin etmək istəyir. Eyni zamanda enerji əməkdaşlığı müqaviləsində tərəflərin işarə etdikləri prioritetlərin əhəmiyyəti də vurğulanmalıdır. Bu prioritetlər, enerji təminatının və torpaq bütövlüyünün təmin olunmasıdır. Yəni AB enerji tələbatı müqabilində Azərbaycandan enerji təminatının təmin etməsini tələb edərkən, Azərbaycan da öz ərazi bütövlüyünün təmin olunması məsələsində Aİ-ə şərt irəli sürür.

Üç fəaliyyət planı haqqında danışılan plan mətnlərinin "milli" ölçüləri baxımından da bir-birinə nisbətən fərqlər kəsb edir. Məsələn, Gürcüstan aksiya planında münaqişələrin dinc yolla həlli üçün ərazi bütövlüyü anlayışını mətnə daxil etdirməyə nail olmaqla kifayətlənməyib, eyni zamanda Aİ Rusiya ilə olan təmaslarında bu məsələdə müttəfiqi etməyi bacarmışdır. Ermənistan Gürcüstan və Azərbaycandan fərqli olaraq islahatların həyata keçirilməsində lobbi təsiri edəcək ifadələrin fəaliyyət planına daxil edilməsini nail olmuşdur.Bunlara “Ermənistan və AB siyasi partiyaları və qanunverici orqanları arasında əməkdaşlığı təşviq etməklə siyasi plüralizmi gücləndirmək“, “erməni mədəni irsinin avropada tanıdılması” daxil, mədəni sahələrdə əməkdaşlıq üçün imkanları araşdırmaq” nümunə göstərilə bilər. Azərbaycan tərəfi də eynilə Gürcüstan tərəfinin etdiyi kimi münaqişələrin həllinin əsas şərti olaraq "ərazi bütövlüyünün" təmin olunması şərtini Qarabağ münaqişənin həllinin əsas dayaq nöqtəsi kimi fəaliyyət planının giriş hissəsinə daxil etmişdir. Bundan başqa, Azərbaycan fəaliyyət planında iqtisadiyyat, nəqliyyat və enerji məsələlərindəki dəqiqləşdirməyin digər iki ölkəyə müqayisə etdikdə çox daha "texnokratik" xarakter daşıdığını görmək mümkündür. (Şahbazov R., 2015: s.232)

Noyabr 2004 tarixində Bakıda həyata keçirilən AB-Qara dəniz-Xəzər dənizi hövzəsi ölkələrinin enerji nazirləri konfransı nəticələrinə uyğun olaraq, Xəzərdəki enerji mənbələrinin inkişaf etdirilməsinə və ilə daşınmasının sadələşdirilməsinə yönəlmiş olan infrastrukturun inkişaf etdirilməsi, Şahdəniz mənbəyindən Avropa bazarlarına qaz transferini təmin edəcək zəruri infrastrukturun tamamlanması, Xəzər dənizi və Qara dəniz hövzəsindəki regional enerji əməkdaşlığının davam etdirilməsi diqqət çəkir. Əlavə sənəd kimi Avropa Birliyi ilə Azərbaycan arasında 7 noyabr 2004-ci il tarixində Aİ-Azərbaycan enerji əməkdaşlıq üzrə memorandum imzalanmıştır. Memorandumda Azərbaycanın Aİ-nin enerji müqavilələrinə mərhələli şəkildə harmonizasiyanın, ölkənin zaman içərisində Avropa İttifaqı ilə siyasi əməkdaşlığı dərinləşdirmək və iqtisadi inteqrasiyanı təmin etmək məqsədləri ilə paralellik kəsb etdiyi bildirilir.

# II FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA BİRLİYİ İLƏ ƏMƏKDAŞLIĞININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## II.1. Avropa Birliyinin Azərbaycanla apardığı siyasi fəaliyyətinin təhlil edilməsi

Avropa Birliyinin Azərbaycanın Soyuq müharibə sonrası qlobal önəminin sürətli artışı getdikcə daha çox müşahidə olunmağa başlamışdır. Aİ-in siyasi, iqtisadi, hüquqi və insani dəyərlər ilə yaratdığı model baxımından enişli, yoxuşlu proses yaşamasına rəğmən, dünyanın ən əhəmiyyətli mərkəzlərindən biridir. Digər tərəfdən, Azərbaycanın qlobal rəqabətdə önəminin artması Ai-in Cənubi Qafqaza yönələn siyasətinin sürətlənməsinə səbəb olmuşdur. Bilindiyi kimi, Cənubi Qafqaz həm öz özəllikləri, həm də Mərkəzi Asiyaya qonşuluq mövqeyi aspektindən Qərb üçün daha rahat istifadə ediləcək yollardan biri olmağı səbəbiylə yeni qlobal yarışın ən önəmli regionlarından biridir.

Avropa Birliyi Azərbaycan Respublikasının 31 dekabr 1991-ci ildə müstəqil və suveren dövlət kimi rəsmi olaraq tanıyıb. Aİ 10 avqust 1992-ci ildən Azərbaycanla diplomatik əlaqələr qurmağa başlamışdır. İkitərəfli münasibətlər çərçivəsində Avropa İttifaqı Cənubi Qafqazda, o cümlədən Azərbaycanla bağlı iki əsas siyasət üzərində işləyir. Bu siyasətlərin birincisi yeni elan edilmiş ölkələrin müstəqilliyini qorumaq, ikincisi isə sosialist sistemdən demokratiya və bazar iqtisadiyyatına keçiddir. Bu məqsədlə ölkələrə texniki və maliyyə yardım proqramları verilmişdir. (Ahmedov M.,2015:s,158)

Avropa Birliyi-Azərbaycan əlaqələrinin təməli 1996-ci ildə imzalanmış olan Tərəfdaşlıq və Əməkdaşlıq müqaviləsinə əsaslanır. Bu konvensiya 1999-cu ildə qüvvəyə minmişdir. Sözü gedən strategiya çərçivəsində AB-in Azərbaycan istiqamətli dəstəyi 22 İyun 1999-cu il tarixində tədbiq edilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi və 14 noyabr 2006-cı il tarixində qüvvəyə minən “Avropa Birliyi-Azərbaycan Qonşuluq

Siyasəti Fəaliyyət Planının prioritetləri" istiqamətindəkı Azərbaycanın islahat proqramdır. (Vəliyeva, T. 2014: s. 131-145)

Qonşuluq Siyasəti çərçivəsində Aİ Cənubi Qafqaz ölkələrinə ənənəvi regional yanaşma prosesini davam etdirərək və beş illik fəaliyyət planlarını Azərbaycan, Ermənistan və Gürcüstanla eyni tarixdə imzalamışdır. Bu üç ölkənin fəaliyyət planlarının məzmunu da çox oxşardır. Bununla yanaşı, Azərbaycanın Avropa Qonşuluq Siyasətindən gözləntiləri Ermənistan və Gürcüstandan fərqlidir. Gürcüstan Qonşuluq Siyasətini AB üzvlüyü prosesində hazırlıq dövrü hesab edir. Ermənistanın xarici siyasəti iqtisadi əməkdaşlıq məsələlərində Rusiyadan asılı olduğuna görə Aİ ilə sıx siyasi münasibətlər qurmağa çalışır. Azərbaycan isə AB-in qonşuluq siyasətinə və Ermənistan və Gürcüstan qədər maddi ehtiyac duymur. Azərbaycan iqtisadiyyatının makroiqtisadi əsasları sabitdir. Çox əhəmiyyətli neft və təbii qaz ehtiyatlarına malik olan Azərbaycan Avropa enerji bazarında təhlükəsiz şəkildə iştirak etmək istəyir və onu Qonşuluq Siyasətini başqa kanallarla həyata keçirir.

2007-2010-cu illər üçün Milli Proqram çərçivəsində NIP- Milli İndikativ Proqram yaradılmışdır. Bu proqramın əsas məqsədi dövlət qurumlarının inkişaf etdirilməsi, onları daha effektiv həyata keçirmək və xarici investisiyaların və biznesin inkişafını təşviq etmək üçün Azərbaycana öz daxili infrastrukturunu təkmilləşdirilməsidir. Bu layihə çərçivəsində dəstəklənilcək üç əsas sahə aşağıdakılardır:

1) Demokratiya və idarəetmə.
2) Sosial-iqtisadi, yoxsulluğa qarşı mübarizə.
3)Nəqliyyat, enerji və ətraf sahələrində inzibati və iqtisadi islahatların dəstəklənməsi.

Aİ həmçinin, Azərbaycanın yeni demokratik hökumətinə məsləhət vermək və insan hüquqlarının qorunmasını təmin etmək üçün Bakıda Avropa Demokratiya və İnsan Hüquqları İdarəsinin (EIDHR) ofisini yaratmışdır. (Ahmedov M.,2015:s,158)

Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş Avropa İttifaqı ilə Azərbaycan arasında ümumi iqtisadi və siyasi faydalar əsasında iqtisadi, sosial, maliyyə, elmi,

texnoloji və mədəni əməkdaşlığa diqqət yetirir. Bu əməkdaşlıq Azərbaycanın real demokratiya və bazar iqtisadiyyatına keçidini tam dəstəkləməyi nəzərdə tutur. Bununla yanaşı, İttifaq ölkələri Azərbaycandakı sabitliyin tərəfdarıdır(Ə.Həsənov.,2005: s.630).

Ancaq demokratiyanın dəstəkləndiyi kimi, AB-in Azərbaycanda lobbiləşdirilməsi üçün bir az ziddiyyət təşkil edir. Əslində, demokratiya olduğu zaman zaman qeyri-sabitliklər qaçınılmazdır. Səmimiyyət baxımından Avropa İttifaqı Azərbaycanda sabitliyin dəstəklənməsində səmimidir , demokratiya ilə bağlı məsələdə isə tamamilə əks mövqedə yer alır.

Aİ-in 2004-cü il genişlənməsindən sonra tətbiq edilən Yeni Qonşuluq Siyasəti çərçivəsi müəyyənləşdirilmişdir. Yeni Qonşuluq Siyasəti çərçivəsində AB-Azərbaycan Fəaliyyət Planının birinci hissəsində müəyyən edilən əsas prioritet sahə aşağıdakı məsələləri əhatə edir:

1.Qarabağ münaqişəsinin sülh kontekstində həllinə töhfə vermək.

2. Azərbaycanın beynəlxalq öhdəliklərinə (Əməkdaşlıq və Əməkdaşlıq Sazişi, Avropa Şurası, ATƏT, BMT) uyğun olaraq insan hüquqlarının, əsas azadlıqlarının və qanunun aliliyinin təmin edilməsi.

3. Gömrük funksiyanallığının artırılması.

4. Müxtəlif sektorlar və sahələrdə iqtisadi fəaliyyətin inkişaf etdirilməsi, yoxsulluğun azaldılması və sosial , regional disbalansın azaldılması, ətraf mühitin qorunması da daxil olmaqla davamlı inkişafın təşviqi ilə davamlı inkişafın təmin edilməsi.

5.İqtisadi qanunvericiliyin və inzibati təcrübənin daha da yaxşılaşdırılması.

6.Regional nəqliyyat şəbəkəsi və enerji bazarlarının inkişafı, əməkdaşlığın gücləndirilməsi.

7.Ədalət, insan hüquqları və əsas azadlıqları, təhlükəsizlik, sərhəd məsələləri əməkdaşlığı artırılması. (Ahmedov M.,2015:s,158)

Strategiya sənədində həmçinin enerji nəqliyyatının da təhlükəsizliyi vurğulanır. Bu baxımdan Azərbaycan Xəzərin təbii sərvətlərini Avropaya çatdırmaqda və Mərkəzi Asiyanın resurslarını Qərbə ötürülməsində alternativ enerji dəhlizinin yaradılmasında mühüm rol oynayır. Avropa Birliyi enerji və nəqliyyat sahələri ilə yanaşı, özünün iqtisadi və siyasi maraqlarını nəzərə alaraq, müxtəlif sahələrdə ölkəmizlə regional əməkdaşlığı gücləndirməkdə maraqlıdır. Ancaq nədənsə Avropa Birliyi Qarabağ münaqişəsinin birbaşa müdaxiləsi və vasitəçiliyi məsələsinə o qədər də isti yanaşmır.

Azərbaycan demokratiya, insan hüquqları və azad bazar iqtisadiyyatını inkişaf etdirmək və ölkəni Avropa İttifaqına yaxınlaşdırmaq üçün ilk növbədə mərhələli təkmilləşmə islahatları strategiyasının həyata keçirilməsi məqbuldur. Bununla yanaşı, qısa müddətdə daha çox iş görülməli,ölkənin islahat işləri səmərəli və davamlı olması vacibdir.

Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlərdə müşahidə olunduğu kimi, Qonşuluq Siyasəti praqmatik baxımdan yönləndirilir. Əslində obyektiv olaraq dəyərləndirildiyi zaman "hüququn üstünlüyü, yaxşı idarəetmə və insan hüquqları" sahəsində AB-nin və Azərbaycanın maraqları və dəyərləri üst-üstə düşmür, Qonşuluq Siyasətində isə çox az irəliləyiş müşahidə olunur. Digər tərəfdən, enerji kimi qarşılıqlı əməkdaşlığın mümkün olduğu sahələrdə irəliləyiş Avropa Qonşuluq Siyasəti xaricində qeydə alınır. Avropa İttifaqı ilə Azərbaycan arasında Avropa Qonşuluq Siyasətinin Şərq Tərəfdaşlığı vizionu çərçivəsində Əməkdaşlıq razılaşması üzrə danışıqlar Azərbaycan Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü olmadığına görə, Avropa İttifaqı və Azərbaycan arasında dərin və hərtərəfli azad ticarət zonasının yaradılmasını əhatə etmir. (Vəliyeva, T. 2014: s. 131-145)

Azərbaycanda vətəndaş cəmiyyətlərinin fəaliyyətinin zəifləməsi Aİ ilə Azərbaycan arasında siyasi dialoqa kölgə salmağa başlamışdır . Eyni zamanda cinsi azlıqların müdafiəsi ilə bağlı olan məsələlər nə hökumətin və nə vətəndaş cəmiyyətinin geniş dəstəyini almamışdır. Bu, Azərbaycan xalqının konservativ, yəni mühafizəkar mədəniyyətə sahib olması və dini dəyərlərin üstünlüyü ilə izah edilə bilər.

Anti-korrupsiya sahəsində bir çox müvəffəqiyyətlər əldə edilmiş, tətbiq mexanizmləri sahəsində müəyyən sistematiklik müşahidə edilməyə başlamışdır. 2012-2015-ci illərdə korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı ilə Baş Prokurorluğun yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün tədbirlər görmüşdür.

Azərbaycan rəhbərliyi 14 noyabr 2006-cı il tarixində AB-Azərbaycan birgə təşəbbüsü ilə qəbul edilmiş Yeni Qonşuluq Siyasəti Əməli Planını həyata keçirmək üçün özünün islahat prioritetlərini müəyyən etmişdir.

1. Avropa Şurasının üzvü kimi fundamental hüquq və azadlıqlarla bağlı öhdəliklərin yerinə yetirilməsi və həyata keçirilməsi, hüququn üstünlüyünü təmin etmək (xüsusilə məhkəmə və müdafiə hüquqlarının müstəqilliyi, fürsət bərabərliyinin artırılması); ölkədə, demək olar ki, bütün müvafiq sahələrdə demokratiyanın və insan hüquqlarının səviyyəsinin artırılması; Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına və onların tətbiqinə hörmət
2. 2014-2020-ci illərdə məhkəmə-hüquq sistemində islahat proqramının qəbul edilməsi, məhkəmə-hüquq sisteminin tam müstəqilliyinin təmin edilməsi, hüquqi-məhkəmə sisteminin islahatı.
3. İqtisadiyyatın şaxələndirilməsi və regionların inkişafı, xüsusilə də bazarda şəffaflığın təşviqi və investorlar üçün bərabər imkanların yaradılması üçün rəqabət haqqında qanunun tətbiqi. (Ahmedov M.,2015:s,158)

Azərbaycanla Aİ arasındakı əlaqələr çərçivəsində inzibati sahədə maarifləndirmə mərkəzi idarəetmə orqanları ilə həyata keçirilir. Mərkəzi idarəetmə sahələrində Aİ-in inteqrasiya prosesində bəzi mühüm proqramlar həyata keçirilir. Tvinninq, TAIEX və SIGMA kimi proqramlar vasitəsilə Azərbaycanda dövlət idarəetmə sistemi AB dövlət idarəetmə sisteminə uyğunlaşdırılır. Azərbaycan kontekstindən bu proqram çox vacibdir və strateji əhəmiyyətə malikdir. Beləliklə, Aİ qanunvericilik sahəsində müsbət təcrübələrin həyata keçirilməsi üçün müasir və effektiv idarəetmənin qurulmasında ölkəmizi dəstəkləyir və hökumətimizə vacib

məsələlərin həyata keçirilməsində kömək edir. 27 may 2015-ci il tarixinə kimi Azərbaycanda 27 tvinninq layihəsi həyata keçirilmişdir. Bu layihələrin 21-i uğurla başa çatıb və 6 layihə davam etdirilir. Layihələr ictimai sektorda tərəflər arasında praktiki təcrübə mübadiləsini nəzərdə tutur. (Ahmedov M.,2015:s,158)

Digər əhəmiyyətli bir proqram TAIEX-dir. TAIEX AB qanunvericiliyi AQS ölkələrinə də qanunvericiliyinin harmonizasiyası, həyata keçirilməsinə kömək edir.TAİEX proqramının Azərbaycanda əsas yardım sahələri aşağıdakılardır:

1. Dövlət idarəetməsinin gücləndirilməsi;
2. Qanunvericiliyin AB qanunvericiliyinə uyğunlaşdırılması;
3. Milli Göstərici Proqramlarında və ya "Yol xəritələri Planı"nda müəyyən edilmiş prioritetləri əldə etmək;
4. Gələcək Tvinninq layihələri üçün imkan yaratmaq. (Ahmedov M.,2015:s,158)

Azərbaycan xarici və təhlükəsizlik siyasətində həm regional güclər, həm də qlobal güclər arasında tarazlıq siyasəti həyata keçirir. Bu baxımdan Azərbaycanın Aİ ilə dərin əməkdaşlığından danışarkən ilk növbədə digər qonşu ölkələrin siyasi, iqtisadi təsir gücünü, tarixi bağlarını nəzərə almaq lazımdır. Bu ölkələr içərisində ilk sırada Rusiya Federasiyası yer alır.

Azərbaycan Rusiya ilə yaxşı ikitərəfli münasibətlərin vacibliyinin fərqindədir. Rusiya Azərbaycanda əsas iqtisadi, siyasi və sosial maraqları olan qonşu bir ölkədir. Bu ölkə Cənubi Qafqazda, xüsusən Dağlıq Qarabağda Ermənistanla bağlı olan problemlər baxımından açar dövlət, dolayısı yolla işğalçıya dəstəkçi rolunu oynamaqdadır. Enerji sahəsində əməkdaşlıq daim Rusiya ilə Azərbaycan arasındakı ikitərəfli əlaqələrin determinantı olmuşdur. Bu vəziyyət bu gün də davam edir və yaxın gələcəkdə bu istiqamətdə heç bir dəyişiklik gözlənilmir. Buna görə Rusiya enerji mərkəzli maraqlarından imtina etməyəcək. Bununla yanaşı, təxminən 9,8 milyon azərbaycanlı əhalinin 2,5 milyonunun Rusiyada yaşaması faktı nəzərə alınmalıdır.

Azərbaycan, müstəqilliyini 1991-ci ildə ilk tanıyan ölkə olaraq Türkiyə ilə xüsusilə, tarixi və mədəni təməllərə söykənən möhkəm bir əlaqəyə malikdir. Əlbəttə

ki, iki ölkə arasında imzalanmış strateji tərəfdaşlığı və ən önəmli problemlərlə bağlı ümumi siyasət aparılmasını da vurğulamaq vacibdir. Keçmişdə yaşanan işğal nəticəsində, Azərbaycanın tarixi torpaqlarının böyük qisminin İrana birləşdirilməsi hal-hazırda da iki ölkə arasındakı münasibətləri gərgin vəzyətdə saxlamaqdadır. Xüsusən, 1990-cı illərin əvvəllərində Vahid Azərbaycan ideyası ölkədə yenidən əhəmiyyət qazanmağa başladı. Bu kontekstdə, İran hökuməti azərbaycanlı türklərin yaşadığı bölgələrdə milliyətçi cərəyanları sıx nəzarət altında saxladığı halda, Azərbaycan hökuməti "İslam fundamentalizmi" təhlükəsinin ölkəyə sızmasının qarşısını alır. Azərbaycan şiə-sünni ayrımının üzərində dayanmadan İslam dinini ortaq bir şəkildə yaşayan nadir ölkələrdən biridir. Azərbaycan bu günə qədər dünyəvi strukturunu saxlaya bilib. Ona görə də bu sekulyar quruluş müəyyən mənada Aİ-in din-dövlət münasibətlərinə örnək ola biləcək xüsusiyyətlərdən sayılır.

Soyuq Müharibədən sonra 1999-ci ildə imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə yaradılan çərçivədə yer alan Azərbaycan - AB əlaqələri, Avropa Birliyinin Şərq Tərəfdaşlığı siyasəti konteksində bir müddət arzu edilən şəkildə irəliləməmişdir. Lakin 2017-ci ildən sonra bu əlaqələrin bərpa edilməsi az da sürət qazanmışdır.

12 İyul 2018-ci ildə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasətləri üzrə Ali Nümayəndəsi Federika Moqerini, Qarabağ məsələsində Ermənistan prezidenti Nikol Paşinyan ilə görüşdükdən sonra tərəflərin, Minsk Qrupu həmsədrləri himayəsində qeyri şərtsiz olaraq müzakirələrə başlanmasının əhəmiyyətini dilə gətirmişdir. AB işğal faktorunu görməməzlikdən gələrək Ermənistan ilə yaxınlaşması, Azərbaycanın haqlı maraqlarının göz ardı edilməsi, xarici siyasətində "tarazlıq siyasəti"ni mənimsəyən ölkəmmiz üçün narahatlıq yaratmışdır. Bununla yanaşı, 2015-ci ildə Avropa Parlamentinin Azərbaycan haqqında qeyri konstriktiv,tənqidi qərarlarından sonra Azərbaycan-AB ilə əlaqələri zədələnmişdir.

Azərbaycan üçün əsas xarici siyasət məsələsi Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisdir. Qarabağ və ətrafındakı 5 rayonun işğalı Ermənistan tərəfindən təcavüzü Azərbaycanın siyasi, iqtisadi və sosial vəziyyətinə təsir edən ən

vacib amillərdir. İşğalın sülh yolu ilə həlli bütün sahələrdə Azərbaycanın inkişafını sürətləndirəcək amil olaraq rol oynayır. Bu baxımdan Azərbaycan üçün vətəndaşlarının Avropa səviyyəsində yaşayış səviyyəsini yüksəltməsi və Avropa dövlətinin bir hissəsi kimi qəbul olunması vacibdir.

Son illər Azərbaycan və Avropa İttifaqı arasında olan siyasi əlaqələrdə müəyyən gərginlik müşahidə olunur. Özəlliklə ölkəmizə qarşı apardığı ikili siyasət özünü ikitərəfli münasibətlərin zəifləməsində göstərir. Məsələn : Avropa Birliyinin Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun dekabr ayında Tiflisdə keçirilməsi nəzərdə tutulan iclasına Azərbaycan hökumətinin nümayəndələri dəvət edilməmişdir. Şərq Tərəfdaşlığı AB-in özəl layihəsi olmasına baxmayaraq Gürcüstanda keçiriləcək olan tədbirə Azərbaycan hökuməti nümayəndələrinin dəvət edilməməsi ikili standartın göstəricisdir . Digər bir tərəfdən 2018-ci ildəki Ermənistandakı inqilabdan sonra Nikol Paşinyanın baş nazir seçilmədiyi halda qonaq qismində çağırılması bu qurumun qanunun aliliyi məsələsini şübhə altına alır. Eyni zamanda bu tədbirdə Ermənistanın ərazi bütövlüyü və sərhədlərinin tanınması məsələsinin müzakirəyə çıxarılmağı Azərbaycana qarşı bir növ olaraq yolverilməz addım olmuşdur.

Ukrayna və Gürcüstanın ərazi bütövlüyünün tanınması, Rusiyanın işğal siyasəti kimi göstərilməsinə baxmayaraq, Azərbaycanın sərhədləri və ərazi bütövlüyü, Ermənistanın işğalçılıq siyasəti müzakirəyə çıxarılmırsa, burada heç bir ədalət prinsiplərindən danışmaq mümkün deyildir. Buna görə də Aİ-in ermənipərəst mövqeyi Azərbaycanla olan siyasi münasibətlərə kölgə salan, geriyə aparan əsas mənfi cəhətlərdən biridir . Aİ-in Azərbaycan qarşı apardığı davranış son illər ölkəmizin tarazlı siyasətinin büdrəməsinə, dolayısı yolla iqtisadi, siyasi maraqlarımızın qarşılanması üçün Rusiya yönəlməyimizə səbəb olmuşdur. Xüsusilə də, hərbi, ticarət, elmi sahələrdə Şimal Qonşumuzla bağlanmış sazişlər, Azərbaycan xalqının keçmiş təfəkkürünə qayıtmaq istəyi, yenidən rus mədəniyyətinə olan maraq və istəyin, Şimala inteqrasiya cəhdlərinin artması Aİ-in Azərbaycanda həyata keçirmək istədiyi qismən siyasi, sosial , mədəni təşəbbüslərinin nə qədər səmərəsiz olduğunu göstərməkdədir.

Aİ-ə olan inteqrasiyanın effektivliyindən danışarkən hökumət rəsmilərinin mövqeyindən əlavə ölkəmizin vətəndaşlarının mövqeyini öyrənmək vacib məsələdir. 2014-cü ildə aparılan sorğular nəticəsində belə qənaətə gəlinmişdir ki, ölkə vətəndaşlarının çoxu bu məsələdə mövqeyi birmənalı deyildir. Bəzi opponentlərin fikrincə Aİ-ə yönəlmək daha səmərə gətirən bir siyasətdir. Lakin çoxluq təşkil edən digər vətəndaşların fikrincə isə Avrasiya İttifaqına üzv olmağı seçmək və ya balanslaşdırılmış siyasəti aparmaq daha çox fayda gətirir. Bu aparılan sorğulardan belə bir qənaətə gəlmək mümkündür ki, AB-in Azərbaycana qarşı göstərdiyi marağın əməli deyil, yazılı xarakter daşıması və bunun Azərbaycan rəsmiləri eləcə də xalq tərəfindən obyektiv qiymətləndirilməsinə səbəb olmuşdur.

Bütün bunlara baxmayaraq hal-hazırki vəziyyətdə Avropa İttifaqı Azərbaycanın potensialından xəbərdardır və Cənubi Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri kimi layihələrin reallaşdırılması mühüm rol oynamışdır. Başqa bir amil isə, Nikol Paşinyanın Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Dağlıq Qarabağın nizamlanmasında ən böyük amil kimi Qərblə daha sıx əlaqələr quracağına dair gözləntidir. Qərbin məşhur şüarlarını əlində bayraq edən Paşinyan, Rusiya ilə əlaqələrini davam edəcəyini, yaxın müttəfiq olaraq qalacağını ifadə etməsindən sonra Aİ məyus olmuşdur. Azərbaycan isə bu üstünlükdən maksimum dərəcədə istifadə etməyə çalışmağa başladı. 2018-ci ilin iyulunda Azərbaycan regional layihələri həyata keçirən və sabitliyini qoruyub saxlayan imici ilə diplomatik yolunu Qərbə doğru yönəltdi. Paşinyanın xarici siyasətində Avropaya gözlənildiyi kimi yaxın olmadığını və Azərbaycanın xarici siyasət seçimlərində balanslı olduğunu nəzərə alaraq, Aİ-in Azərbaycanı daha etibarlı tərəfdaş kimi qəbul etməsi vacib bir məsələdir.

Aİ Ermənistanı Rusiyanın təsirindən tamamilə uzaqlaşdırmaq üçün bütün cəhdlərinə son verməmişdir. AB baxımından nəzər salsaq, tamamilə Rusiyadan asılı vəziyyətdə olan Ermənistan üzərində əvvəlki kimi təzyiqlər etmək əvəzinə NATO-nun ikinci böyük ordusuna sahib olan Türkiyə ilə mükəmməl əlaqələrə sahib Azərbaycan ilə uzunmüddətli əməkdaşlıq gələcəkdə regiondakı təhlükəsizliyə də köməkçi olacaq.

Bundan əlavə, Qərbin Mərkəzi Asiya konsepsiyasının yaradılması ilə yanaşı, Azərbaycan həm sosial, həm də ticari münasibətlər və enerji layihələri baxımından daha çox fayda əldə edəcəkdir. Digər tərəfdən, Avropa uzunmüddətli enerji təhlükəsizliyinin yaradılmasına müsbət töhfələr verəcəkdir. (Baban, İ.,2010:S.156)

Yarandığı gündən etibarən on il davam edən Avropa Qonşuluq Siyasəti çərçivəsində AB digər qonşu ölkələrlə də oxşar problemlər yaşayıb. Aİ üzvlük perspektivini təklif edə bilmədiyinə görə ölkələrdəki demokratik islahatların təmin edilməsi və ölkələri öz maraqları ətrafında formalaşdırmaq məqsədinə nail ola bilmir. Bu şəraitdə AB-nin energetika təhlükəsizliyi kimi həyati maraqlarına toxunan ölkələrlə münasibətlərində yeganə yolu münaqişələrin həllində daha aktiv rol oynamasıdır. Əslində, Azərbaycanın Aİ-dən gözləntisi Qonşuluq Siyasəti çərçivəsində ikitərəfli əlaqələri inkişaf etdirmək əvəzinə, Dağlıq Qarabağ problemində tərəfsiz daha effektiv vasitəçi rol oynamağa başlamasıdır Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır və bu amil hər hansı bir iqtisadi əməkdaşlığa və AB ilə sərmayə qoymağa mane olur. (Şahbazov R., 2015:S.232)

Gürcüstanın vəziyyətində olduğu kimi, AB-in Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi gözlənilir, lakin Aİ daxilində erməni lobbisinin çox güclü təsirləri səbəbindən bu dəstək çox məhduddur. Buna görə də AB-in yaxın gələcəkdə xarici siyasətində əsas prioritet məqsədi Cənubi Qafqaz regionunda ədalətli mövqedən çıxış etməklə öz mənafeyi üçün Azərbaycan kimi iqtisadi potensialı böyük olan dövlətlə əlaqələri möhkəmləndirmək və inkişaf etdirmək olmalıdır.

## II.2. Azərbaycanın Avropa Birliyi İqtisadi Əməkdaşlığının mövcud vəziyyətinin təhlili

AB-Azərbaycan arasında olan iqtisadi və ticari münasibətlər Əməkdaşlıq Sazişi tərəfindən tənzimlənir. Son 5 il ərzində iki tərəf arasında olan malların və xidmətlərin ticarətində yüksəlişlər,enişlər müşahidə olunmuşdur. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır ki, bu da Azərbaycanın ümumi ticarətinin 48,6% -ni təşkil edir.Avropa İttifaqı Azərbaycandakı ən böyük ixrac və idxal bazarı olmaqla ölkəmizin ixracında 60,7%, idxalında isə 31,8% təşkil edir.

**Cədvəl 1**. Azərbaycanın Aİ ilə xidmətlərin ticarəti

| ***Xidmətlərin ticarəti 2014-2016, € milyard*** | | | |
|---|---|---|---|
| İl | İdxal | İxrac | Balans |
| 2014 | 0.8 | 1.8 | -1.0 |
| 2015 | 0.5 | 1.4 | -0.9 |
| 2016 | 0.3 | 1.1 | -0.8 |

**Mənbə**: Avropa Komissiyası rəsmi saytı **ec.europa.eu/trade/policy**

Cədvəl 1-də göründüyü kimi 2014-cü ildən bəri ölkəmizin Aİ ilə xidmətlərin ticarətində həm idxal , həm də ixrac baxımından azalma müşahidə olunmuşdur.

**Cədvəl 2.** Azərbaycanın Aİ ilə malların ticarəti

| ***Malların Ticarəti 2015-2017, € milyard*** | | | |
|---|---|---|---|
| İl | İxrac | İdxal | Balans |
| 2015 | 10.7 | 3.5 | 7.2 |
| 2016 | 7.6 | 1.9 | 5.7 |
| 2017 | 9.4 | 1.7 | 7.7 |

**Mənbə** :Avropa Komissiyası rəsmi saytı **ec.europa.eu/trade/policy**

Cədvəl 2-ə əsasən Azərbaycanla AB arasında malların ticarətində qismən enişin baş verdiyini görə bilərik. Malların idxalında kəskin eniş müşahidə olunsa da 2017-ci ildə isə ixracımızın artması nəzərə çarpır.Bunun əsas səbəbi isə son illər ölkə ixracında qeyri neft sokturunun payının artırılmasının qarşıya məqsəd qoyulmasıdır.

Aİ-in Azərbaycandan olan idxalı əsasən mineral yanacaq, maşın və nəqliyyat vasitələri, kimyəvi maddələr, ərzaq və heyvandarlıqdan ibarətdir. AB-in Azərbaycana ixracatı maşın və nəqliyyat avadanlıqları, müxtəlif hazır məhsullar və kimyəvi

maddələr təşkil edir. Azərbaycanın AB ölkələri arasındakı ən böyük ticarət əməkdaşları İtaliya, Almaniya və Böyük Britaniya təşkil edir.

**Cədvəl 3.** Azərbaycanın Aİ ilə olan ticarətində malların tərkibi

| Qiymət - Milyard € | **İxracat** | | | | **İdxalat** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **2015** | **2016** | **2017** | **2018** | **2015** | **2016** | **2017** | **2018** |
| Ümumi | 10,693 | 7,639 | 9,411 | 11,503 | 3,453 | 1,879 | 1,709 | 2,692 |
| 0 Qida və canlı heyvanlar | 65 | 56 | 56 | 49 | 146 | 91 | 99 | 97 |
| 1 İçkilər və tütün | 1 | 1 | 1 | 0 | 54 | 36 | 41 | 42 |
| 2 Yanacaq istisna olmaqla yanmaz materiallar | 2 | 4 | 4 | 5 | 29 | 20 | 23 | 24 |
| 3 Mineral yanacaq, sürtkü yağları və əlaqəli materiallar | 10,466 | 7,477 | 9,234 | 11,351 | 29 | 34 | 36 | 31 |
| 4 Heyvan və bitki yağları, yağlar və mumlar | 0 | 0 | 0 | 0 | 9 | 5 | 6 | 5 |
| 5 Kimyəvi maddələr və digər məhsullar | 26 | 28 | 37 | 29 | 293 | 226 | 235 | 237 |
| 6 Əsasən maddi əsaslarla təsnif edilən istehsal malları | 20 | 39 | 23 | 13 | 491 | 332 | 243 | 284 |
| 7 Maşın və nəqliyyat avadanlığı | 86 | 20 | 17 | 26 | 1,654 | 811 | 713 | 962 |
| 8 Müxtəlif istehsal məqalələr | 5 | 6 | 5 | 5 | 728 | 313 | 286 | 285 |
| 9 Əmtəə və əməliyyatlar | 19 | 5 | 18 | 4 | 14 | 8 | 19 | 715 |
| Digərləri | 3 | 3 | 17 | 20 | 7 | 5 | 9 | 12 |

**Mənbə** : Avropa Komissiyası rəsmi saytı. **ec.europa.eu/trade/policy**

Cədvəl 3-ə əsasən görə bilərik ki, mineral yanacaq, sürtkü yağları və əlaqəli materiallar üzrə son illər ixracatımız yüksəlmişdir

1997-ci ildə Azərbaycan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük üçün müraciət etmişdir. Hal-hazırda da təşkilata qoşulmaq üçün danışıqları davam edir. Aİ ilə Əməkdaşlıq Sazişinin mövcud ticarət qaydalarının təkmilləşdirilməsi üzrə danışıqlar isə 2017-ci ilin fevral ayında başlanıb. Məqsəd AB-Azərbaycan ticarət əlaqələrini daha da genişləndirmək və ölkəmizin gələcək ÜTT-yə üzvlüyünü dəstəkləməkdir. Azərbaycana aztəminatlı ölkələr üçün Avropa İttifaqının

Təkmilləşdirilmiş Üstünlüklər Sisteminin (Generalised System of Preferences) imtiyazları verilmişdir. Lakin 2014-cü ilin fevral ayında Avropa İttifaqı Azərbaycanın TÜS-ün ticarət seçimlərini dayandırdı. Bunun əsas səbəbi, Dünya Bankının "yuxarı orta gəlirli" iqtisadiyyat olaraq ən az 3 il müddətinə təsnif edilmiş ölkələr kimi, Azərbaycan kimi ölkələrin üstünlüklərini təxirə salmasıdır. (Ahmedov M.,2015:s,158)

Geostrateji əhəmiyyətə sahib olan Azərbaycanın müstəqilliyini qorumaq və gücləndirmək üçün sahib olduğu ən əhəmiyyətli aktyorların biri olan enerji ehtiyatlarının dünya bazarına çatdırılması regional güclər ilə qlobal gücləri də qarşı-qarşıya gətirmişdir. SSRİ-nin dağılmasından sonra Xəzər hövzəsi "Yeni Böyük Oyun"un (1990-cı illərdə ABŞ xarici siyasət mütəxəssisi Brezinskinin "Böyük Şahmat taxtası"kitabında istifadə etdiyi ifadə) yaratdığı səhnə idi. Azərbaycan coğrafi cəhətdən qapalı bir bölgədir və açıq dənizlərə birbaşa çıxışı yoxdur və ölkənin xam neftinin, ən azı, bir ölkədən keçərək tankerlərə yüklənməsi lazımdır. Azərbaycanın qonşu ölkələri arasında Rusiya, İran və Ermənistan kimi dostluq əlaqələrinin olmadığı dövlətlərin olması da mühüm elementlərdən biridir. Bölgədə enerji boru kəmərlərinin yalnız iqtisadi bir problem deyil, həm də təbii olaraq geosiyasi ölçüsü olan bir problemdir. Bu qarışıq müddətdə strateji bir seçim etmək məcburiyyətində qalan Azərbaycan Qərb ilə əməkdaşlığa yönələrkən, Avropa və ABŞ ilə yaxınlaşarkən tarazlıq ünsürünü qorumaq məqsədiylə Rusiya və İran başda olmaqla qonşularını tamamilə qarşısına almamağa da diqqət etməlidir.

Soyuq Müharibə sonrası Azərbaycan, Xəzər hövzəsindəki mənafe qarşıdurmaları baxımından geosiyasi kilid ölkə olaraq dünya güc mərkəzlərinin diqqətlərini üzərinə çəkmişdir. Beynəlxalq sistemdə yenidən köhnə gücünə qovuşmaq istəyən Rusiya ilə Qərb arasındakı maraq qarşıdurmasının mərkəzi halına gələn Azərbaycan, Xəzər bölgəsinin müstəqilliyini yeni qazanan digər respublikalarının fərqli olaraq Rusiyaya olan asılılığını sona çatdırmağı seçmiş və bu istiqamətdə strateji izləmişdir. Rusiya Federasiyasının Xəzər bölgəsinin enerji qaynaqlarının transferində sahib olduğu mövqeyin ortadan qalxmasına səbəb olan Azərbaycan, yalnız öz enerji

ehtiyatları baxımından deyil, bölgə ölkələrinin sahib olduğu ehtiyatların transferi baxımından da alternativ nəqliyyat marşrutlarının açılmasını təmin etmişdir. Bu prosesdə Qərbin Xəzər regionuna, xüsusən də Azərbaycana olan marağı Azərbaycanın strateji mövqeyini möhkəmləndirdi. (Ahmedov M.,2015:s.158)

Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətləri nəzərdən keçirərkən enerji amilinin çox vacib bir yerə sahib olduğunu görə bilərik. 2006-cı ildə Avropa İttifaqı və Azərbaycan arasında Enerji sahəs üzrə Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Tərəflər arasında imzalanmış Memorandumda enerji sahəsi üzrə əməkdaşlığın təkmilləşməsi üçün bir sıra hədəflər müəyyən edilmişdir. Bu hədəfləri aşağıdakı kimi sıralaya bilərik :

a. Azərbaycanın qanunlarını enerji sahəsində Aİ ilə uyğunlaşdırmaq üçün proqram yaratmaq.

b. Azərbaycan və Xəzər hövzəsinin enerji resurslarını Aİ-yə ixrac etmək, nəqliyyat marşrutlarının təhlükəsizliyini gücləndirmək. Enerjiyə qənaət, bərpa olunan enerji və iqlim dəyişikliyi tədbirlərini əhatə edən Azərbaycanda enerji tələbatının idarə olunması siyasətinin qurulması.

c. Texnologiya sahəsində əməkdaşlığı inkişaf etdirmək və mütəxəssis kadrların ölkəyə gətirilməsi üçün ekspert mübadiləsi proqramlarının yaradılması.

İlk mərhələdə, TACİS Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinə texniki yardımı Azərbaycanla Aİ arasındakı əlaqələrdə ilk və ən vacib vasitə olmuşdur. Proqramın əsas məqsədi yeni müstəqil ölkələrdə demokratik idarəetmə və bazar iqtisadiyyatına yardım etmək idi. TACİS proqramı çərçivəsində 1991-1999-cu ildə 4,2 milyard avro büdcə ayrılmış və fəaliyyətlər həyata keçirilmişdir.

Avropa İttifaqı TACİS proqramı çərçivəsində müvafiq texniki və ekspert yardımı ilə Azərbaycandakı iqtisadi islahatları dəstəkləmişdir. TACİS proqramı 12 köhnə Sovetlər Birliyi dövlətləri və Monqolustana texniki yardım dəstəyini təmin etmək üçün 1991-ci ildə yaradılmışdır. Azərbaycanla bağlı bölmədə TACİS proqramı

əməkdaşlığın üç əsas aspektinə diqqət yetirir: a) infrastruktur, b) özəl sektor c)insan resurslarının inkişafı. (Ahmedov M.,2015:s,158)

**Cədvəl 4.** Aİ-in Azərbaycana yardım sahələri

| 1991-2006 | Cəmi (milyon €) |
|---|---|
| TACIS Milli Distributorlar | 116.50 |
| Humanitar yardım | 92.09 |
| Qida Təhlükəsizliyi | 77.00 |
| Qida yardımı | 65.70 |
| Fövqəladə maliyyə yardımları | 30.00 |
| Reabilitasiya | 18.37 |
| Fövqəladə humanitar yardım | 9.50 |

**Mənbə**. Commission Staff Working Paper, SEC(2005) 286/3, Brussels, 2.3.2005
**www.ENPI-info.eu/library/content/azerbaijan-enp-country-report (21.04.2015)**

Cədvəl 4-ə əsasən 1991-2006-cı illərdə Avropa Birliyi, TACİS və buna bənzər proqramlar, Azərbaycana 409,16 milyon, Gürcüstana 419,85 milyon, Ermənistana isə 386,39 milyon avro qazandırmışdır.

Azərbaycan və Gürcüstan 8 sentyabr 1998-ci ildə Bakıda Prezidentlərin təşəbbüsü və Aİ-in ***TACİS ,TRASEKA*** proqramının dəstəyi ilə "Tarixi İpək Yolu TR-nın bərpası" adlı beynəlxalq konfrans təşkil edilmişdir. Konfransda 32 ölkədən və 12 beynəlxalq təşkilatdan nümayəndələr iştirak etdi. Konfransda əldə edilmiş ən əhəmiyyətli müvəffəqiyyət Azərbaycan, Qazaxıstan, Türkiyə,Qırğızıstan, Tacikistan, Özbəkistan, Ukrayna, Moldova, Ermənistan, Gürcüstan, Rumıniya və Bolqarıstanın "Avropa -Qafqaz- Asiya Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi Beynəlxalq Nəqliyyat çoxtərəfli anlaşma"sı olmuşdur . Ana Müqavilənin əsasında texniki əlavə sənədlər də yer almışdır(Ahmedov M.,2015:s,158):

1. beynəlxalq dəmir yolu nəqliyyatı
2. beynəlxalq avtomobil nəqliyyatı
3. beynəlxalq dəniz nəqliyyatı ilə kommersiya nəqliyyat
4. gömrük prosedurları və sənədlərin təqdim edilməsi

Əsas müqavilənin müddəalarının həyata keçirilməsinə və icrasına aid məsələləri tənzimləmək üçün üzv dövlətlər Hökumətlərarası Komissiyanın (HK)

yaradılması haqda qərar qəbul etdilər. Bakıda Avropa İttifaqının yüksək vəzifəli şəxslərinin iştirakı ilə 21 fevral 2001-ci ildə Bakıda HK TRASEKA Daimi Katibliyinin Ofisinin açılışı olmuşdur. TRASEKA layihəsi Azərbaycanla 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsini dəstəkləmişdir. Bu layihələrin 26-da Azərbaycanın ümumi payı 100 milyon avrodan çox olmuşdur. İNOGATE (İnterstate Oil and Gas to Europe) müstəqil dövlətlərə maddi dəstək kontekstində Aİ tərəfindən reallaşdırılan önəmli bölgəvi təşəbbüslərdən biridir. İNOGATE-in əsas hüquqi infrastrukturu Azərbaycan daxil olmaqla 15 ölkənin iştirakı ilə 1999-cu ilin iyul ayında imzalanmış beynəlxalq qaz və neft ixracını ehtiva edən çərçivə sazişini təşkil edir. (Manafova B,2007:s.509).

Bu sadalananlar içərisində ilk növbədə enerji sahəsində İNOGATE,TACİS kimi müəyyən proqramlar yaradılsa da , Azərbaycanda enerji tələbatının idarə olunması çərçivəsində tədbirlər bütövlükdə həyata keçirilməmişdir. Ölkə daxilində "enerjiyə qənaət " mövzusu ictimai təbliğat siyasəti kimi əsas prioritet olmamışdır. Eyni zamanda enerjinin tələb –təklifi məsələsində səmərəliliyin təmin edilməməsi, yəni alternativ enerji qaynaqlarından istifadə üçün lazımı avadanlıqların alınmasında (məsələn: günəş panelləri, külək turbinləri) , quraşdırılmasında bəzi maneələrin olması, bu sahənin inkişafına müsbət təsir göstərməyən amillərdən biridir. Bu kimi məsələlər Aİ ilə Azərbaycan arasında enerji əlaqəsinin optimallaşdırılmasında mənfi cəhətlərdən biri sayılır. (Vəliyeva,T. 2014:s.131-145)

Bu gün AB dünyanın ən böyük enerji idxalçısıdır. Hal-hazırkı statistikaya görə, AB-in xarici enerji mənbələrindən asılılığı 55% -dir. Aİ neftin 84%-i və təbii qazın 64%-i idxal edir. Avropa Birliyi bu enerji ehtiyatlarını Şimali Afrika, Yaxın Şərq, Xəzər hövzəsi, Rusiya və Şimal dənizindən təmin edir.Aİ həmçinin enerji ehtiyaclarını ödəmək üçün Xəzər hövzəsinə yönəlib. Azərbaycan Aİ-in enerji ehtiyaclarını ödəmək və Xəzər hövzəsində enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində ən mühüm strateji mövqeyə malik ölkələrdən biridir. Yəni, Azərbaycan Xəzərdə neft və təbii qaz ehtiyatlarının istehsalına və Avropaya nəqlinə görə geosiyasi əhəmiyyətə malik Aİ

üçün əsas dövlətdir. Uzun illərdir Azərbaycan Aİ-in enerji təhlükəsizliyində mühüm rol oynayıb . Onun təməli isə 20 sentyabr 1994-cü ildə imzalanmış olan "Əsrin sazişi" ilə qoyulub. BTC neft kəməri və BTƏ təbii qaz boru kəməri nəticəsində Azərbaycan Avropaya neft və təbii qaz tədarük etməyə başlayaraq Avropanın enerji təhlükəsizliyini təmin etməkdə mühüm strateji rolu öz öhdəsinə götürdü. (Memmedli E.,2017:s.214)

Aİ-nin Enerji Təhlükəsizliyi Strategiyasında 28 May 2014-cü ildə mövcud təchizatçılarla əlaqələrin inkişaf etdirilməsi və yeni mənbələrin tapılması məqsədləri qeyd olunmuşdur. Bu baxımdan əhəmiyyətli Cənub Dəhlizinin sağlam enerjisi layihəsi çərçivəsində TANAP təbii qaz boru xəttinin həyata keçirilməsi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm amildir. Layihənin təməlinin qoyulması mərasimi 2015-ci il martın 17-də Qarsda keçirilmişdir. TANAP təbii qaz boru xətti vasitəsilə Şahdəniz-2 xəttindən çıxarılan təbii qazın Gürcüstandan keçərək Türkiyə üzərindən Avropaya çatdırılması hədəflənmiş idi. Nəhayət 12 iyun 2018-ci ildə Türkiyə və Azərbaycan tərəfindən çəkilişi 3 ildir davam edən Trans Anadolu Təbii qaz Boru Xətti (TANAP) öz fəaliyyətinə başladı.  TANAP-da CQD-in 51 % , BOTAŞ-ın 30 %, BP-in 12 %  və Socar Türkiyənin 7 %-lik payı vardır. (Baban. İ., 2010 :s.156)

2016 cı il Mayın 17-də Trans Adriatik Boru Kəməri TAP-ın inşası başlamışdır. Bu tarix Avropanın enerji ilə təchizatında  yeni dönəmin başlanğıcı hesab olunur. TAP CQD-in bir hissəsidir. TANAP Layihəsinin ardıcılı kimi qiymətləndirilir. Layihənin tərəfdarları belə hesab edirlər ki, bu qaz kəməri Avropanın enerji təhlükəsizliyini artıraraq Rusiyadan olan asılılığı xeyli azaldacaqdır.Maliyyə dəyəri 4,5 milyon dollar olan boru kəmərinin 2020-ci ildə istismara veriləcəyi proqnozlaşdırılır. Bu boru xətti Azərbaycanın Şah Dəniz 2 yatağından çıxarılan qazın Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçərək tranzit yolla İtaliyanın cənubuna daşıyacaqdır. CQD-in inkişafı Avropa İttifaqı üçün mühim olsa da, Rusiya üçün böyük narahatlıq mənbəyi sayılır. Bu səbəbdən Avropanın enerji qaynaqlarının gələcək dövrdə diversifikasiyasını nəzərdə tutan boru xətti Avropa İttifaqından böyük dəstək alır. Özəlliklə də BP,

İtaliyanın SNAM və Azərbaycanın SOCAR şirkətləri hər biri 20 faiz səhmdar olmaqla layihənin əsas 3 investoru hesab edilir. (Memmedli E.,2017:s.214)

Ölkəmizdə 11 Aprel 2018 seçkilərində qalib gələn cənab prezident İlham Əliyev Nazirlər Kabinetində dəyişikliklər apararaq daha da vizyoner və gənc bir baxışla xarici siyasətini daha da aktiv bir şəkildə davam etdirməyə başlamışdır. Həmin ildə ölkə Prezidentinin Brüssel səfəri, yalnız NATO ilə deyil, Azərbaycanın AB üzvü ölkələrlə də əlaqələrində əhəmiyyətli gəlişmələrin yaşandığı bir ziyarət olmuşdur. Azərbaycanın Brüsseldəki ən mühüm danışıqlarından biri Avropa Şurasının sədri D. Tusk və Prezident Əliyevin görüşü olmuşdur. Bu görüşdən sonra Azərbaycan xarici işlər naziri E.Məmmədyarov ilə AB Xarici Əlaqələr nümayəndəsi F. Moqerininin imzaladığı ortaq sənədlə "Tərəfdaşlıq Prioritetləri" mövzusunda razılığa gəlinmişdir. Azərbaycan - Aİ münasibətlərinin inkişafında əlamətdar bir addım olan bu sənəd dörd bənd yer alır:

1.İnstitutların gücləndirilməsi və yaxşı idarəetmə

2.İqtisadi inkişaf və bazar imkanları

3.Əlaqəlilik, enerji səmərəliliyi, ətraf mühit və iqlim siyasəti

4. Mobillik və ictimai əlaqələr

Bu dörd maddə şərh edildikdə başa düşülür ki, Azərbaycanla Aİ arasındakı əlaqələrin inkişafı ümumiyyətlə iqtisadi , maliyyə amilləri vasitəsilə gücləndirilməyə yönəldilmişdir. Xüsusilə Aİ-i narahat edən Ukraynadakı qeyri-sabit mühitdə Azərbaycan neftinin və xüsusilə təbii qaz ehtiyatlarının əhəmiyyəti artıb. Türkiyə və Gürcüstan ilə TANAP-ı həyata keçirən Azərbaycan müasir şərtlərdə enerji istehsalına davam etməkdədir. Təşkilatların gücləndirilməsi sayəsində, hökumət orqanlarının Azərbaycanda elektron sistemə keçilməsi, ölkəyə gələn əcnəbi vətəndaşlar üçün çox müasir və rahat bir şəkildə viza alınmasının təmin edilməsi ölkəmizin imici üçün çox xoş və təqdir edilən göstərici sayılır. Mobillik və ictimai əlaqələr məsələsində Asan Xidmət Dövlət Agentliyinin yaradılması ilə bir çox xidməti öz himayəsi altında toplayaraq vətəndaşların işlərini xeyli asanlaşdırmışdır. (Memmedli E.,2017:s.214)

Azərbaycan-Aİ-in iqtisadi münasibətlərində mühüm amil kimi enerji olduğunu görürük. Buna görə də Azərbaycan, müstəqilliyini qorumaq, təhlükəsizlik təhdidlərini aradan qaldırmaq, ölkə iqtisadiyyatının inkişafını təmin etmək üçün enerji sektorunu təsirli bir şəkildə istifadə etməyə çalışmaqdadır. AB-in enerji sahəsində xaricə asılı olması xarici siyasətdə enerji təhlükəsizliyi məsələsini daha çox əhəmiyyətli hala gətirməkdədir. Etibarlı enerji qaynaqlarına olan ehtiyac AB üçün Xəzər hövzəsinin və Azərbaycanın geostrateji əhəmiyyətini yüksəldərək Azərbaycanın AB-in və bölgə ölkələrinin enerji təhlükəsizliyi sistemindəki strateji rolu hər keçən gün artmaqdadır. Aİ illərlə və indiyədək Azərbaycanla gələcək danışıqların qurulmasına və xüsusilə də Gürcüstan və Türkiyənin daxil olduğu CQD layihəsi vasitəsilə enerji (qaz) sahəsində mövcud əməkdaşlıqda islahatlar etmək arzusuna böyük maraq göstərmişdir. Bu layihə Rusiyadan enerji təminatını diversifikasiya etmək və Aİ-in enerji təhlükəsizliyini təmin etmədən ibarətdir. CQD-in reallaşdırılması və Azərbaycanın önümüzdəki dövrlərdə Türkmənistan və İran təbii qazının Avropaya çatdırılmasında tranzit ölkə rolunu öz öhdəliyinə götürməsi, Avropa enerji təhlükəsizliyinin sağlanmasındakı geostrateji kilid ölkə mövqeyini bir daha sübut etmişdir. (Baban, İ. ,2010 :s.156)

# III FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA BİRLİYİNƏ ÜZV OLMASI PERSPEKTİVLƏRİ

## III.1. Avropa İttifaqına üzv olma şərtləri- Kopenhagen Kriteriyaları

21-22 iyun 1993-cü il tarixlərində Kopenhagendə keçirilən zirvə toplantısında, əvvəllər olduğu kimi, Orta və Şərqi Avropa ölkələrinin birliyə daxil ola biləcəyi haqqında çox vacib bir qərar qəbul edildi. Sammitin yekun bəyannaməsində tam üzvlük üçün siyasi və iqtisadi şərtlər müəyyənləşdirilmişdir. Bu şərtlər ölkəmiz baxımından da faydalı və önəmli olması səbəbi ilə böyük əhəmiyyə kəsb edir.

Aİ-ə daxil olmaq üçün namizədin müraciəti ilə yanaşı, AP-nin və Şuranın qərarı lazımdır. AP ilə Avropa Şurası qərar verərkən bəzi şərtlər əsas götürülür. Bu şərtlər Amsterdam Müqaviləsi ilə aydınlaşdırılmışdır. Ən başda namizədin azadlıqsevər və demokratik bir dövlət şəklinə malik olması nəzərə alınır, namizəd dövlətdə insan hüquqlarına, əsas azadlıqlara və hüquqi dövlət prinsiplərinə riayət edilməsi tələb edilir. Nəticə olaraq, üzv olacaq ölkələr siyasi meyarlara əsasən seçilir, amma qeydiyyata alınma inzibati proses kimi baş verir.(Morgil O.,2006: S.102)

Beşinci genişlənmə prosesindən sonra Avropa İttifaqı, birliyə üzvlük üçün üç əsas meyar müəyyən etmişdir:

1.Siyasi meyarlar-Namizəd ölkə aşağıdakı sahələrdə Avropa Birliyi standartlarına yaxın olmalıdır:

a.Sabit və institusionallaşmış demokratiyanın mövcudluğu,

b.Hüquqi dövlət və qanunun aliliyi,

c.İnsan haqlarına hörmət.

d. Azlıqların qorunması.

Aİ-in tamhüquqlu üzv olacaq namizədlərdə önəm verdiyi məsələlərdən biri azlıq haqlarıdır. Azlıq haqlarına önəm verilməsinin səbəbi, azlıqlarla bağlı problemlərin nəticəsində demokratik sabitliyin təhlükəyə girəcəyi narahatlığıdır.

Azlıqlara lazım  hüquqların verilməməsi, tam üzv olacaq ölkələrin qonşuları ilə olan əlaqələrinin pozulmasına da yol aça bilər. (Morgil O.,2006: S.102)

Ümumiyyətlə  ölkəmizin çox partiyalı bir sistemlə idarə olunması, edam cəzasının olmaması, azlıqlara bağlı hər hansı irqi ayrı-seçkiliyin olmaması, diskriminasiya hallarının olmaması, qadınlara qarşı hər cür ayrı-seçkiliyin qadağan edilmiş olması, Avropa Şurasının İnsan Hüquqları haqqında Konvensiyanın bütün maddələrinin , eyni zamanda Avropa Şurası Uşaq Hüquqları Konvensiyasını qəbul etmiş olması tam üzvlük üçün əsas diqqətəlayiq bir məqamdır. Ancaq bu prinsiplərin tək başına olması kifayət deyil, lakin onlar da fasiləsiz həyata keçirilməlidir. Namizəd ölkələrin yalnız demokratiya və qanunun aliliyi anlayışlarını ifadə etməklə yetinmələri kifayət deyil, bunları gündəlik həyatlarında da tədbiq etmələri əhəmiyyət daşımaqdadır. Qısa olaraq, üç əsas siyasi meyar tam üzvlük üçün vacibdir:

A.Demokratiya və qanunun aliliyi- Demokratiya və qanunun aliliyi   siyasi plüralizm, söz  azadlığı və din azadlığı; müxtəlif dövlət qurumlarının normal funksiyalarını yerinə yetirə bilməsi üçün imkan təmin edən demokratik təşkilatlar, müstəqil məhkəmə və konstitusiya qurumlarının olması; müxtəlif siyasi partiyaların iqtidara gəlmələrini təmin edən və ümumiyyətlə müxalifətin rolunu tanıyan azad və dürüst seçkilərin reallaşdırılması və s. məsələlər nəzərə alınır və qiymətləndirilir. (Morgil O.,2006: S.102)

Azərbaycan Respublikasının “Dini etiqad azadlığı haqqında” Qanununda “Vətəndaşların dinə münasibətindən asılı olmayaraq hüquq bərabərliyi”, ”Dövlət və dini qurumlar arasında münasibətlərin müəyyən edilməsi”, “Dini etiqad Azadlığı ilə əlaqədar vətəndaşların və dini qurumların hüquqları” kimi məsələlərin maddələr üzrə qruplaşdırılaraq aydın şəkildə izah edilmişdir. Müsəlman Şərqdə ilk Demokratik Cümhuriyyət kimi əsası qoyulan dövlətimiz üçün bu hal özəlliklə Aİ-ə nümunə təşkil edəcək bir amildir. Son dövrlər özəlliklə Orta Şərqdə baş verən daxili  və xarici müharibələr nəticəsində Avropaya köç edən müsəlmanların üstünlük təşkil etməsinə səbəb olmuşdur. Bunun nəticəsində Aİ ölkələrində sosial problemlərin çoxalması,

işsizliyin artması, üzv ölkələri daxilində İslam dininə qarşı milliyətçi və radikal dini hərəkatların başlamasında təkan vermişdir. Müqayisədə görmək mümkündür ki, AB öz müəyyənlişdirdiyi “dini azadlıq “ meyarında müxtəlif dinə mənsub olan şəxslərin hüquqi bərabərliyindən danışsa da, ancaq tədbiqə gəlincə həm Avropa insanı, həm də AB bu məsələdə obyektiv mövqe sərgiləməkdən boyun qaçırır. Bu baxımdan Azərbaycan hökümətinin bu sahədə müəyyən qanun layihələri, o cümlədən bu qanunların icrası və Azərbaycan xalqının dini seçim məsələsində demokratik baxışı Aİ-nin öndə gələn inkişaf etmiş ölkələri üçün örnəkdir.

B.İnsan hüquqları- AB-ə üzvlük üçün Avropa Şurasının İnsan Hüquqları və Əsas Azadlıqların müdafiəsi Haqqındakı Konvensiyanın iştirakçısı olunması və Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinə fərdi şikayətin qəbul edilməsi əhəmiyyət daşımaqdadır. Bununla bağlı olaraq 25 dekabr 2001-ci ilə Konvensiyanın şərtlərini təsdiqi haqqında AR Milli Məclisi tərəfindən Qanun layihəsi qəbul olunmuşdur.

C.Azlıqlara hörmət- Bu mövzuda təməl istinad nöqtəsi olaraq Avropa Şurasının Milli Azlıqların Qorunması Haqqında Çərçivə Konvensiyası ilə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən 1201 saylı tövsiyəsi əsas alınmaqdadır. Ölkəmiz İyun 2000-ci ildə bu Çərçivə Konvensiyasına qoşulmuşdur. Bu Konvensiyanın 25-ci maddəsinə əsasən Azərbaycan 2002-ci il iyun ayının 4-də milli azlıqlardan olan vətəndaşların haqq və hüquqlarının qorunmasına dair durum barədə milli hesabatlarını təqdim etmişdir. Milli azlıqların qorunması barəsində Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin sözügedən hesabatın baxılması üçün xüsusi işçi qrupu yaradılmışdır. Bu qrup Dövlət hesabatını yoxlamaq məqsədilə 2003-cü il martın 29-dan aprelin 4-ə qədər Azərbaycana səfər etmişdir. Həyata keçirilən tədbirlər Azərbaycandakı milli azlıqlara yönəlmiş bərbarəlik siyasəti və prinsiplərinin beynəlxalq standartlara necə cavab verməsinin faktiki göstəricisi sayılır. Azərbaycandakı milli azlıqların ölkəmizin bir neçə dövlət təşkilatlarında, idarəçilikdə geniş şəkildə iştirak etməsi , həmin azlıqların sıx yaşadığı bölgələrdə yerli icra hakimiyyəti orqanlarında yüksək vəzifələri tuta

bilməsi, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında, Milli Məclisdə, Nazirlər Kabineti, Konstitusiya məhkəməsi, Mərkəzi seçki komissiyası, hüquq-mühafizə orqanları kimi dövlət qurumlarında işləməsi bu məsələdə ölkəmizin tutduğu tolerant mövqeyin ən əsas nümunəsidir.

2.İqtisadi meyarlar- Kopenhagen sammitinin nəticələrinə görə, iqtisadiyyat sahəsində ilk dəfə olaraq, tam üzvlük üçün funksional bazar iqtisadiyyatı tələb olunur(Morgil O.,2006: S.102):

1.Təchizat-tələb balansı bazar qüvvələrinin qarşılıqlı təsirləri;

2.Qiymətlərin açılmasına, bazarlara girişə (yeni şirkətlərin açılmasına) və çıxış üçün (bankruptcies-iflaslar) maneə olmaması;

3.Mülkiyyət hüququ (intellektual və sənaye mülkiyyəti) və bu qanun ,qaydaların həyata keçirilməsi qaydalarını əhatə edən hüquqi sistemin mövcudluğu;

4.Davamlı iqtisadi sabitliyin mövcudluğu və davamlı xarici balansın olması;

5.İqtisadi siyasətin əsas prinsipləri üzrə geniş konsensus;

6.Maliyyə sektorunun investisiya qənaətə yönəldilməsi üçün kifayət qədər yaxşı inkişaf etməsi lazımdır.

Tam üzvlük üçün ikinci dərəcəli iqtisadi kriteriyalardan danışarkən eyni zamanda namizəd ölkənin Avropa Birliyi daxilində rəqabət qabiliyyətinə malik olmasıdır. Bunun üçün:

1.Stabil və proqnozlaşdırılan mühitdə qərarlar qəbul etmək baxımından iqtisadi aktyorların kifayət dərəcədə makroiqtisadi sabitliyə malik fəaliyyət göstərən bir bazar iqtisadiyyatının mövcudluğu;

2.İnfrastruktur (enerji, telekommunikasiya, nəqliyyat, və s.) sahəsində təhsil və tədqiqat sahələrində kifayət qədər insan və maddi sərmayənin qoyulması;

3.Şirkətlərin texnologiyaya uyğunlaşma qabiliyyəti;

4.Hökumət siyasəti və qanunvericilik, ticarət siyasəti, rəqabət siyasəti, dövlət yardımı, kiçik və orta sahibkarlığa dəstək və s. məsələlərdə rəqabət qabiliyyətinin dərəcəsi;

5.Bu baxımdan ittifaqa daxil olmadan öndə və ölkənin iqtisadiyyatında kiçik müəssisələrin çox sayda rəqabətə malik olmasından əvvəl hər iki tərəf arasında müəyyən bir ticarət tərəfdaşlığının olması vacibdir.

6. Genişlənmədən əvvəl İttifaqla ticarət inteqrasiyasının dərəcəsi və tempi, üzv ölkələrlə ticarət edilən malların həcmi və keyfiyyəti əsas məsələdir.

Avropa İttifaqının rəqabət siyasətinin əsas məqsədi iqtisadi inteqrasiya prosesinin daha sağlam olması üçün üzv ölkələrə məxsus ticarət şirkətlərinin bərabər rəqabətə gələ biləcəyi ümumi daxili bazar yaratmaqdır (H.Hüseynova 1998:,s.280) . Rəqabət qaydaları çərçivəsində malların sərbəst hərəkətini təmin etmək məqsədilə Gömrük İttifaqı tətbiq olundu. Əgər bir az da olsa bir üzv ölkənin ticarət fəaliyyətinə görə başqa bir üzv ölkədə rəqabət məhdudlaşırsa, Avropa Komissiyası üzv dövləti bu şirkətin fəaliyyətinə qarşı sanksiyalar tətbiq etməyi xəbərdar etmə səlahiyyətinə malikdir. Eyni şəkildə, bir üzv dövlət AB-dən ticarəti təsir edən bir məsələyə sanksiya tətbiq etməsini xahiş edə bilər.

Bir iqtisadiyyatda rəqabət qabiliyyətini yüksəltmək üçün dövlətin kiçik , orta sahibkarlığa və iqtisadiyyata olan təsiri geniş şəkildə məhdudlaşdırılmalıdır. Bu səbəblə, özəlləşdirmə dövlətin iqtisadiyyata təsirinin azaldılması üçün ən əhəmiyyətli addımdır. Azərbaycanda isə Ulu öndər Heydər Əliyev hakimiyyəti dövründə milli iqtisadiyyatımız xüsusi mülkiyyət,azad sahibkarlıq, sağlam rəqabət prinsipləri üzərində qərarlaşdırmaq və xüsusilə də özəlləşdirmə üçün qanunvericilik sahəsində fundamentlər yaradılmışdır. Bunların əsas məqsədi iqtisadiyyatın idarə edilməsində inzibati-amirlik metodundan özü özünü tənzimləyən sərbəst bazar metoduna keçidi təmin etmək idi. Lakin Azad bazar iqtisadiyyatına keçiddə son illər müəyyən çətinliklər ortaya çıxdığına görə bu prosesdə bəzi ləngimələr yarandı.

Özəlliklə də 2014-cu ildən sonra milli valyutanın dəyərdən düşməsi ölkədəki sahibkarlığa və bank sektoruna çox mənfi təsir göstərmişdir. Bu səbəbdən Azərbaycanda qərarlaşmış vəziyyət yeni iqtisadi strategiyanın , proteksiyonist siyasətin seçilməsini zəruri edirdi. Bu da Azərbaycanda daxili rəqabətin yüksəldilməsi

üçün idxal olunan mallara tarif və qeyri tariflərin tədbiq edilməsi ilə müəyyən qədər müsbət nəticələr göstərdi. Belə bir şəraitdə dövlət bəzi müflis olmuş müəssisələri də öz nəzarəti altına almağa, kənd təsərrüfatı sahəsində, enerji və telekommunikasiya kimi mühüm sektorlarda isə subsidialar ayırmağa başladı. Təbii ki bu prosess iqtisadiyyat üzərində dövlətin müsbət müdaxiləsinin artdığını göstərirdi. Avropa Birliyi Komissiyasına görə dövlət subvensiyalarının və yardımlarınm artırılması Avropa Birliyi rəqabət siyasətinə uyğunlaşma cəhətdən və geriləmə sayılır.

3.Cəmiyyətin nail olduğu uyğunluq- Yuxarıda göstərilən iki şərtə əlavə olaraq tam üzvlük üçün üçüncü şərt tələb olunur. Bu şərt, namizəd ölkənin "siyasi birlik ilə iqtisadi və pul birlik hədəflərini qəbul etmiş olması" və ayrıca "AB-in qəbul etdiyi və edəcəyi qərarlara uyğunlaşması" dır. Kopenhagen meyarının üçüncü hissəsini təşkil edən İqtisadi uyğunluğun ən mühüm hissəsi namizəd ölkəsinin iqtisadi və pul birliyi məqsədlərini qəbul etməsini tələb edir. Bu bölmədə İqtisadi və Monetar İttifaqı və Maastrixt meyarlarını izah etmək faydalıdır. (Morgil O.,2006: S.102)

Namizəd ölkələr birliyin yeganə xarici siyasət və təhlükəsizlik siyasətində effektiv iştirak üçün hazır olmalıdırlar. İqtisadi və Pul Birlik mövzusunda isə, Mərkəzi Bankının müstəqilliyi, iqtisadi siyasətlərin koordinasiyası, Sabitlik və Böyümə Paktında iştirak, Mərkəzi Bankın Dövlət Sektorunun kəsirlərini maliyyələşdirilməsinin qadağan edilməsi kimi mövzularda üzv ölkələrin aldıqları qərarlara qatılmaq lazımdır. Bu çərçivədə 9-10 dekabr 1991-ci il tarixində imzalanmış və 1 yanvar 1993-ci il tarixində qüvvəyə girmiş olan Maastrixt müqaviləsində İqtisadi və Pul Birliyin mərhələləri, bu müddətdə izləniləcək iqtisadi və pul siyasətlər ilə bunların tələb təşkilati dəyişikliklər detallı olaraq göstərilmişdir. Bu tənzimləmə çərçivəsində İqtisadi və Pul Birliyin son mərhələsinə keçid əvvəlində, üzv ölkə iqtisadiyyatları arasındakı fərqliliklərin aradan qaldırılmasını təmin etmək üçün tətbiq olunacaq sanksiyalar təyin olunmuşdur. Maastrixt Müqaviləsində göstərilən meyarlar aşağıdakılardır:

1.İttifaqda ən aşağı infilyasiyaya sahib olan üç ölkənin illik inflyasiya dərəcələrinin ədədi ortası ilə, digər üzv olan ölkənin inflyasiya dərəcəsi arasındakı fərq 1,5 balı

keçməməlidir. Azərbaycan Dövlət Statistika Komitəsinin hesabatına nəzər salsaq 2018-ci il ərzində ölkədəki infilyasiya dərəcəsi 1.90 faiz olmuşdur. Avropa Statistika Komitəsi Eurostatın verdiyi hesabata əsasən Avropada inkişaf etmiş ən yaxşı 3 ölkənin orta infilyasiya dərəcəsi 2018-ci ildə 1.60 faiz olmuşdur.

2.Üzv ölkənin dövlət borcunun ÜDM-ə nisbəti 60 %-i keçməməlidir –2018-ci ildə Azərbaycanın dövlət borcunun ÜDM-ə olan nisbəti 48.40 % təşkil etmişdir. Ümumilikdə 1995-ci ildən 2018-ci ilədək bu orta faiz göstəricisi 21.06 faiz olmuşdur. Bu illər ərzində ən yüksək hədd 2017-ci ildə 54.10 %, ən aşağı dərəcə isə 2008-ci ildə 7.30% qeydə alınmışdır.

3.Üzv dövlətin büdcə kəsirinin ÜDM-yə nisbəti 3%-dən çox olmamalıdır- 2018-ci ildə Azərbaycanda Dövlət Büdcəsi Kəsrinin ÜDM-ə nisbəti 0.40 % qeydə alınmışdır. 2005-2018-ci illərdə Dövlət Büdcə kəsrinin ədədi ortası 0.04 % təşkil etmişdir. Bu müddət ərzində ən yüksək hədd 2017-ci ildə 1.60 % , ən aşağı hədd isə 2010-cu ildə 0.90 % təşkil etmişdir.

4.Hər hansı bir üzv ölkədə tətbiq olunan uzunmüddətli faiz dərəcələri 1 illik dövr etibarilə, qiymət sabitliyi sahəsində ən yaxşı gösətriciyə malik 3 ölkənin nisbətini 2 %–dən çox aşmamalıdır.

5.Son 2 il etibarilə üzv dövlətin milli valyutası digər bir üzv ölkə Avropa valyutaları qarşısında kifayət qədər sabit olmalıdır. Üzv dövlətlərin valyutası devalvasiyalara məruz qalmadan Avropa Valyuta Sisteminin valyuta məzənnələri mexanizmində nəzərdə tutulan normal dalğalanma marjlarına uyğun gəlməlidir. (Morgil O.,2006: S.102)

İqtisadi və siyasi meyarlarla bərabər digər mühüm bir meyar da coğrafi göstərici yəni üzvlük müraciəti edən ölkənin Avropa qitəsi içində əraziyə sahib olmasıdır. Birliyin üçüncü genişlənməsindən sonra 8 iyul 1987-ci il tarixində Mərakeş, Avropa İcmalarına iştirak etmək üçün müraciət etmişdir. Adıçəkilən ölkənin müraciəti, Roma Müqaviləsində nəzərdə tutulan əsas şərtə uyğun olmamasına (Avropa qitəsində torpağa sahib olmadığına) görə, 1 oktyabr 1987 tarixində Şura tərəfindən rədd edilmişdir.

Bundan başqa, Avropa Birliyinə 2004-ci ildə tam üzv olmuş ölkələrdən Malta və Kipr Respublikası reallığını nəzərə alsaq görə bilərik ki, böyük hissəsi Asiya qitəsində yerləşən və Orta Şərq ölkələrinə yaxın Türkiyənin Avropa birliyinə tam üzvlüyünə namizədliyi, bəzi AB dairələrində, üzv olan və olmayan ölkələrdə müzakirə edilir. Halbuki Malta və Kipr həqiqətinə diqqət etsək, Maltanın Avropadan çox Afrika qitəsinə, xüsusən də Şimali Afrika ölkələrinə coğrafi yaxınlığı diqqət çəkir.Ölkəmizin coğrafi mövqeyinə gəlincə isə, Azərbaycan Avropa ilə Asiya arasında yerləşən transkontinental bölgədə yerləşir. Ölkənin şimal-şərq bölgələri-Quba,Qusar, Xaçmaz rayonları Avropa qitəsində olduğuna görə gələcək dövr üçün coğrafi uyğunluq məsələsində Azərbaycanın yerləşdiyi mövqe bu mənada müsbət bir amil ola bilər.

Azərbaycan iqtisadiyyatının Kopenhagen iqtisadi meyarlarına, siyasi meyarlarına tam uyğunluğunu təmin etmək üçün iqtisadi sabitlik siyasətinə əhəmiyyət verilməli və bəzi struktur tənzimləmələri həyata keçirilməlidir. Digər tərəfdən, rəqabətin dinamik bir proses olduğunu nəzərə alaraq, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artıracaq tədbirləri və strategiyaları davamlı yürütmək çox vacibdir. Ancaq, nəticə olaraq namizəd ölkə Azərbaycanın tam üzvlüyünün gerçəkləçməsində iqtisadi cəhətdən bir sıra problemlərin olduğunu söyləyə bilərik. Bu səbəbdən Azərbaycan namizəd ölkə kimi gələcəkdə ön hazırlıq olaraq özəlliklə qanunvericilik, ədliyyə sahələrində ciddi islahatlar keçirməli, Kopenhagen kriteriyalarının üçüncü əsas şərti olan uyğunluq meyarlarını qarşılamalıdır.

### III.2. Azərbaycanın Aİ-ə daxil olma perspektivləri

Azərbaycanın AB-də üzvlüyünün iqtisadi təsiri, həm ölkə iqtisadiyyatının böyüklüyü həm də iştirakdan əvvəl onsuz da var olan iqtisadi inteqrasiyanın dərəcəsinə bağlı olaraq, müsbət lakin nisbətən kiçik ola bilər. Əgər AB-ə üzvlük haqqında müzakirələr başlasa Azərbaycanın makro-iqtisadi sabitlik və investisiya təşviq, iqtisadi azadlıq, dövlət xərcləri, ədliyyə sahəsində təkmilləşməni təmin etmək səylərinə kömək etməlidir. Əks halda aşağı-orta gəlirli ölkə olaraq Azərbaycanın üzvlüyü Aİ daxilində

regional və iqtisadi fərqləri artıracaq və uyğunlaşma siyasəti üçün böyük bir çətinlik yaradacaqdır. Bu baxımdan ölkəmizin bir neçə meyar cəhətdən bu üzvlüyə hazır olub-olmamasını dəyərləndirmək üçün təhlillər aparılmalıdır.

Heritic Fondunun (The Heritage Foundation) 2019-cu ildə verdiyi hesabata əsasən bu il üzrə Azərbaycan İqtisadi Sərbəstlik üzrə 65.4 balla Dünya üzrə 60-cı yerdə qərarlaşmışdır. Bu göstəricidə 2018-ci ilə nəzər saldıqda 1.1 bal irəliləyiş müşahidə olunmuşdur. Özəlliklə insan haqları, məhkəmə sahəsində effektivliyin dramatik şəkildə yüksəlişi və əmək haqlarında artım, dövlətin bütövlüyündə yüksəliş ,maliyyə sağlamlığını azalma ilə nəticələnən göstəricilərə gətirib çıxarmışdır.

**Qrafik 1. İllər üzrə iqtisadi sərbəstlik dərəcəsi**




**Mənbə:** Heritic Fondu **[www.heritage.org/index/country/azerbaijan](www.heritage.org/index/country/azerbaijan)**

Qrafik 1-ə nəzərə salındıqda Azərbaycanda iqtisadi azadlıq dərəcəsinin artdığını görə bilərik. Ölkəmiz Asiya-Sakit Okean bölgəsində iqtisadi azadlıq göstəricisinə görə 43 ölkə arasında 13-cü sırada yer alır və ümumilikdəki göstərici regional və dünya ortalamalarından üstündür. Azərbaycan hökumətinin hədəfləri DTT-ə qoşulmaq, qoyulan investisiyaların davamlığın təmin etdirilməsi və karbohidrogen ehtiyatlardan iqtisadi cəhətdən asılılığını diversifikasiya etməklə Azərbaycanın ticarət və tranzit mərkəzinə çevrilməsidir. Yaxşı təhsilli işçi qüvvəsini kapitallaşdırmaq və istehsal bazasını genişləndirmək üçün tənzimləyici səmərəliliyin və yenidən qurulmanın bazar

əsaslı inkişafı davam etdirilir. Bu təkmilləşmələr gələcəkdə ölkəmizin iqtisadi cəhətdən sərbəstliyinə zəmin yaradacaqdır.

**Qrafik 2. Qanunvericiliyin təsir gücü**




**Mənbə**: Heritic Fondu. **www.heritage.org/index/country/azerbaijan**

Ötən il qanunun aliliyinin yaxşılaşdırılması üçün ölçülə bilən irəliləyiş mövcuddur. Bundan əlavə məhkəmə effektiv işləyişində 16,3% , mülkiyyətin qorunması hüququnun effektivliyinda 5,5% faiz artım müşahidə olunur*(Qrafik 2).*

**Qrafik 3. Dövlətin maliyyə siyasəti**




**Mənbə**: Heritic Fondu. **www.heritage.org/index/country/azerbaijan**

Ölkədəki vergiləndirmənin dərəcələrinə nəzər salsaq mənfəət vergisi dərəcəsi 25 %, ən yaxşı halda 20 % təşkil edir. Digər vergilər əlavə dəyər və əmlak vergilərini əhatə edir. Ümumi vergi yükü daxili gəlirlərin 14,9 faizini təşkil edir. Son üç ildə hökumət xərcləri ölkə ÜDM-in 36,7 faizini təşkil edərək və büdcə kəsirləri isə

ÜDM-in 1,7 faizini təşkil etmişdir. Dövlət borcu ÜDM-in 54,7 faizə bərabərdir (*Qrafik 3*).

**Qrafik 4. Tənzimləyici qurumların effektivliyi**




**Mənbə**: Heritic Fondu. **www.heritage.org/index/country/azerbaijan**

Cari ildə biznes fəaliyyətinin, əməyin sərbəstliyi ,eləcə də pul hərəkətinin sərbəstliyi məsələsində müəyyən geriləmələr mövcuddur(*Qrafik 4*). Ölkədə yeni biznesə başlamaq prosesinin effektivliyində irəliləyiş olsa da, digər vaxt tələb edən təchizatlar tənzimləyici səmərəni azaldır. Əmək qaydaları bir qədər yumşaq və çevikdir, amma əmək qanunvericiliyinin tətbiqi qeyri-bərabərdir.

**Qrafik 5. Açıq bazarlar haqqında vəziyyət**




**Mənbə**:Heritic Fondu. **www.heritage.org/index/country/azerbaijan**

Qrafik 5-dən göründüyü kimi ticarətin və maliyyə sərbəstliyində durğunluq müşahidə olunsa da, sərmayənin azad hərəkətində qismən də olsa artım müşahidə olunur. Azərbaycandakı ixracın və idxalın ümumi dəyəri ÜDM-in 90,7 faizə bərabərdir. Tədbiq olunan orta tarif dərəcəsi 5,2 faizdir. Qeyri gömrük maneələrinin

olması ticarətə əngəl yaradır. Tənzimləyici tariflər də Azərbaycana xarici və daxili investisiyalarına müəyyən qədər təsir göstərir(Qrafik 5).

Bu səbəbdən də maliyyə sektorunda valyuta davamlığı bir çox bir sıra nəticələr ortaya çıxarır. Bankçılıq sektoru böyük bir dövlət bankı-Milli Bank tərəfindən idarə olunur və kiçik özəl banklara bölünür.

2014-cü ildən etibarən qlobal neft qiymətlərinin azalmasından əvvəl Azərbaycanın yüksək iqtisadi artımı enerji ixracının artması ilə əlaqədardır və bəzi qeyri-ixrac sektoru da cüt rəqəmli artım nümayiş etdirdi. Neft qiymətlərinin ucuzlaşması 2016-cı ildə ÜDM-də 3,1 faiz, büdcədə 2017-ci ildə isə 1 faiz azalma ilə nəticələnmişdir. Bu da tikinti sektorunda kəskin azalmasına səbəb oldu. 2015-ci ildən etibarən iqtisadi böhran yüksək kəskin valyuta devalvasiyasından sonra daha yüksək inflyasiya və zəifləmiş bank sektoru ilə müşayiət olunub. Uzunmüddətli perspektivlər dünya neft qiymətlərindən asılıdır, Azərbaycanın artan qaz hasilatı üçün ixrac marşrutlarının həyata keçirilməsi , iş mühitinin yaxşılaşdırılması və iqtisadiyyatın şaxələndirilməsi qabiliyyətinə malikdir. 2016-cı ilin sonunda prezident, kənd təsərrüfatı, logistika və turizm kimi inkişaf üçün iqtisadiyyatın əsas qeyri-enerji seqmentlərini müəyyən edən strateji bir yol xəritəsi təsdiqlədi.

Azərbaycan iqtisadi böhranla mübarizədə bir sıra iqtisadi islahatlar keçirmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə maliyyə strukturunda bir sıra dəyişikliklər etmək üzrə məsləhətçi təyin etd. Bu planları həyata keçirmək üçün iki qurum yaradılmışdır:

1.Təşəbbüskarlara dəstək vermək üçün Apellyasiya şurası

2.Maliyyə bazarları üzrə nəzarəti Palatası. (Karrion,2016: s.32)

Cənab Prezidentin dörd əsas ideyasını əhatə edən dörd kontur əsasında maliyyə sabitliyi yaratmaq üçün aşağıdakı proqram yaradılmışdır:

1.Maliyyə bazarlarının sabitliyi, Manatın likvidliyinin bərpası, həmçinin maliyyə intizamının gücləndirilməsi.

2.İxracın təşviqi.

3.Daxili bazarın formalaşması və idxaldan asılılığın dayandırılması.

4.Sahibkarları, xüsusilə də kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq və məsləhət şuralarının yaradılması.

5.İqtisadi islahatlar keçid ölkələrinə əsaslanan ən konseptual yanaşmalar kimi əsas təməllər üzərində qurulmuşdur:

1. Hökumət orqanlarının və vəzifəli şəxslərin cəmiyyətə şəffaflığı və hesabatlılığı, istənilən resurslara asan çıxış.
2. İqtisadiyyatın demonopolizasiyası - malların, xidmətlərin, kapitalın azad rəqabət və idxalı, rəqabətin bərabər şərtləri.
3. Qara bazarın ləğvi və kapital və vergilərin qanuni dövriyyəsi.
4. Məhkəmə sisteminin müstəqilliyi - sahibkarların hüquq və maraqlarının qorunması.
5. Malların və xidmətlərin istehsalına, ixracına və idxalına görə vergilərin yaradılması.

2016-cı il martın ayından etibarən Mərkəzi Bankın mövqeyini dəyişməyə başladı. Mərkəzi Bankı bank sisteminin sabitliyini və pul siyasətinin formalaşdırılmasını dəstəkləmək üçün banklararası mərkəzləşdirilmiş və digər lisenziyalı ödəmə sistemlərinin fəaliyyətini tənzimləmək imkanı yaradacaqdı. Bundan başqa, Azərbaycan Bankı müəssisələri kreditləşdirmək üçün lisenziya ala bilməzdi. Məsələn, İqtisadi və Maliyyə Komitəsi AB ilə daha şəffaflıq təmin edə bilər. Maliyyə məsələləri ilə bağlı Aİ ilə məlumatların açıqlığının başlanması pul vəsaitlərinin yuyulması, kapitaldan yayınma, kiber cinayətkarlıq, bazar istismarı və təhlükəsizlik məlumatlarının pozulması kimi beynəlxalq maliyyə cinayətlərinin qarşısını ala bilər. Nəticədə Avropa Birliyi ölkələri ilə ənənəvi ticarət və elektron ticarətini gücləndirə bilər. (Karrion,2016: s.32)

Azərbaycanın regional ticarəti inteqrasiyası üçün böyük imkanlara malikdir. Rusiya kimi tarixi tərəfdaşları ilə ticarət həcmini stabil saxlamaqla, Avropa Birliyi ticarət tərəfdaşlğını artırmalıdır. Kənd təsərrüfatı, Azərbaycandakı iqtisadi və ictimai

sektorların ən əhəmiyyətlilərindən biridir və xüsusi nəzarətə ehtiyac yoxdur. Bu nəzərə alınmaqla, nar, fındıq, meyvə və tərəvəz kimi yüksək dəyərli ixrac məhsullarında Azərbaycan yeni bazar əlaqələri yaradaraq, rəqabət qabiliyyətini artırmaq və onun müqayisəli üstünlüyündən faydalanmağa çalışmalıdır. Bu kontekstdə ölkəmiz istehsal etdiyi malların miqdarını və keyfiyyətini artırmaq və dəstəkləməlidir. Ortaq əkinçilik siyasətinə uğurlu olaraq qatılmaq üçün mümkün qədər uyğun şərtlər yaradılmalıdır. Bəzi kənd təsərrüfatı sektorlarını daha rəqabətcil etmək üçün zamana ehtiyacı ola biləcək. Fermerlərin əhəmiyyətli bir gəlir itkisinə məruz qalmasının qarşısını almaq üçün müəyyən müddət tələb olunur. Ölkəmizdə inklüziv iqtisadi artımın təşviq edilməsi üçün kənd təsərrüfatı müəssisələrinin, istehsalçı təşkilatların və digər potensialını artırılması üçün Azərbaycanın bir sıra bölgələrində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və innovasiyaların kənd təsərrüfatı müəssisələrinə köçürülməsi ilə daha çox məhsuldarlıq və gəlir təmin edə bilər. Bu proqramlar rəqabətə və inklüziv iqtisadiyyata kömək edir.

Ümumilikdə Azərbaycan Gürcüstan, Moldova və Ukraynadan fərqli olaraq Avropa Birliyi ilə assosiativ saziş imzalamağa hələlik hazır deyil. Amma Avropa Azərbaycan üçün önəmli bazar sayılır və ticarət dövriyyəsinin 42 %-dən çoxu Avropa İttifaqının payına düşür, və ölkəmizin enerji sərvətləri Qərbə doğru yönəlib. Bundan əlavə Şimal qonşunun artan təzyiqləri nəticəsində Bakı Brüsselin dəstəyinə çox ehtiyacı var. Ölkəmizin Dünya Ticarət Təşkilatına üzv olmaması Avropa Birliyi ilə əməkdaşlığı möhkəmləndirməyə maneə törədir. Lakin əgər Gürcüstan, Ukrayna və Moldova assosiativ saziş çərçivəsində Avropa İttifaqı ilə işbirliyində böyük müvəffəqiyyət qazanarsa, bu amil ölkəmiz üçün Brüsselllə əməkdaşlığı təkmilləşdirməkdə çox böyük stimul olacaqdır.

Azərbaycanın Aİ ilə inteqrasiya tempinin sürətləndirilməsi üçün DTT-ə üzvlük məsələsinə toxunmaq lazımdır. Əgər ölkəmiz DTT-ə daxil olsaydı və bu kənd təsərrüfatı və sənaye strukturunda, eləcə də hökumət və ticarət təçkilatlarında tam islahatların həyata keçirilməsinə imkanlar yaradardı. Nəticədə kənd təsərrüfatı və

sənaye məhsullarını Aİ bazarına ixrac etməklə Azərbaycan öz iqtisadiyyatının diversifikasiyalaşdırılmasına nail ola bilər. İxrac olunan məhsulların beynəlxalq standartlara uyğunlaşması əsasən kənd təsərrüfatı mallarına əsaslanan Azərbaycan regionlarının iqtisadi inkişafını nəzərdə tutur. Əvvəl qeyd edildiyi kimi, Azərbaycanın AB bazarına daxil olması dövlətdən , Avropa İttifaqından və digər özəl qurumlardan böyük bir investisiya deməkdir. Bu baxımdan Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran rayonları iqtisadiyyatlarını daha da inkişaf etdirə biləcək potensialda olan bölgələr sayılır. (Karrion,2016: s.32)

Azərbaycanın Aİ ilə ticarətə mane olan texniki maneələrdir. Bunlara texniki qaydalar, məhsul standartları, coğrafi göstəricilər və sertifikatlaşdırma prosedurları aiddir. Xüsusilə nəzərə alsaq ki, istehlakçıların müdafiəsi AB ölkələrində dünyada ən yüksək səviyyədədir, sadalanan maneələr qabaqcadan təyin edilmiş sanitar və fitosanitar tədbirləri ilə uyğun gələn kənd təsərrüfatı məhsullarına şamil olunur.

Üzvlük məsələsinin perspektivlərindən danışarkən Dağlıq Qarabağ münaqişəsinə toxunmaq ən vacib məsələlərdən biridir. Bu münaqişə Azərbaycanın Avropa İttifaqı ilə sıx əlaqələri qurmaq üçün böyük maneədir. Ölkənin 20% -nin işğalı və müharibə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafına təsir göstərir. Aİ hal-hazırda bu məsələnin sülh yolla həll olunmasının rəsmi tərəfdarı olsa da, hərb yolla həllinin tərəfdarı deyil. Xatırladaq ki, Avropa İttifaqının işğal olunmuş torpaqlardan didərgin düşən insanlarımızın hüquqlarına münasibətini nəzərdən keçirək, bu mövzuda insan hüquqlarının pozulmasına necə səssiz qaldığını görə bilərik. AB ölkələrinin işğalçı Ermənistana niyə sanksiya tətbiq etmədiyi də sual yaradır. Buna görə də Aİ-in beynəlxalq hüquq məsələsində ikili standartlarla siyasət aparmağı bu quruma olan inamsızlığı artırır. Avropa İttifaqı Dağlıq Qarabağ məsələsində neytral mövqe göstərməyə çalışır və bunu Ermənistanın" Şərq Tərəfdaşlığı "proqramının üzvü olması ilə izah edir. Əslində belə bir yanaşma BMT Təhlükəsizlik Şurasının qətnamələrinə ziddir. Bundan əlavə, Avropa Parlamenti də Dağlıq Qarabağ məsələsi ilə bağlı bir sıra qətnamələr qəbul edib. Bu birbaşa torpaq işğalı ilə bağlıdır, amma Avropa Parlamenti

tərəfindən qəbul edilən sənədlər Avropa Komissiyası tərəfindən nəzərə alınmır. Nəticədə, Ermənistan Rusiyanın təzyiqi altında Avropa İttifaqı ilə assosiasiya sazişi imzalamaqdan imtina etdi. Hər iki ölkə assosasiya sazişinə qoşulma fürsətindən məhrum edilir. "(Bukley , Vəliyev ,Sayfutdinova .,2018:S.228)

Digər bir tərəfdən də bu məsələdə Rusiyanın açar rol oynaması Avropanın daha ehtiyyatlı davranmasını təşfiq edir. Son illər Rusiyanın öz qoşunlarını Baltikyanı ölkələrin sərhədlərinə toplaması, birbaşa Aİ-ə təhdid yaratması , bu iki tərəf arasında çox böyük fəlakətlərə səbəb olacaq müharibə ehtimalını artırır. Bu baxımdan AB-ın Azərbaycanla Ermənistan arasında olan münaqişədə xristiyanyönümlü mövqeyi bu qurumun heç də münaqişənin ədalətli yolla həll olunmasında maraqlı olmadığını sübut edir. (Karrion,2016: s.32)

Bütün bunlara baxmayaraq keçmiş sosialist Qafqaz ölkəsi olan Gürcüstan vətəndaşları üçün 2017-ci ildə viza rejimin aradan qaldırılması heç də ölkəmiz üçün vəziyyətin ümidsiz olmadığını göstərdi. 2014-cü ildən etibarən aparılan danışıqlardan bəri baş tutan görüşlərdə müzakirələr, ölkədəki seçkilər, məhkəmə, hüquq-mühafizə sistemdə aparılan islahatlar, işçilərin hüquqları, uşaq hüquqları, gender bərabərliyi, məcburi köçkünlər bağlı məsələlərə yenidən baxılması, təkmilləşdirilmələrin aparılması Gürcüstanin Aİ ilə əməkdaşlığının güclənməsinə təkan verdi.

Aİ ilə Azərbaycan arasında potensial viza sərbəstliyi çox vacibdir, çünki AB ölkələrindən Azərbaycana və əksinə, hərəkətlilik böyük dərəcədə artacaqdır. Viza liberallaşdırması AB-ə inteqrasiyanı təşviq etmək üçün çox böyük bir addımdır. Bu proses Azərbaycanı bu şəraitdə ticarət tərəfdaşı halına gətirəcək, investisiya imkanlarını yaxşılaşdıracaq və münaqişələrin qarşısını almaq üçün insanların təmaslarını artırmağa çalışacaqdır

Şərq Tərəfdaşlığı Viza Sərbəstləşdirilməsi İndeksinə görə, vizasız hərəkət planını izləyəmək üçün etmək namizəd ölkələr sırasına Ermənistan, Azərbaycan və Belarus daxildir. Bu planın həyata keçirilməsi üçün 4 blok strukturlaşdırılmışdır:

1. Bioloji metodlar daxil olmaqla sənədlərin təhlükəsizliyi

2. Geriyə qəbul  daxil olmaqla qeyri-müntəzəm immiqrasiya
3. İctimai Təhlükəsizlik və Sifariş
4. Xarici əlaqələr və fundamental hüquqlar

Azərbaycan hökuməti 2007-ci ildə Beynəlxalq Qaydaların "2007-2012-ci illərdə Azərbaycan Respublikasında biometrik identifikasiya sisteminin yaradılması üzrə Dövlət Proqramı"  vasitəsilə beynəlxalq pasporta daxil olmaq məqsədi ilə uyğunluğuna başlamışdır. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli 29 nömrəli Sərəncamı və 17 iyul 2012-ci il tarixli, 686 saylı "Çıxış, qəbul və pasportlar haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında" fərman ilə şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı hüquqi və tənzimləyici çərçivə təkmilləşdirilmişdir. Azərbaycan hökuməti 17 iyul 2012-ci il tarixində Azərbaycan Prezidentinin fərmanı ilə biyometrik pasportların adaptasiyası üçün prosesə başlamışdır. Daha sonra 2013-cü ildən etibarən  Azərbaycan vətəndaşlarına biometrik pasportları almaq imkanı verilmişdir. Asan Xidmət 2015-ci il noyabrın 3-dən etibarən şəffaflıq mühitində  ölkə vətəndaşlarına pasportların verilməsi mərhələsinə başlamış oldu. (Karrion,2016: s.32)

2007-2012-ci illərdə Azərbaycan Respublikasında Biometrik İdarəetmə Sisteminin qurulması üzrə Dövlət Proqramı və "Biometrik məlumatlar haqqında" qanun 2008-ci ildən sənədlərin təhlükəsizliyi tələbini yerinə yetirməyə imkan yaratmışdır. Bu qanunda biometrik məlumat  özündə barmaq, palm və üz cizgiləri, gözün irisi, səs və akustik xüsusiyyətləri, DNT analizinin nəticəsi, bədən ölçüləri və xüsusi xüsusiyyətləri, əl yazısı ,imza və s. kimi informasiyaları ehtiva edir.

Viza liberallaşması ilə həm Azərbaycan, həm də AB üçün turizm sənayesindən faydalana bilər. Azərbaycana səfər etmək üçün viza tələb olunma faktı onu çətin bir yerə çevirir, onun üçün çox vaxt və pul tələb olunur. 30 günlük səyahət üçün vizanın asan şəkildə alınması Aİ turistlərinin ölkəmizə axınını artıracaqdır. Viza azadlığından faydalana biləcək bir sektor daha çox iş sektorudur. İşgüzar səfərlər AB vətəndaşlarının Azərbaycana səyahət üçün vizaya ehtiyacı olmasa və ya ən azı qısa müddətə hava

limanına gəldikdə əldə edə bilər. Bundan başqa, Azərbaycan, xüsusən də Bakı beynəlxalq konfranslar təşkil etmək üçün strateji bir şəhərə çevrilə bilər. Viza rejiminin ləğv edilməsi bir çox turizm şirkətlərinə turist sayını artırmaq üçün fayda verə bilər, buna görə də müxtəlif sahələrdə (hostel, nəqliyyat, tikinti, iaşə xidmətləri və s.) yeni infrastrukturun qurulmasına imkan yarada bilər. (Karrion,2016: s.32)

Avropa İttifaqı ali təhsil ilə bağlı Azərbaycanla əməkdaşlıq etməyə başlayıb. Erasmus + Proqramı, orta müddətli bir dövrdə Azərbaycanda iqtisadiyyatın inkişafında təsir göstərən bir sıra sənaye sahələrinə təcrübə gətirir. Erasmus + Proqramı təhsil, təlim və gənclik işlərini müasirləşdirmək, həmçinin bacarıq və iş qabiliyyətini artırmaq məqsədi daşıyır. Yeddi illik proqramda 14,7 milyard Avroluq bir büdcə var. (Carrion, Why Azerbaijan needs a Strategic Reform of its foreign policy towards the European Union?, 2016) Azərbaycan ali təhsil sistemi artıq Bolonya prosesinə adaptasiya etməyə başlamışdır. Həqiqətən, 31 dövlət ali təhsil müəssisəsi, 7 xüsusi təyinatlı ali təhsil müəssisəsi, 16 ali təhsil müəssisəsi Erasmus+ Proqramlarına qoşulmuşdur. Tələbələr, mütəxəssislər və təlimçilər AB ölkələrinə mübadilə proqramları doktorluq və ya magistr dərəcələrinin tam proqramlarına qoşulma imkanı ilə Azərbaycanın intellektual kapitalına birbaşa təsir göstərir. Avropa İttifaqı ölkələrinə təhsilli və Azərbaycana gəlmək üçün gedən tələbə və ya mütəxəssislər Avropa Birliyinin dəyərlərini yüksəldir və əmək bazarına qoşulmağa hazırdırlar. Bir çox AB universitetlərinin yüksək keyfiyyəti azərbaycanlı tələbələri öz ölkələrinə qayıtmaq və Azərbaycan iqtisadiyyatının aktyorları olmaq imkanı verir.

2007-ci ildən 2015-ci ilə qədər Azərbaycan tələbələrinin xaricdə təhsil almaq üçün ilk təyinat yeri Birləşmiş Krallıq (1032 tələbə), Almaniya (441 tələbə) və Hollandiya (181 tələbə) olmuşdur(Karrion,2016: s.32). Bundan əlavə Aİ tələbələrinin və mütəxəssislərinin mübadilə proqramları ilə Azərbaycana səfər etməsi imkanları qarşılıqlı anlaşma və bütün sahələrdə əməkdaşlıq imkanları yaradır.

Azərbaycan və Avropa İttifaqının daha güclü əməkdaşlığı ilə əmək bazarının tendensiyaları yol dəyişikliyinə səbəb ola bilər. Bununla yanaşı, Aİ ilə Azərbaycan

vətəndaşları arasında sərbəst hərəkətlilik Azərbaycanın təhsilli mütəxəssislərinə Avropa İttifaqı ölkələrində və AB vətəndaşları üçün ixtisaslı kadr çatışmazlığı olan Azərbaycanda yeni layihələrdə iş imkanları tapmağa kömək edə bilər. Viza azadlığı və ya ən azı turizm və  biznes kimi bəzi sektorlarda hərəkətlilik yaratma imkanı həm Avropa Birliyi, həm də Azərbaycan iqtisadiyyatını gücləndirə bilər.

Qısaca olaraq buradan belə bir nəticə əldə edə bilərik ki, Azərbaycanın Aİ-ə üzv olma perspektivlərinə həm daxili, həm də xarici amillər təsir göstərir. Dövlətimiz daxili amilləri müsbətə doğru istiqamətləndirməklə gələcək dövr üçün yeni mərhələyə hazırlana, eyni zamanda Aİ-ə doğru addım atmaqda daha real və effektiv nəticələrə nail ola bilər

### 3.3. Aİ-ə üzv olmaqla Azərbaycanın əldə edə biləcəyi üstünlüklər və  inkişafa təsir göstərəcək amillər

Azərbaycanın AB-ə ortaq üzvlük məsələsinə çox müsbət baxsaq və bunun ölkəmiz üçün əhəmiyyətini daha yaxşı anlamaq üçün əvvəlcə, ortaqlıq müqaviləsinin yaratdığı imkanlara nəzər salmalıyıq. Aİ ilə digər ölkələr arasında imzalanmış tərəfdaşlıq müqaviləsi siyasi, ticarət, sosial, mədəni və təhlükəsizlik sahələrində əlaqələrin dərinləşməsinə imkan yaradır. Müqavilənin imzalandığı dövlət, insan hüquqları və demokratik prinsiplərə olan bağlılığı baxımından nəzərə alınır. Birgə üzvlük Avropa ölkələri ilə münasibətlərdə viza rejiminin sadələşdirilməsi və AB daxili bazarlarına çıxma imkanları kimi üstünlükləri təmin edir. Avropa Birliyi həmçinin siyasi və hüquqi islahatların davam etdirilməsi üçün tərəfdaşlıq müqaviləsinə imza atan dövlət üçün maliyyə yardımı ayırma öhdəliyi götürür. Bu baxımdan ölkəmizin bu cür üstünllüklərdən yararlanmağa cəhd etməsi önəmli mövzudur.Bəzi hallarda tərəfdaşlıq müqaviləsi dövlətin ittifaqa üzvlüyünü asanlaşdırır. Hal-hazırki Aİ üzv dövlətlərinin əksəriyyəti vaxtilə  tərəfdaşlıq müqaviləsi əsasında qurumla əlaqələr qurmuşdur.

Düzdür, Azərbaycan  son dövrlər birliyə qoşulmaq  niyyətində olmasa da, tərəfdaşlıq müqaviləsinin imzalanması ölkənin siyasi və iqtisadi gəlirlərini təmin edə

bilər. Eyni zamanda, Şərqə doğru genişlənmə siyasətini icra edən AB üçün Azərbaycan Orta Asiyaya açılan qapı və siyasi, iqtisadi, mədəni cəhətdən əhəmiyyətli bir ortaqdır. O vaxtdan bəri Avropa İttifaqı ilə Azərbaycan arasında Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı Proqramı arasında əməkdaşlıq hər iki tərəf üçün böyük fayda idi. İndi isə zamanın şərtləri və Azərbaycanın qurum qarşısında üzərinə götürdüyü siyasi, iqtisadi, sosial, hüquqi islahatlarla əlaqədar öhdəliklərini müvəffəqiyyətlə nə dərəcədə yerinə yetirməsi əlaqələrin və iş birliyinin yeni və daha yüksək bir mərhələyə çatmasını müəyyən edəcək (Şahbazov R., 2015: s.232).

Ancaq tərəfdaşlıq müqaviləsinin imzalanması ilə əlaqədar danışıqlar prosesinin yavaş inkişafı diqqət çəkir. Məsələyə yalnız AB ilə Azərbaycan əlaqələri çərçivəsində baxsaq, Azərbaycanın indiyə qədər AB ilə iş birliyi içində demokratik bir hüquq dövləti və qeyri-hökumət quruluşlanın təşkilatlanması istiqamətində qazandığı uğurların təqdirə layiq olduğunu görərik. Eyni zamanda Azərbaycan uzun illər Avropa İttifaqının ən etibarlı və sadiq iqtisadi tərəfdaşlarından biri olduğunu sübut etdi. Özəlliklə keçmiş sosialist ölkələrinin Rusiyaya yaxınlaşmaq cəhdləri, bu şəraitdə isə ölkəmizin balanslaşdırılmış siyasət aparmaqla Aİ ilə əlaqələri isti mümkün qədər isti saxlaması buna nümunə ola bilər. Azərbaycanın iştirakı və təşəbbüsü ilə həyata keçirilmiş və son dövrün təməlini qoymuş yeni enerji layihələri Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm element olmuşdur. Azərbaycan Qərb ilə inteqrasiya siyasətində və Aİ ilə münasibətlərində ardıcıl və qərarlı bir mövqe nümayiş etdirdi. Avropalı şirkətlər həmişə olduğu kimi Azərbaycanda əlverişli investisiya mühitindən faydalanırlar. Azərbaycanla əməkdaşlıq Aİ və onun üzv ölkələri üçün çox faydalıdır.

Azərbaycanın AB-ə daxil olması şübhəsiz olaraq siyasi və iqtisadi kontekstdə öz təsirlərini göstərəcəkdir. Azərbaycanın xarici siyasəti ölkə daxili amillərdən də təsirlənəcək. Dövlətin rolu, qeyri-hərbi münasibətlər, iqtisadi islahat, dünyəvi-dini siyasətlər,milli-beynəlxalq istiqamətdəki təməl mövzularda mənimsəyəcəyi strategiya, gələcəkdə Azərbaycanən xarici siyasətini yönləndirəcəkdir. Eyni zamanda, daha

demokratik islahatların aparılması ilə vətəndaş cəmiyyətləri xarici məsələlər haqqında daha çox iştirakçı qismində yer alacaq, beynəlxalq gündəmdən daha çox xəbərdar olacaqdır. Aparılan təhlillərdən belə bir qənaətə gəlmək olar ki, Azərbaycan :

1.Aİ tərkibində, qeyri-sabitlik potensialına malik olan Yaxın Şərq, Qafqaz və Orta Asiya kimi qonşu bölgələrdə xarici siyasətə təsir edəcək strateji əhəmiyyətli bir ölkə olacaqdır.

2.İqtisadi modernləşmə, sosial-iqtisadi inkişaf və daimi inteqrasiya davam edərsə, özəlliklə Qafqaz regionunda stabil bir sabitlik faktoru ola bilər. Lakin digər bir tərəfdən də qatı İslamçı ideologiyaya sahib olan İran üçün , keçmiş sosialist Rusiya üçün də ideoloji təhdid yarada bilər.

3.AB üzvü olaraq bir çox beynəlxalq mövzuda - enerji, qida təhlükəsizliyi, terrorla mübarizədə əhəmiyyətli bir ölkə olacaq.

4.Potensial olaraq AB-nin enerji faktoru cəhətdən ən əhəmiyyətli üzvü ola biləcək, xarici enerji siyasətində əhəmiyyətli təsirə sahib ola biləcək, bununla birlikdə üzvlükdən və Avropa təşkilatlarında ortaq qərar almaqdan irəli gələn məhdudiyyətlər də olacaqdır.

5.Azərbaycanın üzvlük iştirakı AB-in enerji yollarını daha etibarlı zəmanət altına almasında köməkçi olacaq. TANAP layihəsinin gerçəkləşdirilməsi və TAP layihəsinin hələ də perspektiv məsələ olması buna nümunə ola bilər. Bu mövzu təkcə karbohidrogen ehtiyatlarının deyil, eyni zamanda su ehtiyatlarının idarə olunması və müvafiq infrastrukturun idarə olunması üçün AB siyasətinin inkişafını tələb edir. (Memmedli E.,2017:s.214)

6.Azərbaycanı də əhatə edəcək bir şəkildə azadlıq, təhlükəsizlik və ədalət sahəsinin genişləndirilməsi, mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni ticarət və terrorizm kimi ortaq beynəlxalq təhdidlər qarşısında əməkdaşlığın möhkəmləndirilməsinə təmin edərək AB-ə bir bütün olaraq fayda gətirəcək. Buna baxmayaraq, qeyd olunan sahədə aradan qaldırılacaq problemlər nəzərə alınmaqla Ədliyyə və Daxili İşlər sahəsində üzvlük prosesi kompleks olacaqdır.

Qeyd etdiyimiz kimi Aİ-ə üzlük ən çox Azərbaycana iqtisadiyyatına öz güclü təsirini göstərəcəkdir. Avropa Birliyi ilə Azərbaycan arasında yaradılacaq olan Gömrük Birliyi çərçivəsində intqerasiya ölkəmizdəki iqtisadi böyüməni və zənginliyi artıracaq, eyni zamanda AB üzvü ölkələri üçün də bəzi sektorlar üzrə, daha az bir səviyyədə də olsa, müsbət təsir edəcək.

Azərbaycanın əhalisinin az olmasına baxmayaraq, 2018-ci il üzrə ÜDM-si 40.75 milyard dollardır. Bu göstərici isə həçmin il üzrə AB ÜDM-in 0.2 %-i təşkil edir. Bu səbəbdən, ölkəmizin Avropa Birliyinə tam üzvlüyünün iqtisadi təsirləri asimmetrik olacaq. Digər bir ifadəylə, Azərbaycan tam üzvlükdən əhəmiyyətli ölçüdə faydalanarkən AB iqtisadiyyatı üzərindəki təsiri çox məhdud olacaq. Özəlliklə hansı sahələrdə ölkəmizin əldə edəcəyi üstünlükləri analiz etmək vacibdir. Bu baxımdan aparılan təhlilləri aşağıdakı şəkildə qruplaşdırmaq lazımdır:

A. Malların və xidmətlərin ticarətinin artması- Azərbaycanın üzvlüyü sənaye məhsullarında tarif və miqdar məhdudiyyətlərinin qarşılıqlı olaraq qaldırılmasını təmin edən Gömrük Birliyi xarici maneələrin azaldılması ilə ticarət inteqrasiyasını daha da artacaq. Təməl olaraq Gömrük Birliyində Azərbaycanın AB ilə olan ticarət əlaqələrini əhəmiyyətli dərəcədə artıracaqdır. Ümumiyyətlə son 4 ildə Aİ ilə Azərbaycan arasında olan ticarətin payının azalması müşahidə olunur. Aİ-ə daxil olduğumuz təqdirdə Azərbaycanın potensial ixrac məhsulları içərisində kimyəvi maddələr, ərzaq və canlı heyvanlar, maşın və nəqliyyat avadanlıqlarının payının artması mümkündür. Bundan əlavə, sərhəd nəzarəti və digər texniki ticarət maneələrin aradan qaldırılması ticarəti intensivləşdirən müsbət amil olacaqdır.

B. Vahid bazara inteqrasiya- Azərbaycan bazarının həcminin kiçikliyini nəzərə alaraq, ölkəmizin birbaşa bazarda iştirakı cari üzv ölkələrdə tələbatın ciddi bir şəkildə artmasına elə çox səbəb olmayacaqdır. Daxili bazarda keyfiyyətli mal və xidmət təklifinin çox olması səbəbilə Azərbaycanda yerli müassisələrin xarici məhsullara rəqabətdə uduzaraq məhsuldarlığının azalmasına və bir çox sahələrdə xüsusilə xidmət sektorunda qiymətlərin aşağı düşməsinə səbəb olacaqdır. Azalan

məhsuldarlıq və qiymət rəqabəti, şəffaf rəqabət şəraitində yeni Avropa standartlarına cavab verən gənc müəssisələr ortaya çıxacaqdır. Bu isə məşğulluğun artmasına və əlavə dəyərin kənd təsərrüfatı sektorundan xidmət sektoruna sürüşməsi gözlənilir .Meydana çıxan nəticə zamanla məhsuldarlığın artmasına səbəb olacaqdır. Kənd təsərrüfatı sektorundan xidmət sektoruna keçid Azərbaycan iqtisadiyyatının quruluşunu AB ilə uyğunlaşdırmaqla, xüsusilə xidmət sektorunda iqtisadi böyüməyə də yol açacaq. Belə struktur dəyişikliklərin idarə edilməsi iqtisadi və sosial siyasət baxımından xüsusilə kənd yerlərində uzunmüddətli və əhəmiyyətli bir inkişafın davam etməsinə səbəb olacaqdır.

Son dövrə qədər Azərbaycandakı maliyyə sistemi makroiqtisadi struktur problemlərdən qaynaqlanan inamsızlıqla bağlı olaraq kövrək və zəif quruluşdadır. 2015-ci il 25 fevralda baş verən ilk devalvasiya Azərbaycanda maliyyə böhranınının əsasını qoydu və həmin il 21 dekabrda baş verən ikinci devalvasiya ölkə iqtisadiyyatını mənfi təsir göstərərək 3 il ərzində durğunluq və geriləməyə səbəb oldu. Bununla bağlı olaraq ölkədə müəyyən monetar siyasət aparmaqla maliyyə stabillik yaradıldı. Ancaq proses hələ də bitməyib. Bu baxımdan ölkədə Bank sektoru üzrə tənzimləyici və nəzarət standartları daha da gücləndirilməli və AB standartlarına uyğun olmalıdır. Beynəlxalq maliyyə bazarlarda əhəmiyyətli nisbətdə xarici borc alan Azərbaycan iqtisadiyyatının sərhəd sonrası maliyyəsində AB mənşəli banklar ən böyük paya malik olacaqdır. Bu məsələ insanlarımızın ölkə banklarından çox Avropa mənşəli banklara üz tutmasına , öz əmanətlərinin bu banklara etibar etməsinə yol açacaq, nəticədə Azərbaycan İqtisadiyyatının Avropadan birbaşa asılılığı güclənəcəkdir.

C. Artan investisiya imkanları- AB ilə Azərbaycan arasındakı kapital axını cari dövr üçün heç də ürək açan deyil. Son 4 il ərzində ölkəmizə AB-dən gələn birbaşa xarici investisiyalar, çox aşağı səviyyədə qalmışdır və xarici investorlar üçün istifadə edilmiş bir potensial olduğu gözləməsini artırmaqdadır.Ancaq bu birliyə üzv olmaq AB-in struktur fondu və birləşmə fondlarından fiziki və insan kapitalına xərcləri,

xüsusi investisiyaların şərtlərini yaxşılaşdırır. Azərbaycana daha çox və getdikcə artan nisbətdə daxil birbaşa xarici investisiyalar, sərmayə təcrübəsini artıracaq, eyni zamanda ölkədə ola kapital ehtiyatını yeniləyəcək və böyümə potensialının artmasının əsas komponenti olan texnologiya transferini mümkün edəcək

D. Enerji- Kyoto Konfransında göstərilən öhdəliklərdən və Avropa sənayesinin rəqabət qabiliyyətini artırmaqdan ötrü ekoloji tələblərə cavab verən uyğun qiymətlərlə enerjinin davamlı axını təmin etmək üçün enerji bazarında daxili bazarın tamamlanması və işləməsi vacibdir. Azərbaycan neft və təbii qaz baxımından orta həcmli və keyfiyyət cəhətdən önəmli resurslara malikdir. 2018-ci ildə 38 mln. 814 min ton neft , 30 mlrd 592 mln kubmetr qaz hasil olunmuşdur. Təbii ki, ölkəmizin enerji resursları Avropanın daxilin bazarının enerji tələbatının müəyyən bir qismini qarşılamaqla, eyni zamanda regionda qaz tranziti rolunu oynamaqla böyük önəmə sahib ölkə kimi öz mövqeyini möhkəmləndirəcəkdir. (Memmedli E.,2017:s.214)

E. İşçi qüvvəsisinin miqrasiyası- Uzunmüddətli dövrdə işçi qüvvəsinin sərbəst hərəkətinin önündəki maneələrin qaldırılması Azərbaycandan Avropa Birliyinə böyük köç dalğası yaradacağı təxmin edilir. Lakin, bu mərhələdə bu miqrasiyanın təbiətini və səviyyəsini proqnozlaşdırmaq çox çətindir. Belə miqrasiya yaşlı əhalisi çox olan Aİ-in azalmış inkişaf potensialının problemini yumşalda bilər. Ancaq böyük və nəzarətsiz köç AB-in əmək bazarında problem yarada bilər. Müvəqqəti olaraq üzv dövlətlərə miqrasiyanın bölüşdürülməsi ölkə və bölgə baxımından qeyri-müntəzəmdir. Miqrasiyanın ÜDM-ə təsiri AB-də azərbaycanlı işçi qüvvəsinin təhsil səviyyəsinə görə dəyişəcəkdir.

F. İqtisadi və Pul İttifaqında iştirak- Yeni bir üzv dövlət olaraq Azərbaycan İqtisadi və Pul Birliyə (EPB) qatılsa da , Avronu dərhal qəbul etməsi mümkün olmayacaq. Buna üçün ilk növbədə ölkəmiz Pul Birliyinin tələblərini qəbul etməli  və Avro bölgəsində tam iştirak üçün hazırlanmalıdır. Azərbaycanın valyuta məzənnəsi siyasəti ortaq mənafe mövzusu olaraq qalacaqdır. Azərbaycan, iqtisadi sabitlik üçün intizamlı makroiqtisadi, həm pul, həm də maliyyə, siyasətləri izləyə bilməlidir.

Ölkəmizdə pul, məhsul və əmək bazarlarının düzgün təşkil olunması, makroiqtisadi siyasətin effektivliyini artıracaq. Bu səbəblə, ölkə makroiqtisadi sabitliyi təmin etməyə və irəliləmiş struktur islahatlara davam etməlidir.

G. Sosial siyasət və məşğulluq- Lissabon Strategiyasında qeyd edildiyi kimi, Avropa inkişaf modeli rəqabətə, məşğulluğa və sosial uyğunlaşmaya əsaslanır və məqsədlər ,siyasətlər bu prinsiplərə əsasən müəyyən edilir. Bu baxımdan, sosial ədalət kimi sosial tərəqqi, yüksək səviyyədə məşğulluq, sosial müdafiə, həyat səviyyəsinin yüksəldilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması və iqtisadi və sosial uyğunlaşmanın təmin edilməsi iqtisadi fəaliyyətdə mühüm amildir. Ölkəmizdə yaşayış standartları nəzərə alınaraq, sosial sahədəki öhdəlikləri Azərbaycan öz üzərinə götürməklə AB standartlarını və proqramlarını mənimsəyəcək və beləliklə ölkədə həyat standartları yüksələcək. Əmək hüququ, gender bərabərliyi və iş sağlamlığı və təhlükəsizliyi məsələləri üzrə Avropa Birliyi qanunvericiliyində müəyyən məsələlər ölkə qanunvericiliyinə daxil edilməlidir. Müasir dövrdə dünyada qadınların hüquqlarına hörmət etmək, qadınların siyasi, iqtisadi və ictimai həyatda rolunu artırmaq kimi məsələlər aktualdır. Bu baxımdan ölkəmizdə işgüzar sahədə qadınların ön plana çıxması, fəaliyyətinin artması təqdirəlayiq hal kimi qeyd olunmalıdır.

H. Telekommunikasiya və İnformasiya Texnologiyaları- Bu sahədə mövcud qanunvericilik elektron xidmətlərin və şəbəkələrin vahid bazar prinsiplərinin səmərəli fəaliyyətinin qarşısını alan maneələrin aradan qaldırılmasını və ümumilikdə mövcud olan müasir xidmətlərin yaradılmasını nəzərdə tutur. Azərbaycan Avropa Birliyinə tam üzv olmasa da telekommunikasiya sektorunu əsaslı bir şəkildə tənzimləməsi lazımdır. Bunun həyata keçirilməsi üçün AB investorları üçün ölkəmizdə investisiya imkanları yaradılacaq.

İ. Mədəniyyət, Təhsil, Tədris, Gənclik- Avropa Birliyində iştirakın meydana gətirəcəyi fürsətlərdən tam olaraq faydalana bilməsi üçün Azərbaycanın təhsil, tədris və insan resursları inkişafı sahəsində irəliləyiş əldə etməsi çox əhəmiyyətlidir.

Bu vəziyyət, ölkəmizdə məşğulluğun inkişafı və mövcud üzv dövlətlərlə yaxınlaşma prosesində irəliləmə təmin edilməsi baxımından da əhəmiyyət daşıyır. Təhsil, tədris və gənclik məsələləri əsasən üzv dövlətlərin qanunvericiliyinə buraxılır. Təhsilin keyfiyyətinin artırılması  yolu ilə peşə təhsili siyasətini həyata keçirmək məqsədi daşıyır.

J. İstehlakçı hüquqlarının müdafiəsi siyasəti- Bu siyasət bütün Aİ vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşdırılmasının strateji məqsədinin əsas elementidir. Sözügedən siyasətin Azərbaycanda daxilində tətbiq olunması, daxili bazardakı istehlakçıların, yəni vətəndaşlarımızın sağlamlıqlarının, təhlükəsizliklərinin və maraqlarının qorunmasına yönəlmiş qanuni və digər fəaliyyətlərin inkişaf etdirilməsini özündə ehtiva edir. Azərbaycanda istehlakçı qanunvericiliyi və siyasəti məsələsindəki durumu nəzərə alındığında, bazar nəzarəti və ümumi məhsul təhlükəsizliyi məsələlərinə xüsusi əhəmiyyət verilməsi, işləyən bazar nəzarəti strukturlarının qurulması lazımdır. Burada Kənd təsərrüfatı məhsulları və heyvandarlıq ilə bağlı sağlamlıq riskləri, baytarlıq və fitosanitariya kimi mövzular da nəzərə alınır.

K. Elm, Tədqiqat və İnkişaf- Azərbaycanın elm və araşdırma sahəsində fəaliyyəti çox məhduddur. Bu sahədəki qanunvericiliyin, xüsusilə araşdırma və texnoloji inkişaf çərçivə proqramlarının, müvəffəqiyyətli bir şəkildə tətbiq olunmasını təmin etmək üçün, ölkəmizin araşdırma ilə əlaqədar əsasının quruluşunun gücləndirməsi lazımdır. İqtisadiyyatının gələcəkdə rəqabət qabiliyyətliliyinin artırmaq  və iş imkanları yaradılmasına kömək etmək üçün elm və araşdırma sahəsinə qoyulan investisiyaların artırılması lazımdır. (Buckley, Valiyev ,Sayfutdinova  2018:S.228)

Ümumi qiymətləndirmə aparsaq belə qənaətə gələ bilərik ki, Azərbaycanın Avropa Birliyinə üzvlüyü,  bütün tərəflər üçün iqtisadi çətinlikləri və fürsətləri özü ilə gətirəcək. Avropa Birliyi üzvü olan ölkələrin iqtisadiyyatları yavaş da olsa, Azərbaycanın iştirakından faydalanacaq. Azərbaycandakı iqtisadi böyümənin sürətlənməsi AB-in ölkəmizə ixracatına da müsbət təkan verəcəkdir. Yaxşılaşan

investisiya mühiti sayəsində AB şirkətləri üçün sərmayə imkanlarının artması da gözlənilir. Azərbaycandan gələn immiqrasiya ilə bağlı olaraq məşğulluq təklifindəki artım, daha çox iqtisadi artım və inkişafın təmin edilməsinə kömək edə bilər .

Artan ticarət, birbaşa xarici kapitaldan qaynaqlanan investisiya yüksəlişi istehsalın sektorlara quruluşunun dəyişməsindən asılı olaraq məhsuldarlıq artımına və rəqabətçi AB Daxili Bazarı mühitinə uyğun struktur islahatların tətbiq olunmasına səbəb olacaq. Azərbaycanın daxili bazara inteqrasiyası faydalı ola biləcək. Ancaq bu, yalnız Gömrük Birliyində mövcud olan öhdəliklərin yerinə yetirilməsi ilə deyil, korporativ idarəetmənin və tənzimləyici çərçivələrin gücləndirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi və məhkəmə sisteminin fəaliyyətinin artırılması kimi daha üfüqi islahatlardır. İqtisadi Böyümənin artması ilə iqtisadi inkişaf sürət qazanmasına baxmayaraq, Azərbaycandakı gəlir səviyyəsinin AB-nin səviyyəsinə çatması uzun bir müddət alacaq. (Ahmedov M.,2015:s,158).

Yekun olaraq dəyərləndirsək Azərbaycanın Aİ-na üzv olacağı təqdirdə əldə edə biləcəyimiz üstünlükləri aşağıdakı şəkildə sıraya bilərik

1.İlk növbədə ölkə vətəndaşlarımızın sərbəst şəkildə səyahət edərək ittifaq daxilində öz vəsiqələri ilə heç bir viza şərtləri olmadan istədiyi ölkədə uyğun peşə sahəsi üzrə çalışmaq imkanı əldə edəcəkdir.

2.Malların və kapitalın sərbəst hərəkəti- Ölkəmizdə istehsal olunan məhsulların ixracı ,yəni üzv ölkələrə asanlıqla satma imkanı, eyni zamanda digər üzv ölkələrin məhsullarının heç bir gömrük maneəsi olmadan idxal edilməsi imkanı yaradır. Təbii ki, bu proses Azərbaycana investisiya axının sürətlənməsinə də müsbət təsir göstərəcək.

3.Ölkəmizin gəlir səviyyəsinə Aİ ölkələrinin orta gəlir səviyyəsinə yüksəldilməsi üçün maliyyə yardımları ayırılacaq

4.Aİ-dakı təhsil-səhiyyə, iş standartları sahəsində bəzi dəyişikliklər üçün müəyyən islahatlar aparılacaq, bu da öz növbəsində insanların həyat səviyyəsinin yüksəlməsinə təsir göstərəckək.

Bununla yanaşı Aİ-a üzvlüyün təbii ki ölkəmizə mənfi təsir göstərcəyi amillər də mövcuddur:

1.Qloballaşma səbəbi ilə Avropa mədəniyyətinin Azərbaycan mədəniyyətinə nüfuz etməsi, ölkənin milli dəyərlərinə pis təsir göstərəcək nəticələri ortaya çıxacaqdır.

2.İtiffaq daxilində hər hansı bir ölkənin yaşayacağı iqtisadi,sosial böhranın ölkəmizə də təsiri qaçılmaz oalcaqdır.

3.AB daxilində çox az müsəlman dövlətlərdən biri olmağımız , dini məsələlərdə vətəndaşlarımızın ayrıseçkiliyə məruz qalmasına səbəb olacaqdır.

Azərbaycan müasir dövrdə müxtəlif din və vicdan azadlığını təmin etməklə, həm tarixi və mədəni təcrübəsiylə, həm də eyni zamanda Avropalı və Asiyalı olmaqdan qaynaqlanan iki tərəfli görünüşüylə, Avropa ilə Yaxın Şərq ölkələri arasında çox əhəmiyyətli bir bağ meydana gətirməkdədir. Xüsusən son zamanlar İslam, Musəvilik və Xristian dünyaları arasında lazım olan mədəni, sosial və siyasi yaxınlıqlara da kömək edir. Ksenofobiya, irqçilik, bəzi dinlərə və şəxsiyyətlərə qarşı etirazlar, etnik-dini ekstremizm kimi təhdidedici problemlər ölkəmizdə mövcud deyildir. Bu baxımdan qərb mədəniyyəti ilə şərq mədəniyyəti arasında körpü rolu oynayan Azərbaycanın AB üzvlüyü, xüsusilə İslam ölkələrinin modernləşmə səylərinə müsbət təsir edə bilər.

Azərbaycanın sabit və balanslı şəkildə inkişafı və gələcəkdə dünya miqyasında önəmli bir nüfuz qazanması üçün qarşıda dayanan 3 böyük hədəf vardır. Bunlardan birincisi Avrasiya İttifaqına qatılmaq, İkincisi balanslaşdırlmış siyasət yürütməklə dünyanın böyük gücləri arasında stabil inkişaf yolunu seçməkdən ibarətdir. Üçüncü böyük istiqamət isə dünyanın 3 böyük güc mərkəzindən biri olan Avropa İttifaqına doğru ataraq interasiya prosesinin gücləndirmək və bu birliyin ən vacib , strateji əhəmiyyətli üzvlərində biri olmaqdır. Təbii ki, Azərbaycanın bu istəklərini gerçəkləşdirməsi üçün həm siyasi, həm iqtisadi, enerji, yaşayış səviyyəsi, elm, təhsil, səhiyyə kimi vacib sahələrdə uzunmüddətli dövr üçün mərhələli şəkildə hədəflərini həyata keçirməlidir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanın Avropa Birliyinə qoşulması həm AB, həm ölkəmiz baxımından çətin bir proses ola biləcək. Lakin bu proses yaxşı idarə olunarsa, hər iki tərəfdaş üçün də böyük imkanlar yarada edə bilər. Üzvlüyə hazırlıq növbəti on il ərzində davam edə bilər. Bu müddət içərisində AB inkişaf edəcək və Azərbaycanın daha radikal bir şəkildə dəyişməsi tələb oluna bilər. Formalaşan nəticə isə yeni fürsətlər yarada və çətinliklərə da bir həll gətirə bilər. Azərbaycanın üzvlüyü , mədəni və dini xüsusiyyətləri ilə birlikdə, əhalisi, coğrafi mövqeyi, iqtisadi, daxili sabitlik baxımından əvvəlki genişlənmələrdən fərqli ola biləcək. Bu faktorlar, Azərbaycana regional və beynəlxalq sabitliyə qatılma imkanı yaradır.

Əgər həqiqətən qanunun aliliyinə söykənən, dünyəvi sülhə töhvə verəcək, cəmiyyətlərin əsas hüquqlarına, azadlıqlarına və mədəniyyətlərinə hörmət edən, dünyəvi inam, ədalətli və rəqabətli bir mühitdə artmasını qatqı təmin edəcək bir birlik varsa və bu birliyin maraqları Azərbaycanın maraqlarına zidd deyilsə, bu ittifaqa üzv olmaq haqqında düşünmək olar. Ancaq ilk növbədə, xalqımız öz maraqları barəsində bu məsələyə də inanmalıdır. Bir baxımdan AB üzvü olacağımızı söyləyərkən, digər ölkələrlə də əlaqələrimizə zərər verməməliyik və ya əlaqələrimizin gələcəyini AB üzvlərinin qərarlarına buraxmamalıyıq. Avropa İttifaqı texnoloji və iqtisadi inkişafın və vətəndaş cəmiyyəti qurumlarının səmərəliliyi üçün model bir nümunə sayılır. Ancaq əxlaqi və mənəvi dəyərlər baxımından, birliyin nümunəsini vermir. Burada vurğulanan ən əsas məsələ dəyərlərimizin bu ölkələrdəki dəyərlərlə uyğunlaşmamasıdır .

Azərbaycan yeni beynəlxalq enerji layihələrinin hazırlanması ilə Asiya ilə Avropa arasında əmin-amanlıq və dostluq körpüsü rolunu oynaya bilməsi ölkəmizin xarici siyasətinin bölgəvi inteqrasiyaya böyük yardımlar etdiyini təsdiqləyir. Yeni yaradılan enerji layihələrinin reallaşdırılması Azərbaycanın regional təşkilatlarında səmərəli diplomatik fəaliyyəti əsasında mükün olur. Günümüzdə keçmiş sovet coğrafiyasında belə bir sistematik diplomatik fəaliyyət həyata keçirən ikinci ölkə yoxdur.

Hal-hazırki dövrümüzdə Azərbaycan bölgədə sistemli və çoxtərəfli bir xarici siyasət xəttini tətbiq etmiş nümunəvi bir dövlət halına gəlmişdir. Təbii ki, fundamenti Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə prezidenti İlham Əliyevin davam etdirdiyi balans siyasəti çərçivəsində dövründə Azərbaycan xarici siyasətinin əhəmiyyətli nailiyyətlər əldə etdiyini görə bilərik. Azərbaycan Cənubi Qafqaz regionunun Avropaya birləşdirən NABUCO kimi riskli layihələr üzrə öz lider mövqeyini saxlayır.

Yaxın gələcəkdə ölkəmiz üçün prioritet məsələlərdən biri ola biləcək Aİ-ə üzvlük prosesinə hazırlanmaq üçün irəli sürülən təkliflər aşağıdakılardır:

1.Ticarət və hərəkətliliyi təşviq etmək, iqtisadiyyatın diversifikasiyalaşdırılması üçün Azərbaycanın xarici siyasətə olan yanaşmasını Avropa İttifaqına yönləndirmək.

2.Kənd təsərrüfatı, sənaye, ticarət və turizm sahələrinə milli investisiyalar ayırmaqla ölkənin iqtisadiyyatını şaxələndirmək.

3.Dünya Ticarət Təşkilatına qoşulmaq üçün qısa müddətdə danışıqlar prosesinə başlamaq. Çünki DTT-yə üzvlüyü nə qədər gecikirsə, inkişaf tempini daha çox sürətləndirmək üçün Azərbaycan iqtisadiyyatının qlobal bazarlara çıxmağı ləngiyir. Ümumdünya Ticarət Təşkilatına üzvlüyü Avropa İttifaqına dərnək açma pəncərəsi deməkdir. Beynəlxalq standartlara uyğunlaşma Azərbaycanın hökumət strukturunu daha da gücləndirəcəkdir.

4. İkitərəfli olaraq viza rejimin sadələşdirilməsi. AB vətəndaşları üçün turizm vizalarını ləğv etmək; mümkün olduğu qədər ən azı beynəlxalq hava limanlarındaa və ya sərhədlərdə viza ilə daha yüksək rahatlıq təmin etmək.

5. Kənd təsərrüfatı, sənaye, ticarət və turizm sektorları üçün təlim və maliyyə imkanlarından istifadə edərək yeni sahibkarlar üçün əlverişli iqtisadi mühit yaratmaq.

6. Daha uyğunlaşdırılmış bir cəmiyyət qurmaq və dövlətə inamən daha da artması üçün vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqələri artırmaq.

7. Avropa təhsil sisteminin ölkəmizdə tədbiqi üçün müvafiq sahə üzrə islahatların aparılması , bununla bağlı qanunvericilik bazasında təkmilləşdirilmələrin reallaşdırılması.

8. Məşğulluğu artırmaq- İşsizləri və sosial cəhətdən zəif qrupları qorumaq və onların cəmiyyətə daxil edilməsi üçün sosial yardım müddəalarının yaxşılaşdırılması təcrübəsini Aİ-dən qəbul etmək. Beynəlxalq Əmək Təşkilatının standartlarına uyğun səmərəli sosial dialoqa dəstək vermək məşğulluq və sosial tədbirlər əhalinin əmək bazarında dəyişikliklərə uyğunlaşmasını təmin edəcəkdir.

9. Təhlükəsizlik məsələlərini əhatə edən dövlət idarəetməsinin, o cümlədən dövlət qulluğunun və məhkəmə sisteminin daha çox təkmilləşdirilməsi üçün Aİ ilə əməkdaşlığı davam etdirmək.

10. Ölkəmizin potensialını gücləndirmək məqsədi ilə vətəndaş cəmiyyəti, özəl sektorun inkişafı, davamlı iqtisadi inkişaf yönümlü ekoloji siyasət və sosial yenilik üçün Aİ ilə əməkdaşlıq etmək. Bu əməkdaşlıq istiqamətində gender, iqlim, ətraf mühit və sosial mövzular, xüsusi ilə də diqqət qadınlar və gənclər üçün məşğulluq imkanlarının genişləndirilməsinə diqqət ayrılmalıdır.

11. Təbii resursların daha yaxşı idarə olunması, təbii ehtiyatların davamlı idarə edilməsi , yaşıl və dairəvi iqtisadiyyata doğru keçid üçün ekoloji təmiz nəqliyyat siyasətinə yönəlməli və qeyd edilənlər üzrə Aİ ilə təcrübə mübadiləsinə başlamalıdır. Enerji səmərəliliyi, şəhər və kənd ətraf mühitinin idarə edilməsi, xüsusilə çirklənmənin qarşısının alınması və materiallardan səmərəli istifadəsi və tullantıların idarə edilməsi Azərbaycanın ətraf mühitlə bağlı məqsədlərinə nail olmaqda əsas rol oynayacaqdır.

12. Azərbaycanın təhsil sisteminin məktəbəqədərdən ali təhsilə qədər modernləşdirilməsi üçün Erasmus + , Bolonya prosesi və texniki , peşə təhsili sahəsində davam edən əməkdaşlığın gücləndirilməsi. Bu əməkdaşlıq müəllimlərin bacarıqlarının artırılması ,inkişafı, ictimai imicinin və peşə təhsili keyfiyyətinin artırılmasına yönəldəcəkdir. Yaradılan ikitərəfli əlaqələr eyni zamanda tədqiqat və

innovasiya sahəsində, mədəniyyətlərarası dialoq sahəsində, mədəni müxtəlifliyə, daha yaxşı qarşılıqlı anlaşmaya və cəmiyyətlərdə tolerantlığın artırılmasına kömək edəcəkdir.

Son illər Avropa Birliyi qarşılıqlı münasibətlərin yeni səviyyəyə yüksəldilməsinə maraq göstərdiyini nümayiş etdirmişdir. Hal-hazırda da ölkəmiz Avropa Qonşuluq Siyasətində və Şərq Tərəfdaşlığında aktiv olaraq edir. Bu baxımdan, Fransa paytaxtında Azərbaycan milli mədəniyyətinin təşviqi və təhlili ilə əlaqəli olan konfransların təşkili çox vacib hadisə idi. Bakı şəhəri İslam mədəniyyətinə yaraşan nümunəvi şəhər olaraq qəbul edildi. Bütün qeyd olunan nüanslar əslində Avropanın ölkəmizə inamını gücləndirmək istədiyini ortaya qoyan məsələlərdən biridir. Təbii ki, bu güvən ölkəmizin Qərbə doğru irəliləməyi üçün yeni imkanlar vəd edir.

Ölkəmizin qonşularla mövcud diplomatik və ticari bağları nəzərə alınsa, bu bölgələrə yönələn AB siyasəti ilə əlaqədar gözləntilər xeyli artacaq. Bunlar Orta Şərq və Qafqaz da daxil olmaqla, ənənəvi olaraq qeyri-sabit və gərgin olan regionlarda orta müddətli təcrübəyə sahib olan, xarici siyasətçi olmağı bacaran Aİ-in necə mövqe nümayiş etdirəcəyinə bağlıdır. Azərbaycanın Aİ-ə qoşulması ilə Qafqaz regionunda həm iqtisadi, həm enerji, o cümlədən siyasi baxımından çox strateji ölkə rolunu üstlənəcək və bu gələcəkdə ölkəmizin daha stabil və davamlı inkişafı, xalqımızın daha sağlam təməllərlə rifah səviyyəsinin artımı üçün zəmin yaradacaqdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1.Avropa İttifaqı və Azərbaycan arasında qarşılıqlı əlaqələrin formalaşması və inkişaf dinamikası: siyasi aspekt // Pedaqoji Universitetinin Xəbərləri, 2010, №6, s. 119-127.

2. Avroatlantik məkana inteqrasiya müstəvisində Azərbaycan və Avropa Şurası əlaqələri / AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Heydər Əliyev Məktəbi" Ulu Öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemlərinə həsr olunmuş ümumrespublika elmi-praktiki konfransının materialları. Bakı, s. 153-157.

3.Azərbaycan-Avropa İttifaqı, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası, s. 11 il verilmeyib

4.Bənövşə Manafova, "Traseka Proqramı və Onun İqtisadi Əhəmiyyəti, Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya", II Beynəlxalq Konqres, Qafqaz Universiteti Yayınları, Bakı, 2007, s. 503-509.

5. Baban, İ. (2010). Azərbaycanın Avratlantik Enerji Təhlükəsizliyində Yeri və Rolu. Azərbaycan Geosiyasi Dayaq Nöqtəsi, Yoxsa Geostrateji Oyunçudur?, Strateji Araşdırmalar Mərkəzi, Azerbaijan Focus Jurnalı, Oktyabr-Dekabr, ss. 143-156.

6.Ç.M.Abbasov. Azərbaycanın dünya iqtisadiyyatının inteqrasiya yolları. Bakı-2005.

7.H.Hüseynova Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində Bakı-1998

8.H.M.Rəcəbli, V.Ə.İbayev Avropa Şurası. Bakı -1999

9.G.Əliyeva. Azərbaycan Respublikasının Avropa ittifaqı ilə münasibətləri haqqında//Məşvərət, 2003, _11

10.Ə.C.Muradov. Azərbaycan və Ümumdünya Ticarət təşkilatı. Bakı -2006

11.Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik Bakı-2005

12.Q.İmanov,Y.Həsənli.Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri.Bakı 2001

13.Şərq tərəfdaşlığı proqramı müstəvisində Azərbaycan və Avropa İttifaqı münasibətləri // Tarix və onun problemləri, 2010, №4, s. 158-167

14.T.F.Mirkisili. Azərbaycanın xarici ticarət siyasəti: reallıqlar və perspektivlər.Bakı-2004
15.T.Vəliyeva, (2014). Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının inkişaf dinamikası, Strateji Araşdırmalar Mərkəzi, Sayı 2(9), ss. 131-145.
16.Z.Məmmədov. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri. Bakı-2004

**Xarici dildə**

1. Avrupa Birliği-Azerbaycan İlişkileri Çerçevesinde Azerbaycanın AB'ye Siyasal Ve Yönetsel Entegrasyonu. Mehman Ahmedov İstanbul 2015
2. Belgin AKÇAY , Avrupa Birliği'nin Ekonomik Kriterleri ve Türkiye - -2008
3. Cerrah,U. (2015). Enerji Güvenliği ve Avrupa Birliği, Enerji Diplomasisi (Ed) H.Çomak, C. Sancaktar, Z. Yıldırım, İstanbul: Beta Yayınevi, ss. 150-171.
4. Çağrı ERHAN ve Deniz Senemoğlu (Ed.) ,Avrupa Birliği'nin Ortak Savunma ve Güvenlik Politikası",Avrupa Birliği Politikaları,İmaj Yayınevi,Ankara,2007
5. H.N.Seyidoğlu.Uluslararası iqtisadi nəzəriyyə, təcrübə və uyğunlama.İstanbul 1998
6. Rövşen Şahbazov,Yeni Küresel sistemde Avrupa Birliği ve Güney Kafkasya Genişleme ve Komşuluk Politikası Ekseninde 2015.s. 232
7. Selin Dilekli Kadriye Yeşilkaya , Maastrıcht Kriterleri - 2002

1. "Conflict Resolution in the Caucasus: the EU role", Europe Report N.173 – 20 march 2006, ICG.
2. Commission Staff Working Paper, SEC(2005) 286/3, Brussels, 2.3.2005 \
3. Christopher P. M. Waters .Democratization and the Rule of Law in Azerbaijan: Europe's Relevance", (ED.), The State of Law in The South Caucasus, Palgrave MacMillan, New York, 2005
4. Dr. Cynthia Buckley Dr. Anar Valiyev , Dr. Leyla Sayfutdinova .Study Serıes On Publıc Polıcy Issues. Baku 2018.

5. European Report, EU – Caucasus: EU Gives Conditional Support to the Region, European Report, European Information Service, Brussels, 23 June 1999.
6. European Comission, Joint Action Plan for Russia and the Caucasus, DG1A of the Comission of the European Union, Brussels,1996.
7. Herziq, Edmund. The New Caucasus: Armenia, Azerbaijan and Georgia, The Royal Institute of International Affairs, Cassel, London, 1999.
8. Helly, Damien. « EU's Influence in Its Eastern Neighbourhood : The Case of Crisis Managment in the Southern Caucasus », European Political Economy Review No: 7, (Summer 2007).
9. Nelson, B. F. and Stubb, A., Hampshire, Palgrave Macmillan ,Deutsch, Karl W. 2003" Political Community and North Atlantic Area", TheEuropean Union: Readings on the Theory and Practice of European Integration, (ed.),
10. President of the Republic of Azerbaijan. Exc. Order No 1963. State program on creation of system of biometric identification in the Azerbaijani Republic for 2007-2012. 13.02.2007.
11. Recommendatıon No 1/2018 Of The Eu-Azerbaıjan Cooperatıon Councıl of 28 September 2018 on the EU-Azerbaijan Partnership Priorities [2018/1598]
12. Rosamond, Ben, Theories of European Integration, Palgrave St. Martin‟s Press, New York, 2000
13. Sala-i-Martin, Xabier. Crotti, Roberto. Di Battista, Attilio. Drzeniek Hanouz, Margareta. Galvan, Caroline. Geiger, Thierry. Marti, Gaëlle. World Economic Forum & Columbia University. Reaching beyond the new normal: Findings from the Global Competitiveness Index 2015-2016. 2016.
14. Cristina Juan Carrion . "Why Azerbaijan needs a Strategic Reform of its foreign policy towards the European Union?" ,2016.p.32
15. The Copenhagen Criteria and the Enlargement of the European Union. Copenhagen 14 May 2013

16. Tanja A. Börzel/Yasemin Pamuk/Andreas Stahn .The European Union and the Promotion of Good Governance in its Near Abroad- -2008-page-41

**WEB saytlar**

1. http://www.canaktan.org/ekonomi/yeni-avrupa/uyelik.htm
2. http://mfa.gov.az/content/114
3. https://www.heritage.org/index/country/azerbaijan
4. https://www.bbc.com/azeri/azerbaijan/2013/07/130701_azerbaijan_eu_relations
5. https://tr.tradingeconomics.com/azerbaijan/gdp-growth-annual
6. https://eeas.europa.eu/headquarters/headquarters-homepage_fi/4013/EU-Azerbaijan%20relations
7. http://www.europarl.europa.eu/factsheets/en/home
8. http://ec.europa.eu/trade/policy/countries-and-regions/countries/azerbaijan/
9. http://brussels.mfa.gov.az/content/38
10. http://www.ENPI-info.eu/library/content/azerbaijan-enp-country-report
11. https://www.indexmundi.com/factbook/compare/azerbaijan.european-union/economy
12. http://economy.gov.az/index.php?option=com_content&view=article&id=1038&Itemid=183&lang=az (31.05.2015)
13. http://ec.europa.eu/agriculture/
14. http://europa.eu/scadplus/leg/en/lvb/l34011.htm
15. http://www.cieel.gr/en/research/tacis.jsp.

## Cədvəllərin siyahısı

Cədvəl 1. Azərbaycanın Aİ ilə xidmətlərin ticarəti…………………………......……38
Cədvəl 2. Azərbaycanın Aİ ilə malların ticarəti………………………..…......……38
Cədvəl 3. Azərbaycanın Aİ ilə olan ticarətində malların tərkibi……………………39
Cədvəl 4. Aİ-in Azərbaycana yardım sahələri…………………..……………......42

## Qrafiklərin siyahısı

Qrafik 1. İllər üzrə iqtisadi sərbəstlik dərəcəsi………………..……………………55
Qrafik 2. Qanunvericiliyin təsir gücü……………………………………….………..56
Qrafik 3. Dövlətin maliyyə siyasəti……………………………………..…………56
Qrafik 4. Tənzimləyici qurumların effektivliyi………………………………………57
Qrafik 5. Açıq bazarlar haqqında vəziyyət…………………………….……………..57